Ortopedik müalicədən üç il sonra tam çıxan lövhəli protez hazırlanmış bütün pasiyentlərin hamısını müayinə edə bilməmişik. Onlardan 8 nəfər müxtəlif səbəblərdən müayinəyə gəlmədi, 6 nəfər isə rəhmətə getmişdir. Qalan bütün pasiyentlər müayinə olunmuşdur. Onlardan 4 nəfər hər iki protezindən, 3 nəfər isə alt protezindən istifadə etmirlər (7 nəfər-2,76%).

Həmçinin tam çıxan lövhəli protezlərindən istifadə edən 102 nəfərin (41,16%) protezlərinin yenidən dəyişmələrinə ehtiyac var. Yaşa və cinsə uyğun olaraq tam çıxan lövhəli protezə ehtiyacı olan xəstələrin cədvəl 1-dən də göründüyü kimi qadınlarda kişilərə nisbətən çoxdur.

Cədvəl 2-dən aydın olur ki, tam çıxan lövhəli protez konstruksiyasının dəyişdirilməsinə ehtiyac 60-74 yaşda (II qrup) daha yüksəkdir. Belə ki,birincili tam çıxan lövhəli protez hazırlanmasına ehtiyac 134 nəfərdə (52,76%), təkrar protez hazırlanmasına ehtiyac isə 120 nəfərdə (47,24%) qeyd olunmuşdur. Tam çıxan lövhəli protezlərə ehtiyac bütün hallarda 100%-ə bərabərdir. Təkrar protez hazırlanmasına ehtiyac olan 24 nəfərin (20,0%) birinci, 26 nəfərin (21,67%) ikinci, 32 nəfərin (26,67%) üçüncü, 18 nəfərin (15,00%) dördüncü, 16 nəfərin (13,33%)

sahəsi yumşaq toxumalarında atrofiya, sərt toxumalarda isə rezorbsiya prosesinin yaratdığı dəyişikliklər vizual olaraq daha aydın görsənir. İkincili tam adentiyanın tam çıxan lövhəli protezlərlərlə ortopedik müalicəsindən sonra protez yatağında və protezdə yaranmış dəyişikliklərlə əlaqədar olaraq orta göstərici kimi üç ildən bir protezlərin yenilənməsinə ehtiyac yaranır.

**Maliyyə mənbəyi**: Yoxdur.
**Maraqların toqquşması**: Yoxdur.

**Ədəbiyyat siyahısı.**

1.*Bayramov Y.İ. Sadullah Üçtaşlı.* Tam çıxan lövhəli protezlərlə ortopedik müalicənin məqsədi // Sağlamlıq. 2019; 1: 95-199.

2.*Алимский А.В., Вусатый В.С.,Прикулс В.Ф.* Медико-социальные и организационные аспекты современной геронтостоматологии // Россий-ский стоматологический журнал. 2004; 2:38-40.

3.*Войтяцкая И.В.* Анатомо-физиологическое обоснование объема и тактики лечения стомато -логических больных со сниженным прикусом.: Дисс….док. мед.наук. Санкт-Петербург. 2016; 74:157.

4.*Грачев Д.П.* Повышение эффективности ортопедического лечения и качества жизни больных с полным отсутствием зубов на

5.*Ерошенко Р.Э., Стафеев А.А.* Анализ распространенности стоматоло-гических заболеваний, требующих ортопедического лечения, среди сельского населения Омской области // Стоматология. 2018; 1: 9-15.
6.*Ершов К.А.* Особенности адаптации к съем-ным зубным протезам у пациентов геронто-логического возраста в различных социальных группах.: Дисс….канд. мед.наук. Москва., 2019; 41-44.
7.*Климов А.Г.* Клинические подходы к оценке качества съемных зубных и челюстных протезов: автореф.дисс.…канд.мед.наук. Санкт -Петербург. 2006; 21.
8.*Клинеберг И., Джагер Р.* Окклюзия и клиническая практика. М.: МЕД-пресс, 2006; 200.
9.*Маркскорс Р.(Marxkors R)* Геронтостоматология //Новое в стоматологии. 2005; 3: 46-54.
10.*Трезубов В.Н.,Сапронова О.Н.,Розов Р.А.,и др.* Изучение удельного веса зубных протезов различных конструкций у населения / Мат. XVII Всеросс. научно-практ. конф.М.2007; 163-164.
11.*Bayramov Y.İ.* Functional measurement in orthopedic treatment with full denture// Theoretical & Applied Science/İnternational Scientific Journal/Philadelphia, USA. 2019; 10 (78): 380-382.
12.*Ehrenkranz H.,Langer B.,Marotta L.* Com-pletearch maxillary rehabilitation using a custem-designed and manufactured titanium framework: A clinical report V/J.Prosthet.Dent. 2008; 99(1-8):

# İMMUNOMODULYATORLARIN TƏTBİQİNİN XRONİK TONZİLLİTLƏRİN MÜALİCƏSİNDƏ ƏHƏMİYYƏTİ

Əbilova F.A., Sücəddinova A.C.,Şadlinskaya A.A., Hüseynova M.Ə.
*Azərbaycan Tibb Universiteti. Otorinolarinqologiya kafedrası. Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019

***Əlaqə üçün məlumatlar:** AZ 1022, Bakı, S. Vurğun küç 41; e-mail: a_farida80@mail.ru

İşin məqsədi:Tonzillektomiyaya əks və əsas göstərişlər olmadıqda, xəstəliyin remissiya və kompensasiya mərhələsinə nail olmaq üçün və badamcıqların immun funksiyasını qorumaq məqsədilə konservativ müalicədə immunomodulyatorların təsirinin öyrənilməsi. aparılmalıdır.
Material və metodlar: Müşahidələr 1 il müddətində ambulator şəraitdə aparılmışdır. Əsas kriteriya kimi anamnezində xroniki tonzillit olan xəstələrin angina residivi ilə kompleks müalicəsində immunomodulyatorların sağaldıqdan sonra təyin olunub, olunmaması olmuşmur. Xəstələr iki qrupa ayrılmışdır: 50 nəfərdən ibarət əsas qrup, hansınınki kompleks müalicəsində immunomodulyatorlar istifadə olunmuşdur, və 30 nəfərdən ibarət kontrol qrupda təyin olunmamışdır. Anginanın fonunda bütün xəstələrə ambulator şəraitdə standart antibakterial terapiya aparılmışdır.
Nəticələr:Angina residivlərinin sayı əsas qrupda 2 dəfə az (7 xəstədə, 14%), kontrol qrupda 7 xəstədə (23,3%); ilkin müşahidə dövründə isə əsas qrupda 8 (16%), kontrol qrupda isə 10 (33,3%) olmuşdur. Eyni zamanda ümumi vəziyyətin və damaq badamcığının vəziyyətinin pisləşməsi əsas qrupda 20 (40%) xəstədə, kontrol qrupda 13 (42%) xəstədə olmuşdur. Beləliklə xronik tonzillitin kəskinləşməsi (angina və pisləşmə) 6 ay ərzində əsas qrupda 33 halda halda (66%), 25 (83,3%) halda isə kontrol qrupda olmuşdur.
Yekun: Kompleks müalicədə immunomodulyatorun üstünlüyünü və angina residivlərini, damaq badamcıqlarının və ümumi vəziyyətin pisləşməsinin tezliyinin azalması, patoloji prosesin gedişatının pisləşməsinin qarşısının alınmasının kliniki üstünlüyünü göstərdi.

*Açar sözlər: obstruktiv sindrom, xorultu, apnoe, adenoidlər*

# THE IMPORTANCE OF IMMUNOMODULATORS IN TREATMENT OF CHRONIC TONSİLLİTİS

Abilova F.A., Sujaddinova A.A., Shadlinskaya A.A., Huseynova M.A.
*Azerbaijan Medical University, Department of Otorhinolaryngology. Baku, Azerbaijan*

Publication date: December 2019
*Contact information: AZ 1143, Baku, S.Vurgun street 41; e-mail: a_farida80@mail.ru

Purpose of the study: to study the effect of immunomodulators during the conservative treatments to attain remission and compensation stage and protect immune function of tonsils when there is no indication for tonsillectomy.
Material and methods: Observation were held in 1 year in ambulatory condition. Important criteria is prescription of immunomodulators in recovery period of patients with chronic tonsillitis anamnesis as a part of complex treatment. The patients were divided treatment and control group. Immunomodulators added to complex treatment to 50 patients with treatment group. 30 patients members of control group receive a standart treatment. All patients with Strep throat prescribed the antibacterial therapy.
Results: The residive decrease twice less (7 patients 14%) in treatment group, 7 patients 23,3% in control group. There were 8 patients (16%) treatment group and 10 patients (33,3%) in during early observation period. The same moment the complication the condition of general health and palatine tonsil in treatment group 20 (40%) patients, 13 patients (42%) control group.
Thereby the acuteness of chronic tonsillitis (strep throat and complication) have been 33 patients (66%)in treatment group, 25 patients (83,3%) in control group.
Conclusion: The advantage of immunomodulatorsapplication in complex treatment are reduced the residives and incidence of acute tonsillitis.

*Key words: Immunomodulator, tonsillitis, immun system*

**Giriş.** Orqanizmin yerli və humoral sisteminin formalaşmasında damaq badamcıqlarının rolunu araşdırmaq məqsədi ilə son illərdə bir çox elmi işlər bu mövzuya həsr olunmuşdur. Bakterioloji və sitotoksik effektə malik, leykositar mənşəli təbii antibiotiklərin sintezi, (defenzinlər, laktoferrinlər), proteolitik fermentlərin (proteaza, lipaza qlyukozidlər, fosfotazalar)və lizosimin sintezi, limpopoetik toxumalarda gedən proseslər, antitellərin və sekretor immunoqlobulinlərin əmələgəlməsi, faqositlərin miqrasiya prosesinin requlyasiyası, ekzositoz, faqositoz və digər funksiyalar damaq badamcıqlarının insanın müdafiə-uyğunlaşma reaksiyalarında mühüm rolunu göstərir. Limfoid toxumasında B antigenlərin və T hüceyrələrin tanınması və təqdimatı lakunalarda gedir və antigen spesifik B və T hüceyrə reaksiyaları nəticəsində immun cavab reaksiyası formalaşır və fəaliyyətə başlayır. Xroniki tonzillit zamanı damaq badamcıqlarındakı iltihabi proses daha qabarıq xarakter alır və yalnız lakunalar sahəsində deyil, həmçinin limfatik və qan damarları daxil olmaqla badamcığın daha dərin qatlarına yayılır. Xroniki tonzillit damaq badamcıqlarında davamlı iltihabi proseslə özünü göstərən infeksion allergik xəstəlik hesab olunur. Özünü morfoloji olaraq alterasiya, eksudasiya və proliferasiya kimi göstərir və bu səbəb-dəndə orqanizmin təbii rezistentli faktorlarının tükənməsinə gətirir, immunitetin humoral və hüceyrə bəndlərinin pozulmasına səbəb olur. Kliniki olaraq xroniki tonzillit özünü periodik olaraq anginaların kəskinləşməsi kimi, bir çox hallarda ürək-damar endokrin, böyrəklər və oynaqlar tərəfindən patoloji dəyişikliklər, regionarlimfoadenit ağırlaşmalar kimi özünü göstərir.

Kliniki-immunologiya cəhətdən xroniki tonzillit ikincili immunodefisit vəziyyət kimi qiymətləndirilir, humoral və hüceyrə immunitetindəki disbalans kimi qiymətləndirilir. Eyni zamanda da immun disbalans xəstəliyin xroniki gedişinin səbəbi olur. Hüceyrə immunitetinin pozulması özünü qanda aktiv T hüceyrələrin və faqositar aktivliyi olan neytrofillərin azalması kimi göstərir. Bununla əlaqəli olaraq damaq badamcıqlarının yerli immunoloji aktivliyi zəifləyir və immunoloji funksiyasının dekompensasiyasına gətirib çıxarır, bu isə öz növbəsində xəstəliyin toksik allerqik formasının yaranmasına səbəb olur. Damaq badamcıqlarının immunoloji funksiyasının pozulma dərəcəsi vacib kliniki proqnostik kriteriya kimi qiymətləndirilir, və tonzillektomiyanın zərurətliyini artırır.

Xronik tonzillitin iki kliniki forması: aydın klinik mənzərəsi olmayan və damaq badamcıqlarında yerli dəyişikliklərlə müşahidə

olunan (kompensasiya mərhələsi) anginasız forma və anginalarla tez-tez təkrarlanan forması ayırd edilir (subkompensə mərhələsi). Xronik tonzillitin kəskinləşməsi il ərzində 1-3, hətta 5-6 dəfəyə qədər ola bilir.

**İşin məqsədi:**Tonzillektomiyaya əks və əsas göstərişlər olmadıqda, xəstəliyin remissiya və kompensasiya mərhələsinə nail olmaq üçün və badamcıqların immun funksiyasını qorumaq məqsədilə konservativ müalicədə immunomodulyatorların təsirinin öyrənilməsi olmuşdur.

**Material və metodlar:** Xronik tonzillitin müalicəsində müalicəsi immunotrop preparatlarla yanaşı yerli və ümumi təsirli kompleks müalicəni özündə birləşdirir. Kliniki tədqiqatlar göstərib ki, immunomodulyator-ların istifadəsitənəffüs yollarının kəskin və xroniki xəstəlikləri zamanı, iltihab və intoksikasiya əla -mətlərinin azalmasına, sağalmanın və ümumi vəziyyətin yaxşılaşmasını tezləşdirir. İkincili immunodefisit ilə müşahidə olunan xronik və residivləşən iltihabı xəstəliklər zamanı yerli immunomodulyatorların istifadəsinin xüsusi əhəmiyyətini qeyd etmək olar. İmmunomodulyatorların əsas xüsusiyyəti faqositar hüceyrələrin (monositlərin, makrofagların, neytrofillərin, təbii killerlərin) funksional metobolik aktivliyinə seçici təsiridir, hansıki nəticədə onların funksional-metobolik aktivliyini artırır və ya azaldır. İmmunomodulyatorlar T və B limfositlərin prolifrasiyasını requlə edir, alfa və qammainterferonunun endogen interferonun sintezini stimulə edir, immunoqlobulin G, M, A və onların affinitetlərin səviyyəsini yüksəldir. Makrofaqların və monositlərin funksional vəziyyətinin yaxşılaşdırılması, intoksikasion sindromun və iltihabın davamlılığının azalmasına səbəb olur. Bunlardan əlavə immunomodulyatorların bir neçə mexanizmlərlə realizə olunan antioksidant təsiri də var: düz antoksidant təsir, reaksion birləşmələrin inaktivasiyası, antioksidant fermentlərin aktivliyinin tənzimi, makrofaqlar tərəfindən aktiv radikallarin (oksigen və hidrogen peroksidi) sistezinin azalması. Bu mexanizmlər iltihab prosesinin tez zamanda məhdudlaşmasına və orqanizmin müdafiə funksiyasının korreksiyasına gətirib çıxarır.

Praktikada xronik iltihab prosesin müalicəsinin effektivliyi yüksəltmək və LOR orqanlarının patologiyası ilə yanaşı kəskin respirator infeksion xəstəliklərin simptomlarını azaltmaq məqsədi ilə kompleks terapiyada immunomodulyatorlar istifadə olunur. Bununla yanaşı, immunomodulyatorun LOR orqanlarının xroniki xəstəliklərin gedişatına, xəstəliyin kəskinləşməsinə və remissiyanın davamlılığına təsiri hələdə öyrənilməməkdədir.

Xronik tonzillitin kompleks müalicəsində yerli immunomodulyatorların təsirini öyrənmək üçün klinik praktikada prospektiv müşahidələr aparılmışdır.

Müşahidələr 1 il müddətində ambulator şəraitdə aparılmışdır. Əsas kriteriya kimi anamnezindəxroniki tonzillit olan xəstələrin angina residivi ilə kompleks müalicəsində immunomodulyatorların sağaldıqdan sonra təyin olunub, olunmaması olmuşmur. Xəstələr iki qrupa ayrılmışdır: 50 nəfərdən ibarət əsas qrup, hansınınki kompleks müalicəsində immunomodulyatorlar istifadə olunmuşdur, və 30 nəfərdən ibarət kontrol qrupda təyin olunmamışdır. Anginanın fonunda bütün xəstələrə ambulator şəraitdə standart antibakterial terapiya aparılmışdır. Kəskin proses söndükdən sonra müalicə sxem üzrə verilmişdir: 1 tab gündə 4 dəfə (5 gün), sonraki müddətdə 2 gün fasilədən sonra 1 tab-dan gündə 4 dəfə (15 gün).Xəstələrin sonrakı müşahidəsi 30 gün, 6 və 12 ay olmuşdur. Tədqiqatın birinci meyarı müşahidə dövründə keçirilən anginaların miqdarı, ikincisi isə lakunalarda olan dəyişikliklər (irin möhtəviyyatının çoxalması, ödem, damaq badamcığı toxumasının pıxtalaşaması, ümumi vəziyyətin pisləşməsi) və kəskin respirator xəstəliklərin çoxalması götürülmüşdür.

**Tədqiqatın nəticələri və onların müzakirəsi:** Farinqoskopiyada damaq badamcığı-

nın vəziyyəti dəyərləndirilən zaman əsas və kontrol qrupda olan 45 xəstədə (45%) badamcıqların iltihabı hipertrofiyası ilə birlikdə, xəstələrin yarısından çoxsunda isə lakunalarda kazeoz detrit müşahidə olunmuşdur.

Müşahidələrimizin ilk 30 günlük nəticələrinə görə əsas qrupun 96,8%-də kontrol qrupun 92%-də anginalar müşahidə olunmamışdır.1-2 xəstədə təkrari angina, 5 (10%) və 8 (26,6%) xəstədə isə damaq badamcıqlarının vəziyyətinin pisləşməsi olmuşdur. Hər 2 müşahidə qrupundan yalnız 1 xəstədə KRX ilə xəstələnmə halı müşahidə olunmuşdur. Ümumilikdə xronik tonzillitin kəskinləşməsi (angina və pisləşmə) 30 gün ərzində əsas qrupda 6 hal-da (12%), kontrol qrupda isə 7 (23,3%) halda rast gəlinmişdir.

Beləliklə angina residivlərinin sayı əsas qrupda 2 dəfə az (7 xəstədə, 14%), kontrol qrupda 7 xəstədə (23,3%); ilkin müşahidə dövründə isə əsas qrupda 8 (16%), kontrol qrupda isə 10 (33,3%) olmuşdur. Eyni zamanda ümumi vəziyyətin və damaq badamcığının vəziyyətinin pisləşməsi əsas qrupda 20 (40%) xəstədə, kontrol qrupda 13 (42%) xəstədə olmuşdur. Beləliklə xronik tonzillitin kəskinləşməsi (angina və pisləşmə) 6 ay ərzində əsas qrupda 33 halda (66%), 25 (83,3%) halda isə kontrol qrupda olmuşdur.

**Yekun:** Aralıq nəticələr xəstələr arasında, ilkin 30 günlük və sonrakı uzunmüddətli müşahidələr, kompleks müalicədə immunomodulyatorun üstünlüyünü və angina residivlərini, damaq badamcıqlarının və ümumi vəziyyətin pisləşməsinin tezliyinin azalmasını göstərdi. İmmunomodulyatorların tətbiqi xronik tonzillit olan xəstələrdə, ağırlaşmaların və patoloji prosesin gedişatının pisləşməsinin qarşısının alınmasınınkliniki üstünlüyünü göstərdi. Sonrakı müşahidələr bizə bu preparatların tonzillektomiyaya əks göstərişlər olan xəstələrdə remissiya və xəstəliyin qənaətbəxş gedişini izləməyə imkan verəcək.

**Maliyyə mənbəyi**: Yoxdur.
**Maraqların toqquşması**: Yoxdur.

**Ədəbiyyat siyahısı.**

1. *Быкова В.П., Бахтин А.А.* Эпителиальные структуры слизистых оболочек верхних дыхательных путей –связующее звено врожденного и адаптивного иммунитета // Российская ринология, 2016; 1:43-49
2. *Быкова В.П.* Состояние лимфоэпителиальных органов глотки у детей после местной иммуномодулирующей терапии //Архив патологии, 2011; 3: 43-50
3. *Гаращенко Т.И. Алферова М.В., Зеленкова И.В.* Иммуномодуляторы топического применения в профилактике и лечении хронического аденоидита у детей //Вестник оториноларингологии, 2011;2:62-65
4. *Гизингер О.* Комплексная терапия воспалительных заболеваний ЛОР- органов с использованием препарата ветерон //Врач, 2015; 10: 40-44
5. *Гизингер О., Коркмазов М., Щетинин С.* Иммуно-стимулирующая терапия при хроническом аденоидите у детей //Врач, 2015; 9: 25-29
6. *Карпова Е.П., Заплатников А.Л., Тулупов Д.А.* Иммунопрофилактика инфекций верхнего отдела респираторного тракта у часто болеющих детей // Вестник оториноларингологии, 2015; 5: 80-84
7. *Gupta V., Gupta M., Matreja P., Singh S.* Efficacy of MometasoneNazal Spray in Children with Snoring due Adenoids // Clinical Rhinology: An International Journal, 2014; 7(1):1-4
8. *Liu X., Zheng Y., Tian P. et al.* The impact of tonsillectomy with or without adenoidectomy on voice: acoustic and aerodynamic assessments // J. Voice, 2015; 29 (3): 346-348
9. *Sadeghi-Shabestari M., JabbariMoghaddam Y.,* Ghaharri H. Is there any correlation between allergy and adenotonsillar tissue hypertrophy? // Int. J. Pediatr. Otorhinolaryngol., 2011; 75(4); 589-591
10. *Sharon D.R., Shraddha M., Harold S.P.* Tonsillectomy and adenoidectomy // Pediatric clinics of NorthAmerica,2013;4: 793-807

# AZƏRBAYCAN ŞƏRAİTİNDƏ QULAQLI KİRPİLƏRİN (Hemiechinus auritus G. 1770) MAKROMORFOLOJİ ƏLAMƏTLƏRİ

Əlizadə S.A.

*Azərbaycan Tibb Universiteti. Tibbi biologiya və genetika kafedrası Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019

***Əlaqə üçün məlumatlar:** AZE 1007, Bakı, Q. Quliyev küçəsi 41, mən. 76; e-mail: selizade@amu.edu.az

Tədqiqatın məqsədi Azərbaycanda rast gəlinən kirpi növlərini morfologiyasını, bioekoloji xüsusiyyətlərini, respublikamızın teriofaunasındakı taksonomik statusunu müəyyənləşdirməkdir.

Tədqiqatın material və metodları: Material olaraq, Azərbaycan respublikasının müxtəlif regionlarından toplanan kirpilərdən istifadə olunmuşdur. Tədqiqat nəticəsində alınan məlumatlar N.A. Ploxinskiy və E.V. İvanter, A.V. Korosovaya görə hesablanaraq bioloji və riyazi xətaları azaldılmışdır. Stasionar tədqiqat ərazilərində kirpilərin rast gəlmə tezliyi Rafkinə görə verilən düsturla hesablanıb. Növü təyin edərkən Pavlinov və b-nın irəli sürdükləri morfofizioloji indikator metodundan istifadə edilmişdir.

Tədqiqatın nəticələri: Qulaqlı kirpi maksimum çəki artımına qış yuxusuna getməzdən öncə çatırlar, bu məsələdə də cinsi dimorfizm özünü göstərir. Qulaqlı kirpinin kəlləsinin kranioloji ölçüləri bölgələrdən asılı olaraq, xarakter formada dəyişir və minimum ölçü ilə maksimum ölçü arasında kifayət qədər fərq müşayiət olunur. Postnatal inkişafın erkən dövründə tikanların sürətlə inkişafı və tez bir zamanda codlaşması kirpilərin tarixi inkişafında yaşamaq uğrunda qazandığı uyğunlaşma əlamətidir. Qulaqlı kirpilərin daxili orqalarının indeksi göstərir ki, ürək və qaraciyərin nisbi kütləsi ilin fəsillərindən, heyvanın fizioloji vəziyyətindən, cinsindən və yaşından asılı olaraq dəyişir.

Yekun: Tədqiq olunan qulaqlı kirpilərin kranioloji göstəricilərində kəllənin kondilobazal uzunluğu, burun sümüyünün uzunluğu və alın sümüyü ölçülərində növdaxili populyasiya fərqinin olması müşahidə olunur. Belə ki, həm qulaqlı kirpilərin şimal populyasiyası nümayəndələrinin kəllə ölçüləri cənub populyasiya fərdlərindən aşağıdır. Qulaqlı kirpilərin daxili orqalarının indeksinin dəyişilmələri respublikamızın öyrənilən bölgələrinin hər birində özünəməxsus şəkildə müşahidə olunur. Bu zaman müşahidə olunan bölgələrarası fərq yüksək deyil.

*Açar sözlər: Qulaqlı kirpi, adi kirpi, kranioloji, tikan.*

# MACROMORPHOLOGICAL CHARACTERS OF LONG - EARED HEDGEHOGS *(Hemiechinus auritus G. 1770*) IN HABITAT OF AZERBAIJAN

Alizade S.A.

*Azerbaijan Medical University. Department of Medical Biology and Genetics. Baku, Azerbaijan*

Publication date: December 2019

*Contact information: AZ 1007, Baku, G.Guluev str. 41, apartment 76; e-mail:selizade@amu.edu.az

The purpose of the study. In article presents the results of years of research on environmental of microbiology of the river Akstafachay and Akstafachayskogo reservoir. Revealed, that the river formed on the territory of the Armenian Republic and the river Akstafachay heavily polluted municipal, industrial wastewater of some areas of the northeastern region of Armenia. Also found that the enriched labile organic matter and periphyton-enterobacteria allochthonous origin, pond on trophic refers to eutrophic, sanitary-hydrobiological estimates - to polusaprobnym types, this water of rivers and reservoirs are not suitable for drinking.

Materials and methods of the study. For determine the role of mikromitcety-migrant in the mineralization of organic substrates, also an active participant of the process of self-purification were used water samples from the sediment,also submerged decaying and the stems of reeds, cane, algae, macrophytes, exuvia insects and fish remains.

Results of the study. For the first time were obtained information about the quality and quantity of mycelial microscopic fungi at freshwater for example of the Mingachevir water reservoir, and explored mikromitcetami-migrant oxidation organic substances of autochthonous and allochthonous origin.

Finally. Is established that for the development of seasonal mikromitsetov-migrants in the Mingachevir reservoir are hogs. Thus, the skull sizes of north population representatives of long - eared hedgehogs are lower than the south pop-

ulation individuals. Changes in the indexes of internal organs of long - eared hedgehogs are observed specifically in each studied regions of our republic. In such case the observed interregional difference is not high.

*Key words: Long - eared hedgehog, european hedgehog, craniological, thorn*

**Giriş.** Azərbaycanın ayrı - ayrı bölgələrindən əldə etdiyimiz canlı qulaqlı kirpilər (*Hemiechinus auritus G. 1770*) və fiziki cəhətdən qismən dağılıb yararsız hala salınmamış cəsədlər üzərində morfometrik ölçülər aparmışıq və kütlə dəyişilməsinə diqqət yetirmişik. Bu əlamətlərin təsviri bir qayda olaraq Azərbaycanın Naxçıvan Muxtar respublikası və Kiçik Qafqaz fiziki coğrafi regionları istisna olmaqla bütün respublikanı əhatə edir. Aparılan tədqiqat bölgələrdə kirpi populyasiya -larının sıxlığını, landşaftlar üzrə fərdlərin say dinamikasının dəyişilməsini hərtərəfli öyrənməyə, bölgələrdəki populyasiyalar arasında müqayisə aparmağa imkan verir. Eləcə də növün təyinində morfoloji kriteri kimi qəbul olunur [1, 2, 3, 4, 5].

**Tədqiqatın məqsədi** Azərbaycanda rast gəlinən kirpi növlərini morfologiyasını, bioekoloji xüsusiyyətlərini, respublikamızın teriofaunasındakı taksonomik statusunu müəyyənləşdirməkdir.

**Tədqiqatın material və metodları:** Azərbaycan respublikasının müxtəlif regionlarından toplanan kirpilərdən, bundan başqa, kirpi cəsədləri Azərbaycan Tibb Universiteti Osteologiya muzeyi materiallarından və eləcə də AMEA Zoologiya İnstitutu Teriologiya laboratoriyası muzeyi materallarından istifadə olunmuşdur.

Kirpilər üzərində morfometrik ölçülərin aparılması zamanı, xarici orqanlarını müşahidə edən zaman və cinsi dimorfizmini təyin edən zaman, tikanların ələ batmaması üçün əlcəklərdən istifadə olunurdu. Bir qayda olaraq kirpilər günün alatoranlıq və qaranlıq vaxtlarında ov itlərinin köməkliyi ilə tapılırdı, ancaq bu itlər heç zaman onları zədələmirdi. Əldə olunan heyvanlar üzərində morfometrik ölçülər götürülürdü, kütləsi dəqiqləşdirilirdi, dişləri yoxlanılırdı, sonra isə təbiətə buraxılırdı. Kirpilərin makromorfoloji parametrləri kiçiklərdə stangenpərgarla, nisbətən irilərdə isə xətkeş ilə (0,1mm dəqiqliklə) ölçülmüşdür. Bədən kütləsi "Da yong hinq" elek-tron tərəzilərində (0,1 qr dəqiqliklə), interyer göstəriciləri isə (daxili orqanların kütləsi və bağırsaqların uzunluğu nəzərdə tutulur) analitik tərəzidə (0,001 qr dəqiqliklə) və xətkeşlə ölçməklə aparılıb. Daxili orqanlardan ürəyin, mədənin, dalağın, qaraciyərin, ağciyərlərin, böyrəklərin, bağırsaqların, toxumluğun və yumurtalığın mütləq və nisbi kütləsi, bağırsaqların uzunluğunun ölçülməsi isə ümumi qəbul olunmuş Şvarts və b. [6] metodlarına əsasən aparılmışdır. Bağırsaqların uzunluğu, onun əyriləri düzəldikdən sonra xətkeşlə ölçülmüş və uzunluq indeksi bədən uzunluğuna əsasən hesablanmışdır.

Tədqiqat nəticəsində alınan bütün morfometrik, ekoloji və faunistik analizlərin orta statistik göstəriciləri (M) - bu göstəricidən kənarlanmalar (m), kvadrat kənarlanma (əyilmə - б) və dəyişmə əmsalının tətbiqi nəticəsində (CV %) alınan məlumatlar N.A. Ploxinskiy [7], və E.V. İvanter, A.V. Korosovaya [8] görə hesablanaraq bioloji və riyazi xətaları azaldılmışdır.

**Tədqiqatın nəticələri və onların müzakirəsi**. Respublikanın Quba - Xaçmaz, eləcə də Şamaxı - Qobustan regionlarından əldə etdiyimiz qulaqlı kirpilərin kütlə artımı orta hesabla 250 qramdan 550 qramadək, bəzən isə hətta 670 qram arasında dəyişir. Müşahidələr göstərir ki, 600 - 700 qram arasında olan qulaqlı kirpilər boğaz olanlardı, balaladıqdan sonra kütlə artımı xeyli azalır. Digər tərəfdən qulaqlı kirpi maksimum çəki artımına qış yuxusuna getməzdən öncə çatırlar, bu məsələ də cinsi dimorfizm özünü göstərir.

Adətən yüksək çəki artımı erkəklər arasında müşahidə olunur, dişi fərdlər nə qədər

də çox və tez - tez qidalansa da, onların çəkisi 600 qrama çatmır.

Belə hesab edirik ki, ana fərdlər boğaz olarkən və laktasiya dövründə embrio-nun inkişafı və balalarını bəsləmək üçün ki-fayət qədər kütlə və enerji itirirlər, həmin göstəriciləri bərpa etmək isə tez bir zamanda baş vermir. Nəzərə alinsa ki, ekoloji şəraitin dəyişməsi, xüsusilə soyuqların tez düşməsi (qışın tez gəlməsi nəzərdə tutulur), qida ehtiyatının azalmaq üzrə kəskin dəyişilməsi ana kirpilərin heç 500 qram çəkini almasına imkan vermir. Belə vəziyyət bir tərəfdən hə-min ana kirpilərin qış yuxusu dövründə ölüm ehtimalını artırır, digər tərəfdən isə onların vaxtından əvvəl oyanmasına səbəb olur ki, bu heyvanlar üçün o qədər də arzuolunan hal deyil. Respublikamızın şimal bölgəsi iqlim cəhətdən soyuq zona olduğundan yuxa-rıda söylənilənlər daha tez - tez müşahidə olunur. Ona görə də bu ərazidə yaşayan qulaqlı kirpilər tarixi inkişafda kəskin iqlim dəyişilmələrinə qarşı uyğunlaşma əlamətləri qazanıblar, əks halda nəsli kəsilərdi və bu günümüzədək gəlib çatmazdı.

Kirpilərin müxtəlif növlərinin kranioloji aspektdə aparılan elmi işləri çox azdır [9, 10, 11, 12].

Bu bölmənin əsas məqsədi tədqiqat aparılan bölgələrdə qulaqlı kirpilərin fərdi və bölgələr üzrə kranioloji əlamətlərinin dəyişilməsini ətraflı şərh etməkdir. Bunun üçün 34 ədəd bir yaşdan yuxarı olan qulaqlı kirpi kəllələri tədqiq edilib. Respublikamızın bölgələri üzrə kirpi kələlərini cinsi dimorfizmə görə fərqləndirmək mümkündür: belə ki, erkək fərdlərin kəllə ölçüləri, xüsusilə kondilobazal uzunluq, yuxarı diş sümüyünün uzunluğu, almacıq sümüyünün eni və beyin boşluğu eninə görə dişi fərdlərə nisbətən böyükdür.

Alınan nəticələrin həddindən çox olmasını nəzərə alıb, onları iki qrupda cəmləşdirmişik: Azərbaycanın şimal və cənub bölgələrindən əldə etdiyimiz kirpiləri əsas vahid kimi götürmüşük. Və hər bir kəllə üzərində 25 ölçü götürülüb. Növün təyinində bir indikator qəbul olunan bəziləri üzərində ətraflı dayanaq və alınan nəticələrin bəzilərini müqayisə edək. Kəllənin kondilobazal uzunluğu şimal bölgəsində olan qulaqlı kirpilərdə 42,7 mm; cənub bölgəsində bu göstərici 45,4 mm - dir. Bu göstəricini şimal və cənub kirpiləri arasında müqayisə etdikdə aydın olur ki, cənub qulaqlı kirpilərində bu ölçü, çimal kirpilərindən 2,7 mm böyükdür. Kəllənin hündürlüyü ölçüsündə də regionlar arası fərqin olması müşayiət olunur.

Bəzi metrik ölçülər şimal bölgəsi kirpiləri ilə cənub bölgəsi kirpilərində təqribən eynidir. Məsələn, kəllənin beyin şöbəsinin uzunluğu şimal bölgəsi qulaqlı kirpilərində 14,3 mm, cənub bölgəsi qulaqlı kirpilərində isə 14,6 mm - dir. Əgər şimal bölgəsində qulaqlı kirpilərdə kəllənin hündürlüyü M=13,3 mm - dirsə, onda cənub bölgəsi kirpilərində bu göstərici 14,9 mm - ə bərabərdir. Qeyd etməliyik ki, qulaqlı kirpilərin şimal bölgəsi populyası ilə cənub bölgəsi populyasiyası arasında kranioloji göstəriciyə görə fərq rostrumun uzunluq (RU) ölçüsündə də özünü göstərir. Belə ki, şimal qulaqlı kirpilərində rostrumun uzunluğu 18,4 mm olduğu halda cənub bölgəsi qulaqlı kirpilərində 19,5 mm - ə bərabərdir, fərq 1,1 mm - dir. Belə hesab edirik ki, cənub bölgəsi populyasiyasında iybilmə orqanın daha yaxşı inkişafı ilə əlaqədardır.

Kranioloji əlamətlər arasında mühüm yer tutanlardan biri də üst və alt çənədə maksimal eni, diş sıralarının uzunluğu və ümumən dişlərin düzülməsi məsələsidir. Diqqətçəkən fikir ondan ibarətdir ki, kirpilərdə diastema olmur və dişlər çənə üzərində bir cərgədə düzülüblər, onların yeyilməsi və düşməsi isə həm kirpinin yaşı və həm də qəbul etdiyi qidanın fiziki halından çox asılıdır. Göstərilən əlamət kirpiləri daha qədim məməli heyvan olmasını özündə əks etdirən əlamətlərdən biridir. Üst çənənin maksimal eni bütün qulaqlı kirpi populyasiyalarında təqribən eynidir. Alt çənənin uzunluq və hündürlük parametrlərində müqayisə aparılan regionlarda yaşayan populyasiya-

lar arasında ciddi bir morfometrik fərq müşahidə olunmur.

Qeyd etməliyik ki, növlər arası fərqin olması tam təbii olan məsələdir, lakin regionlar arası fərqin olması çox güman ki, yerli təbii - coğrafi şəraitin təsirindən formalaşıb. Respublikamızın şimal və cənub bölgələrində olan qulaqlı kirpi populyasiyası fərdləri ara-sında müşahidə olunan bu fərqləri hər şeydən əvvəl Kür və Araz çaylarının təbii təcridedici amil kimi olması ilə izah etmək olar. Çox güman ki, populyasiya fərdlərin bir - birinə inteqrasiya edə bilməməsi və sərbəst çarpaz-laşıb çoxala bilməməsi nəticəsində onlar arasında morfoloji fərqlərin yaranmasına və gələcəkdə də artmasına səbəb olub. Digər tərəfdən, bu heyvanların özlərinin də nisbətən passiv və az hərəkətli olmasi həmin populyasiyaların tədricən bir - birindən uzaqlaşmasına və gələcəkdə sərbəst bir yarımnöv kimi formalaşmasına gətirib çıxara bilər.

Qulaqlı kirpilərin interyer əlamətlərinin tədqiq edərkən biz onların ürəyinin nisbi kütlə dəyişməsini (ümumi kütləyə olan nisbəti) ilin fəsilləri üzrə və cinsi dimorfizmi nəzərə almaqla öyrəndik. (Cədvəl 1).

Məlum oldu ki, qulaqlı kirpilərin erkəklərinin ürəyi dişilərə nisbətən bir qədər ağırdır (1,005 dişilərdə, 1,18 erkəklərdə), ilin fəsillərini götürdükdə isə payız fəslində hər iki növdə ürəyin nisbi kütləsi yüksəkdir.

Bu cəhət təbii olmaqla yanaşı onun çox sadə bir izahı da var. Qulaqlı kirpilər qış yuxusuna getməzdən öncə çox intensiv qidalanırlar, ona görə də ürəyin piylənmə ehtimalı da artır. Xüsusi qeyd etməliyik ki, payız fəslində magistral yol kənarlarından əldə etdiyimiz və az zədələnmiş qulaqlı kirpi cəsədlərini anatomirə edərkən ürəyin güclü piylənməsi faktını dəfələrlə müşahidə etmişik. Ürəyin nisbi kütləsinin ən aşağı göstəricisi tədqiq olunan növdə yazın əvvəlinə təsadüf edir. Güman etmək olar ki, qış yuxusu dövründə kirpilərin ürək fəaliyyəti kifayət qədər aşağı olur, fiziki cəhətdən çox zəifdirlər, ümumi fəallıqları da yüksək deyil. Baxmayaraq ki, qış yuxusuna gedən heyvanların bütün fizioloji göstəriciləri, o cümlədən ürək döyüntülərinin sayı azalır, maddələr mübadiləsinin intensivliyi aşağı düşür. Ancaq kirpilər ardıcıl olaraq 4 bəzən də 5 ay qida qəbul etməyərək, ehtiyat qida mənbəyi olan piylərinin əriməsi - istifadə olunması hesabına sağ qalırlar. Bu zaman ürək piyi də istisnalıq təşkil etmir və istifadə olunur.

Bu orqanın nisbi kütləsinin dəyişilməsinə bir neçə aspektdən yanaşılıb.

Cədvəl 1.

Qulaqlı kirpilərin cinsi dimorfizmə görə bəzi daxili orqanlarının mütləq və nisbi kütləsi (♀ n=12, ♂ n= 10)

| Orqanlar | Qulaqlı kirpi | | | |
|---|---|---|---|---|
| | Mütləq kütlə | | Nisbi kütlə | |
| | ♀ | ♂ | ♀ | ♂ |
| Ürək | 2,72±0,37 | 3,1±0,36 | 1,005 | 1,18 |
| Qaraciyər | 4,25±0,41 | 5,1±0,24 | 1,55 | 1,9 |
| Dalaq | 1,2±0,16 | 1,24±0,11 | 0,49 | 0,51 |
| Böyrək | 3,6±0,12 | 3,7±0,10 | 0,73 | 0,73 |
| Böyrəküstü vəzi | 0,5±0,01 | 0,52±0,01 | 0,2 | 0,2 |
| Bağırsaqlar | 14,8±1,1 | 15,2±1,2 | 5,66 | 5,8 |
| Ümumi kütlə | 261±12,7 | 264±12,2 | - | - |

Bu orqanın nisbi kütləsinin dəyişilməsinə bir neçə aspektdən yanaşılıb. İlin fəsil dəyişməsindən, qida tərkibinin müxtəlifliyindən və ayrı - ayrı fərdlərin özlərinin fizioloji vəziyyətindən asılı olaraq qaraçıyərin nisbi kütləsi artıb azala bilir. Yaz fəslində toplanmış qulaqlı kirpi cəsədlərinin qaraçıyərinin nisbi kütləsi yay və payız fəsillərində olanlardan yüksək olur. Bu məsələyə qulaqlı kirpinin qəbul etdiyi qida tərkibinə görə yanaşdıqda isə qaraciyərin nisbi kütləsi yay aylarında yüksək olur. Cinsi dimorfizm kontekstindən yanaşdıqda dişilərdə, xüsusilə onların boğazlıq dövrünün sonlarında qaraciyərin nisbi kütləsi erkəklərlə müqayisədə artıq olur.

Bütün canlılarda bədən örtüyü çox mühüm funksiyalar yerinə yetirir və mühitə uyğun olaraq müxtəlif quruluşa, formaya malikdir. Kirpilərin bədən örtüyü istisnalıq təşkil etmir, əksinə özünəməxsus olmaları ilə digər canlıların bədən örtüyündən kəskin fərqlənirlər. Kirpilərin bədən örtüyü olan dəridə digər heyvanlarda olmayan tikanların çox erkən, yəni anadan olan gün çıxması və postnatal inkişafın elə birinci həftəsində codlaşması - möhkəmlənməsi maraqlı bioloji hadisələrdən biridir. Tikanların inkişafının belə sürətlə getməsi və onlarda metrik ölçülərin aparılması alimlərin diqqət mərkəzindən kənarda qalıb.

Qulaqlı kirpilərin tikanlarının metrik ölçüləri aşağıdakı kimi xarakterizə olunur. Hər şeydən öncə qulaqlı kirpilərin tikanlarının bütün göstəriciləri adi kirpilərlə müqayisədə azlıq təşkil edir. Məsələn, tikanların ümumi uzunluğu qulaqlı kirpilərdə orta hesabla M=18,4 mm, ancaq adi kirpilərin eyni adlı göstərici 26,4 mm - dir. (Cədvəl 2.) Bunu təbii hal kimi qəbul etmək olar, ona görə ki, adi kirpinin bütün parametrləri, o cümlədən kütlə və eksteryer ölçüləri, eləcədə daxili orqanların göstəriciləri qulaqlı kirpilərlə müqayisədə xeyli üstünlük təşkil edir.

Tikanların enində (TE) o qədər də fərq görünmür. Tikanların ucundakı ağ və qara zolaqların uzunluğuna diqqət yetirdikdə isə müəyyən qədər fərqin olması aydın görünür. Əgər qulaqlı kirpilərdə ağ zolağın uzunluğu 3,3 mm - dirsə, onda adi kirpilərdə bu göstərici 4,9 mm - ə bərabərdir. Qara zolaq hər iki növdə bir qədər uzundur. Belə ki, qulaqlı kirpilərdə qara zolaq 4,6 mm, adi kirpilərdə bir qədər də çox - yəni 6,2 mm - ə bərabərdir. Ağ zolaqla qara zolaq arasında növlərarası müqayisə apardıqda elə bir ciddi fərqin olmaması aydın olur. Tikanların codluğu məsələsinə gəldikdə isə adi kirpilərin tikanları qulaqlı kirpilərin tikanlarına nisbətdə daha cod olurlar.

Daha bir məsələyə aydınlıq gətirək: postnatal inkişafın erkən dövründə tikanların sürətlə inkişafı və tez bir zamanda codlaşması kirpilərin tarixi inkişafında yaşamaq uğrunda qazandığı uyğunlaşma əlamətidir. Kirpi balaları anadan kor və aciz doğulurlar və analarının maksimum bir aydan bir qədər çox onlara qulluq edir, qidalandırır və düşməndən qoruyur. Məhz tikanlarının codlaşması və yumaq əmələ gətirmək qabiliyyəti onları düşmənlərindən qorumaqla bu günə gətirib çıxarıb.

**Nəticə:** Qeyd etməliyik ki, kəllənin kranioloji ölçülərinə görə növlər arası fərqin olması tam təbii olan məsələdir, lakin regionlar arası fərqlər yerli təbii - coğrafi şəraitin təsirindən formalaşıb. Respublikamızın şimal və cənub bölgələrində olan qulaqlı kirpi populyasiyası fərdləri arasında müşahidə olunan bu fərqləri hər şeydən əvvəl Kür və Araz çaylarının təbii təcridedici amil kimi olması ilə izah etmək olar. Populyasiya fərdlərinin bir - birinə inteqrasiya edə bilməməsi və sərbəst çarpazlaşıb çoxala bilməməsi onlar arasında morfoloji fərqlər yaranmasına və gələcəkdə də artmasına səbəb olub. Digər tərəfdən, bu heyvanların özlərinin də nisbətən passiv və az hərəkətli olmasi həmin populyasiyaların tədricən bir - birindən uzaqlaşmasına və gələcəkdə sərbəst bir yarımnöv kimi formalaşmasına gətirib çıxara bilər.

Daha bir məsələyə aydınlıq gətirək: postnatal inkişafın erkən dövründə tikanların sürətlə inkişafı və tez bir zamanda codlaşması

Cədvəl 2.

Azərbaycanda rast gəliınən qulaqlı *(H.auritus)* və adi *(E.europaeus)* kirpilərin tikanlarının metrik ölçüləri (mm - lə)

| Orqanlar | Qulaqlı kirpi | | | |
|---|---|---|---|---|
| | Mütləq kütlə | | Nisbi kütlə | |
| | ♀ | ♂ | ♀ | ♂ |
| Ürək | 2,72±0,37 | 3,1±0,36 | 1,005 | 1,18 |
| Qaraciyər | 4,25±0,41 | 5,1±0,24 | 1,55 | 1,9 |
| Dalaq | 1,2±0,16 | 1,24±0,11 | 0,49 | 0,51 |
| Böyrək | 3,6±0,12 | 3,7±0,10 | 0,73 | 0,73 |
| Böyrəküstü vəzi | 0,5±0,01 | 0,52±0,01 | 0,2 | 0,2 |
| Bağırsaqlar | 14,8±1,1 | 15,2±1,2 | 5,66 | 5,8 |
| Ümumi kütlə | 261±12,7 | 264±12,2 | - | - |

kirpilərin tarixi inkişafında yaşamaq uğrunda qazandığı uyğunlaşma əlamətidir.

Qulaqlı kirpilərin daxili orqalarının indeksi göstərir ki, ürək və qaraciyərin nisbi kütləsi ilin fəsillərindən, heyvanın fizioloji vəziyyətindən, cinsindən və yaşından asılı olaraq dəyişir.

Bu dəyişilmələr respublikamızın öyrənilən bölgələrinin hər birində özünəməxsus şəkildə müşahidə olunur. Lakin, daxili orqanların indeks göstəricilərində bölgələrarası fərq yüksək deyil.

**Maliyyə mənbəyi**: Yoxdur.

**Ədəbiyyat siyahısı.**

1. *Павлинов И.Я., Крускоп С.В., Варшавский А.А., и др.* Наземные звери России. Сравочник-определитель. 2002; 13-21.

2. *Рамазанов Х.М.* Материалы к экологии обыкновенного ежа. 2006; 261-263.

3. *Саварин А.А.* О причинах сходства отдельных фенетических признаков белогрудого ежа Кавказа и Белорусского Полесья: факты и гипотезы. 2003; 78-80.

4. *Темботова Ф.А., Пузаченко Ю.Г., Кононеко Е.П.* Изменчивость осевого скелета ежей рода *Erinaceus (Erinaceidae, Insectivora*) Кавказа. 2005; 84(4): 476-491.

5. *Young R.P., Davison J., Trewby I.D., Wilson G.J., et al.* Abundance of hedgehogs *(Erinaceus europaeus)* in relation to the density and distribution of badgers. 2006; 269(3):349-356.

6. *Шварц С.С., Смирнов В.С., Бобринский Л.Н.* Метод морфофизиологических индигаторов. 1968; 346.

7. *Плохинский Н.А.* Биометрия. 1979; 367.

8. *Ивантер Э.В., Коросов А.В.* Основы биометрии (Введение статистический анализ биологических явлений и процессов). 1992; 163.

9.*Həsənov N.Ə.* Azərbaycan ərazisində *Erinaceus* cinsindən olan kirpilərin *(Mammalia, İnsectivora)* sistematik statusu. Azərbaycan Zooloqlar Cəmiyyətinin əsərləri. 2010; II cild, 857-862.

10. *Гурьева С. Ю.* Обыкновенный еж. «Зооклуб», 2007; 2-7.

11. *Лихотоп Р.И.* О сверхкомплектности костей черепа обыкновенного ежа. Вестник зоологии, 1988; № 2. 76-77.

12. *Hsu Meng-Haop., Hsu Tung-Ching., Wu Wen-Jep.* Distribution of cat fleas (*Siphonaptera: Pulicidae*) on the cat. 2002; 39(4), 685-688.

# AĞSTAFAÇAY VƏ AĞSTAFAÇAY SU ANBARININ MİKROBİOLOJİ REJİMİ VƏ EKOLOJİ VƏZİYYƏTİ

Ənsərova A.H.

*Azərbaycan Tibb Universiteti. Tibbi biologiya və genetika kafedrası Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019

***Əlaqə üçün məlumatlar:** Bakı, H. Əliyev küçəsi 33, mən. 39; e-mail: ansarova.aynur@amu.edu.az

Tədqiqatın məqsədi. transsərhəd sularımızın əsası sayılan Kür-Araz çaylarının çoxsaylı qollarından biri, ölkəmizdən kənarda,Ermənistanda kəskin çirklənən Ağstafaçay və Ağstafaçay su anbarında aparılan ekoloji-mikrobioloji tədqiqatların nəticələri təqdim etməkdir..

Tədqiqatın material və metodları.Mikrobioloji tədqiqatlar üçün su və lil-qrunt nümunələri Ağstafaçay və Ağstafaçay su anbarından nümunələr götürülmüşdür.Bütün nümunələr aseptik qaydalara riayət olunmaqla mikrobioloji analizəkmələr aparılmışdır. Tədqiqatın gedişində A.S.Razumov(su) və S.V.Vinoqradski(lil-qrunt)üsuluna əsasən,fizioloji qrupa aid və enterobakter cinsinə məxsus bakteriyalar V.İ.Romanenko,S.İ.Kuznetsovun mikrobioloji-laboratoriya işləri metoduna müvafiq işlənmişdir.

Tədqiqatın nəticələri. Ağstafaçay su anbarında fizioloji qrupa məxsus olan bakteriyalardan ammonlaşdırıcı, denitratlaşdırıcı,sulfatlaşdırıcı, sərbəst azotmənimsəyənlər (aeroblardan Azotobacter cinsi, anaeroblardan isə Clostridium pasteurianum) və sellülozaparçalayanlar ayrıca öyrənilmişdir.Su anbarı şəraitində isə aerob bakteriyalar əsasən suyun üst təbəqəsində (0,5-1m),anaeroblar isə başlıca olaraq dərin sahələrin dib qatında və lil-qruntda inkişaf edirlər. Göstərilən bakteriyalardan sayca çoxluq təşkil edənlər-ammonlaşdırıcı bakteriyalar daha geniş yayılmışdır.

Yekun. Ağstafaçay su anbarından məişətdə istifadə edilməsinin təhlükəli olmasını əsaslandıran göstəricilərdən biri,bütün il boyu sularda enterobakter cinsinə məxsus koliform bakteriyaların əldə edilməsidir.İlin fəsillərində sayca çox az dəyişən koliform bakteriyaların ümumi sayı çay sularında,orta hesabla 69ml,su anbarında isə 43ml təşkil edir.Beləliklə Ağstafaçay ölkəmizdən kənarda üzvi-fekal çirklənməyə məruz vəziyyətdədir.

*Açar sözlər: Saprofit bakteriyalar, fizioloji qruplar, saprobluq dərəcəsi, antropogen evtroflaşma, hipoksiya*

# MICROBIOLOGICAL MODE AND ECOLOGICAL CONDITION OF THE RIVER AKSTAFACHAY AND AKSTAFACHAYSKOGO RESERVOIR

Ansarova A.H.

*Azerbaijan Medical University. Department of Medical Biology and Genetics. Baku, Azerbaijan*

Publication date: December 2019

*Contact information: Baku, H.Aliyev str. 33, apartment 39; e-mail:ansarova.aynur@amu.edu.az

The aim of the research is to determine the morphology, bioecological characteristics, taxonomic status in the teriofauna of our republic of hedgehog kinds encountered in Azerbaijan.

The material and methods of the research: Hedgehogs collected from different regions of the Republic of Azerbaijan were used as material. The information obtained as a result of research were calculated according to N.A. Plokhinskiy and E.V. Ivanter, A.V. Korosova and mathematical mistakes were reduced. Morphophysiological indicator method proposed by Pavlinov et all was used while determining the kind.

The results of the research: Long - eared hedgehogs reaches the maximum weight increase before the winter sleep, in this issue sexual dimorphism is shown. Craniological indicators of studied long - eared hedgehogs changes on each studied regions characteristically and a sufficient difference is observed between minimal and maximal sizes. In the early stage of postnatal development, rapid development of thorns and hardening in a short period are the symptoms of the adaptation gained by hedgehogs for the sake of living in their historical development. Index of internal organs of long - eared hedgehogs shows that relative weight of heart and liver changes depending on the seasons of year, physiological condition, gender and age of animal.

*Key words: Saprophytic bacteria, physiological groups, speed saprophytes, anthropogenic eutrophication, hypoxia*

**Giriş.** Azərbaycanın ümumi su balansının 60-70%-ni, ölkə ərazisindən kənarda formalaşan transsərhəd sular təşkil edir və bu səbəbdən də həmin suların kəmiyyət-keyfiyyətcə sabit saxlanılması da bizdən asılı deyildir. Ölkəmizdə su bir də ona görə azdır ki, Cənubi Qafqazın su ehtiyatının 14%-i bizim əraziyə düşür. Üstəlik, Azərbaycan Respublikasının təbii coğrafi iqlim şəraiti, sənaye infrastrukturu və başqa amil-səbəblərlə əlaqədar olaraq su qıtlığı, demək olar ki, bütün tarixi dövrlərdən mövcud olmuşdur. Məhz qeyd edilən obyektiv səbəblərə görə, ölkə ərazisində suya olan tələbatın ödənilməsi üçün çaylar üzərində sututarlar, hidrotexniki qurğular, suvarma kanalları, drenaj şəbəkələri yaradılmışdır. Hazırda bu kompleksə aid 135 müxtəlif sahə-həcmli su anbarlarında, 22 mlrd kubmetrə qədər su ehtiyatı toplamaq mümkün olmuşdur ki, onlardan biri, 120 mln $m^3$ həcmli Ağstafaçay su anbarıdır. Orta Kürə məxsus olan Ağstafaçay, böyük strateji əhəmiyyət daşımaqla, bizə məxsus olan Kür çayı axarına Ermənistanla sərhəddən axan ilk transsərhəd çaydır. Ermənistanın şimal-şərqində, Pambaq dağlıq ərazisində formalaşan Ağstafaçay, Azərbaycanla sərhədə qədər 134 km-ə bərabər axını boyu 4-5 rayona məxsus yaşayış məntəqələrinin məişət, aqrar təsərrüfatları və yerli sənaye obyektlərinin çirkab sularını qəbul edib, Ağstafaçay su anbarında cəmləşdirir. Kəskin dərəcədə çirklənən çay suları, Ağstafaçay su anbarı şəraitində tamamilə yeni – fiziki, kimyəvi, sanitar-hidrobioloji xassələr kəsb edir və təəssüflər olsun ki, ölkəmizin qərb bölgəsində 70 min ha qədər əkin sahələrinin suvarılmasından başqa, əhali tərəfindən məişətdə də istifadə olunur. Ona görə də Ağstafaçayda və Ağstafaçay su anbarında ekoloji, mikrobioloji tədqiqatlar aparılmasını aktual saymaq lazımdır.

**Tədqiqatın məqsədi** transsərhəd sularımızın əsası sayılan Kür-Araz çaylarının çoxsaylı qollarından biri, ölkəmizdən kənarda, Ermənistanda kəskin çirklənən Ağstafaçay və Ağstafaçay su anbarında aparılan ekoloji-mikrobioloji tədqiqatların nəticələri təqdim etməkdir.

**Tədqiqatın material və metodları.** Mikrobioloji tədqiqatlar üçün su və lil-qrunt nümunələri Ağstafaçayda (Ermənistan ərazisində) 1973, 1978, 1986 və 1990-cı illərin yayında, Ağstafaçay su anbarında isə epizotik müşahidələrimizdən (1973-2004-cü illər) başqa, 1990, 1996 və 2013-cü illərdə fəsillər üzrə aparılmışdır. Çayda nümunələr əsas 3 məntəqə -dən – Ermənistanın Dilican (A), Krasnoselsk (B) və İcevan (V) rayonları ərazisində, su anbarında isə – 5 stansiya-yerdən götürülmüşdür. Bütün nümunələr aseptik qaydalara riayət olunmaqla – sular Y.İ.Sorokin batometri və lil -qrunt isə steril şpatel (çayda), kiçik QOIN borucuğu (su anbarında) ilə götürülmüşdür. İlkin mikrobioloji analiz-əkmələr nümunə götürülən vaxtdan 2 saatdan gec olmadan aparılmışdır (çöl-ekspedisiya şəraiti və stasionar-laboratoriya). Mikrobların ümumi miqdarı A.S.Razumov (su) və S.V.Vinoqradski (lil-qrunt) üsullarına əsasən, 3 saylı membran süzgəclər (filtr) üzərində saymaqla, fizi-oloji qrupa aid və enterobakter cinsinə məxsus bakteriyalar V.İ.Romanenko, S.İ.Kuznetsovun mikrobioloji-laboratoriya işləri metoduna müvafiq işlənmişdir. Hər dəfə, müşahidələr zamanı suların temperatur, şəffaflıq göstəriciləri (civə sütunlu termometr və ağ rəngli Sekki lövhəsi ilə) və ərimiş oksigen qazının miqdarı Vinkler üsulu ilə təyin edil-mişdir.

**Tədqiqatın nəticələri və onların müzakirəsi.** Ağstafaçayda ilk tədqiqatlarımız su anbarı yaradılandan 4 il keçəndən sonra aparılmışdır. Həmin dövr Ağstafaçay su anbarının forma-laşması, özünəməxsus sabitləşməsi illəri sayıldığına görə, çay sularının və su anbarında toplanan suların fiziki-kimyəvi xassələrini müəyyən etmək əsas məqsəd sayılmışdır. Alınan nəticələrdən aydın oldu ki, çay suları axım boyu Ermənistanda kəskin dərəcədə alloxton maddələrlə zənginləşir və bunun da başlıca mənbəyi çirkab sularıdır (cədvəl 1).

Cədvəl 1.
Ağstafaçayda suda (mln/ml), lil-qruntda (mlrd/q) mikrobların ümumi sayı və saprofit bakteriyaların suda (min/ml) və lil-qruntda (mln/q) miqdarı (yay fəsli)

| İl | Mikrobların ümumi sayı | | | | | | Saprofit bakteriyaların miqdarı | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | suda | | | lil-qruntda | | | suda | | | lil-qruntda | | |
| | A | B | V | A | B | V | A | B | V | A | B | V |
| 1973 | 6,2 | 5,3 | 8,3 | 2,1 | 2,3 | 2,7 | 10,3 | 8,3 | 13,2 | 2,6 | 1,8 | 3,3 |
| 1978 | 8,3 | 7,2 | 10,2 | 3,3 | 3,8 | 4,2 | 14,8 | 10,4 | 15,4 | 3,3 | 2,3 | 4,8 |
| 1986 | 9,6 | 8,3 | 13,6 | 3,8 | 4,1 | 4,6 | 15,3 | 12,6 | 16,8 | 4,2 | 3,5 | 5,9 |
| 1990 | 12,3 | 10,3 | 14,3 | 4,0 | 4,3 | 5,3 | 16,7 | 13,3 | 17,4 | 4,8 | 4,1 | 6,7 |

Cədvəldən məlum olur ki, mikrobların ümumi miqdarı keçən 17 ildə hər üç məntəqədə, orta hesabla 2 dəfə çoxalmışdır. Bununla belə, ərazilər (şəhər-qəsəbələr) üzrə fərqli cəhətlər aydın nəzərə çarpır. Əgər tədqiqat aparılan dövrün əvvəli və sonuna aid göstəricilərə diqqət yetirilərsə, aydın olur ki, Dilican və İcevan şəhərləri sahələrə nisbətən, Krasnoselsk (Cəmbərək) məntəqədə Ağstafaçay sularında mikrob hüceyrələrinin bütün illərdə sayı, orta hesabla, 30-35% azdır. Maraqlıdır ki, bu "azal -ma" o demək deyildir ki, çayda su təmizdir. Belə ki, Böyük və Kiçik Qafqazda formalaşan çaylarda apardıqlarımız çoxsaylı tədqiqatların nəticələrinə əsasən müəyyən edilmişdir ki, mikrobların ümumi sayı dağ çaylarında 1,6-2 mln/ml artıq deyildir. Ehtimal et-mək olar ki, "A" məntəqəsində yayda suda mikrobların 6-12 mln/ml təşkil etməsi, ilk növbədə antropogen mənşəli üzvi çirklənmə ilə əlaqədardır. Səciyyəvi cəhətlərdən biri də odur ki, Dilicanda (A) çirklənən sular-da Krasnoselsk məntəqəsinə (B) kimi axım məsafəsin-də mikrobların azalması, cəmi, 8-12% təşkil edir. Bu da o deməkdir ki, çay məcrası boyu 45-50 km-ə bərabər məsafədə çayda öz-özünə təmizlənmə prosesləri olduqca zəifdir və "V" məntəqəsinə kimi (İcevan) öz sabit vəziyyətini bərpa etmədən, əlavə olaraq alloxton maddələrlə çirklənir. Ağstafaçayın eyni adlı, Azərbaycanda yaradılan su anbarına kimi sahədə, kənarda, yəni, Ermənistan ərazisində müxtəlif çeşidli pollyutantlarla çirklənməsi, o cümlədən də məişət-kommunal mənşəli üzvi maddələrlə zənginləşməsi, saprofit bakteriyalara aid göstəricilərlə də aydın nəzərə çarpır. Çoxsaylı müşahidələrdən məlum olmuşdur ki, hidromikrobiotada, asan mənimsənilən, məişət çirkabı ilə sulara qarışan zülal xassəli üzvi maddələrə ən həssas, məhz saprofit bakteriyalardır. Cədvəl 1-də aydın göstərilmişdir ki, Ağstafaçayın suyunda, lil-qruntunda saprofit bakteriyaların miqdarı, müvafiq olaraq 17 min/ml və 6,7 mln/q çatır ki, belə göstəricilər sabit ekosistemli dağ çaylarının sularına aid edilə bilməz. Maraqlıdır ki, mikrobların ümumi sayından fərqli olaraq, saprofit bakteriyaların miqdarı bütün tədqiqat aparılan illərdə yüksək səviyədə saxlanılır. Bu da o deməkdir ki, Ağstafaçay bütün məntəqələrə aid axım boyu antropogen təsirlərə məruz vəziyyətdədir. Ona görə də Ağstafaçay su anbarında çay vasitəsilə gətirilən alloxton maddələr, biogen elementlər suda və lil-qruntda heterotrof bakteriyaların və fitoplanktonun kütləvi vegetasiyasına səbəb olur, müxtəlif metabolitlər, fitonsidlər suyun fiziki-kimyəvi xassələrinə mənfi təsir edərək, onu istifadə üçün yararsız edir (cədvəl 2).

Tədqiqatın məqsədi: Külmə - Rutilus rutilus caspicus (Jakowlev, 1870) Xəzər su hövzəsinin vacib sənaye balığllarından biridir. Azərbaycanın su hövzələrində bu balığın parazit faunası haqqında ədəbiyyatda müəyyən məlumatların mövcud olmasına baxmayaraq onun miksosporidləri yetərincə öyrənilməmişdir.

Tədqiqatın material və metodları: 1995-1999-cu və 2008-2010-cu illərdə Azərbaycanın müxtəlif su hövzələrində aparılan təhlillər yığımlar bu iş üçün material olmuşdur. Ümumi qəbul olunmuş tam parazitoloji yarma metodikasına əsasən digər balıqlar ilə birlikdə Orta Kürdə, Aşağı Kürdə, Araz çayının aşağı axarında, Aqstafaçayda, Turyançayda, Lənkərançayda, Orta Xəzərin azərbaycan sahillərində və Cənubi Xəzərdə tutulmuş 108 ədəd külmə - Rutilus rutilus caspicus (Jakowlev, 1870) tədqiq olunmuşdur.

Həm təzə, həm də, dondurulmuş balıqların donunun açılmasından sonra onların yarılması nəticəsində həm vegetativ formalar, həm də, hüceyrələrdə, toxumalarda və orqanların boşluqlarında rast gəlinən sporlar aşkar olunmuşdur. Tapılan miksosporidlərin identifikasiyası prosesində və onların morfologiyasının xüsusiyyətlərinin dəqiqləşdirilməsi üçün Azərbaycan MEA Zoologiya İnstitutunun su heyvanları parazitlərinin labaratoriyasının kolleksiya materialı nəzərdən keçirilmişdir.

Tədqiqatın nəticələri: Azərbaycanın su hövzələrində tədqiq olunmuş 104 ədəd külmə balığında 19 növ miksosporidi tapılmışdır. Bu balığın qəlsəmələrində, böyrəklərində və əzələlərində 9-dan 13-ə qədər, qaraciyərində, öd kisəsində, dalağında, sidik kisəsində, ürəyində, bağırsağının divarlarında, üzgəclərinin toxumasında, gözlərində və baş beynində 1-5 növ qeyd olunmuşdur. Aşağı Kürdə külmədə 7, Orta Kürdə 6, Cənubi Xəzərdə 5, Orta Kürdə, Arazda və Aqstafaçayda 4, Turyançayda 2 növ miksosporidi aşkar edilmişdir.

Yekun: 1995-1999-cu və 2008-2010-cu illərdə Azərbaycanın möxtəlif su hövzələrində 104 ədəd külmə balığı tədqiq olunmuş və 19 növ miksosporidi tapılmışdır. Bütün tapılmış miksosporidlər boreal düzənlik mənşəlidirlər. Növlərdən biri balıqlar üçün patogen olduğu müəyyən edilmişdir.

*Açar sözləri: Külmə balığı, miksosporidi, xəzər su hövzəsi.*

## MYXOSPOREANS FAUNA OF CASPIAN ROACH *(rutilus rutilus caspicus jakowlev)* IN THE THE WATER BODIES OF AZERBAIJAN

Kerimova R.K.

*Azerbaijan Medical University. Department of Medical Biology and Genetics. Baku, Azerbaijan*

Publication date: December 2019

*Contact information: Baku, S.Rakhimov 126, apartment 18, e- mail: renakerimova65@gmail.com

The aim of the research: Caspian roach - Rutilus rutilus caspicus (Jakowlev, 1870) is one of the significant industrial fish of Caspian water basin. However, there is certain information on the parasite fauna of this fish in the water basins of Azerbaijan in the literature, its myxosporeans were studied sufficiently.

The material and methods of the research: The analyses, collections done in the different water basins of Azerbaijan in 1995-1999 and 2008-2010 were material for this thesis. Upon commonly approved full parasitological dissection method, 108 Caspian roaches - Rutilus rutilus caspicus (Jakowlev, 1870) caught in Middle Kura, Lower Kura, lower flow of River Araz, Akstafachay, Turianchay, Lankaranchay, Azerbaijani coasts of Middle Caspian and Southern Caspian with other fishes were studied. As a result of dissection of both fresh, both frozen fishes after unfreezing, both vegetative forms, both spores encountered in the cells, tissues and cavities of organs were found. In the identification process of the found myxosporeans and to specify their morphological specifications, collection materials of laboratory for water animal parasites of ANAS Zoology Institute were considered.

Results of the research: 19 kinds of myxosporeans were found in 104 Caspian roaches studied in the water basins of Azerbaijan. It was noted kinds from 9 to 13 in the gills, kidneys and muscles. 1-5 kinds in liver, gall bladder, spleen, urinary bladder, heart, intestinal walls, tissues of flippers, eyes and head brain of this fish. It was found 7 kinds myxosporeans in Caspian roach in Lower Kura, 6 in Middle Kura, 5 in Middle Caspian, 4 in Middle Kura. Aras and Akstafachay, 2 in Turianchay.

Result: During 1995 - 1999 and 2008- 2010, 104 roach fish were studied in different water basins of Azerbaijan and 19 kinds of myxosporeans were found. All found myxosporeans originated from boreal plain. One of the kinds is determined pathogenic for fish.

*Key words: Caspian roach, myxosporeans, Caspian water basin.*

**Giriş.** Miksosporidilər balıqların çoxsaylı və geniş yayılmış parazitləridir. Onlar arasında sahibdə xəstəlik törədən və sahibin ölümünə səbəb olan növlər vardır. Miksosporidilər su heyvanlarında parazitlik etməyə ixtisaslaşmışdırlar. Digər hidrobiontlarla birgə Azərbaycanın su hövzələrinə daxil olmuşdurlar və hidrofaunanın formalaşması prosesin-də iştirak etmişdirlər. Buna görə də bu orqanizmlərin tədqiqi, regionun su hövzələrində qeoloji baxımdan yaxın zamanda baş verən proseslərə aydınlıq gəti -rir. Miksosporidilərin ayrı – ayrı növləri balıqların digər parazitləri ilə birgə öyrənilmişdir. Göstərilən regionda bu qrup parazitlərin bütün nümayəndələrinin tasonomik, ekoloji, zoocoğrafi və epizootoloji analizi aparılmamışdır. Yuxarıda göstərilənləri nəzərə alarsaq, bu sahədə elmi tədqiqatların aparılması zəruridir.

**Tədqiqatın məqsədi.** Külmə - ***Ruti -lus rutilus caspicus (Jakowlev, 1870)*** Xəzər su hövzəsinin vacib sənaye balıqlarından biridir. Azərbaycanın su hövzələrində bu balığın parazit faunası haqqında ədəbiyyatda müəyyən məlumatların mövcud olmasına baxmayaraq [3,4], onun miksosporidləri yetərincə öyrənilməmişdir.

**Tədqiqatın material və metodları.** 1995-1999-cu və 2008-2010-cu illərdə Azərbaycanın müxtəlif su hövzələrində aparılan təhlillər, yığımlar bu iş üçün material olmuşdur. Ümumi qəbul olunmuş tam parazitoloji yarma metodikasına əsasən digər balıqlar ilə birlikdə Orta Kürdə, Aşağı Kürdə, Araz çayının aşağı axarında, Aqstafaçayda, Turyançayda, Lənkərançayda, Orta Xəzə -rin azərbaycan sahillərində və Cənubi Xəzərdə tutulmuş 108 ədəd külmə - ***Rutilus rutilus caspicus (Jakowlev, 1870)*** tədqiq olunmuşdur. Həm təzə, həm də dondurulmuş balıqların donunun açılmasından sonra onların yarılması nəticəsində həm vegetativ formalar, həm də, hüceyrələrdə, toxumalarda və orqanların boşluqlarında rast gəlinən sporlar aşkar olunmuşdur.

Tapılan miksosporidlərin identifikasiyası prosesində və onların morfologiyasının xüsusiyyətlərinin dəqiqləşdirilməsi üçün Azərbaycan MEA zoologiya İnstitutunun su heyvanları parazitlərinin labaratoriyasının kolleksiya materialı nəzərdən keçirilmişdir.

**Tədqiqatın nəticələri və onların müzakirəsi.** Azərbaycanın müxtəlif su hövzələrində aparılan parazitoloji tədqiqatlar nəticəsində 19 növ miksosporidi tapılmış və onların taksonomik icmalı aşağıdakı kimi verilmişdir.

***Dəstə: Bivalvulea Schulman, 1959***
***Yarımdəstə: Bipolaria Tripathi, 1949, emend. Schulman, 1959***
***Fəsilə: Myxidiidae Thelohan, 1892***
***Növ: Myxidium Butschli, 1882***

***Myxidium macrocapsulare Awerbach, 1910***. Aşağı Kürdə (22.2%) və Orta Xəzərdə (17.7%) tutulan Külmə balığının öd kisəsində qeydə alınmışdır.

Vegetativ formalar – dairəvi formalı iri plazmoidlər olub, onların diametri 850 mkm çatır. Tikiş müstəvisində nəzər -dən keçirilmə zamanı sporlar uzunsov – oval şəkilli olub, ona prependekulyar olan müstəvidə nəzərdən keçirilmə zama -nı isə S – şəkilli formaya malikdir. Sporların uzunluğu 10.2 – 11.4, eni 5.8 – 6.0, polyar kapsulaların uzunluğu – 3.4 – 4.0, onların diametri isə 2.2 – 2.5 mkm təşkil edir.

***M. pfeifferi Auerbach, 1908.*** Aşağı Kürdə (11.1%) və Cənubi Xəzərdə (16.7%) tutulan Külmə balığının öd kisəsində qeydə alınmışdır.

***M. pfeifferi Auerbach, 1908.*** Aşağı Kürdə (11.1%) və Cənubi Xəzərdə

(16.7%) tutulan Külmə balığının öd kisəsində qeydə alınmışdır.

Vegetativ formalar – kiçik plazmoidlərdir. Polyar kapsulalar müəy-yən qədər daralmış və itidir. Sporların uzunluğu 13.4 – 15.0, eni 4.7 – 5.7, polyar kapsulaların uzunluğu – 3.5 – 5.2, onların diametri 2.6 – 3.2 mkm, polyar sapın uzunluğu isə 40 – 48 mkm təşkil edir.

***M.rhodei Leger, 1905.*** Aşağı Kürdə (16.7%) Varvar su hövzəsi yaxınlığında Külmə balığının böyrəklərində qeydə alınmışdır.

Vegetativ formalar – ölçüsü 0.5 mm təşkil edən dairəvi sistalardır. Sporlar uzun formaya malikdir və müəyyən qədər daralmışdır. Polyar kapsulalar müəyyən qədər daralmış və itidir. Sporların uzunluğu 11.3 – 14.7, eni 4.7 – 6.0, polyar kapsulaların uzunluğu – 3.5 – 5.2, onların diametri 2.5 – 3.0 mkm, polyar sapın uzunluğu isə 40 – 45 mkm təşkil edir.

***Növ: Zschokkela, Auerbach, 1910***

***Zschokkela nova Klokaceva, 1914.*** Cənubi Xəzərdə (11.1%) tutulan Külmə balığının öd kisəsində qeydə alınmışdır.

Vegetativ formalar – dairəvi formalı kiçik plazmoidlər olub, onların diametri 20 mkm çatır və burada adətən, az sayda adi iki sporlar inkişaf edir. Sonuncular zəif şəkildə əyilmiş tikişə paralel olan zəif qaydada ifadə olunub tükənməklə dairəvi uca və yanlış oval formaya malikdir. Polyar kapsulalar demək olar ki, sferik formaya malikdir. Sporların uzunluğu 9.4 – 11.8, eni 5.2 – 11.8, qalınlığı – 5.2 – 6.0, polyar kapsulaların uzunluğu – 2.8 – 3.4, onların diametri isə 2.8 – 3.0 mkm təşkil edir.

***Yarımdəstə: Platysporea Kaido, 1919, emend. Schulman, 1959***

***Fəsilə: Myxosomatidae Poche, 1913***

***Növ: Myxosoma, Thelohan, 1892***

***Myxosoma circulas (Achmerov, 1960)*** Araz çayında (13.3%) tutulan Külmə balığının qəlsəmələrində, böyrəklərində və əzələlərində qeydə alınmışdır.

Vegetativ formalar – dairəvi formalı sistalar olub, onların diametri 0,4 mm - ə çatır. Sporlar dairəvi formaya malikdirlər və onların tikiş vərdənəsi yaxşı inkişaf etmişdir. Armudabənzər polyar kapsulalar müqayisədə geniş yerləşdirilmişdir. Sporların uzunluğu 8.8 – 11.2, eni 8.5 – 11.0, polyar kapsulaların uzunluğu – 3.7 – 4.7, onların diametri isə 1.9 – 2.7 mkm təşkil edir.

***Fəsilə: Myxobolidae Thelohan, 1992***

***Növ: Myxobolus Beutschli, 1882***

***Myxobolus bramae Reuss, 1906.*** Orta Kürdə (12.5%), Aşağı Kürdə (18.8%), Agstafaçayda (30.0) və Turyançayda (20.1%) tutulan Külmə balığının qəlsəmələrində, əzələlərində, böyrəklərində, qaraciyərində və dalağında qeydə alınmışdır.

Vegetativ formalar – ağımtıl və ya sarımtıl dairəvi sistalar olub, oval və ya uzununa formaya malik olmaqla, ölçüsü 3 mm çatır. Sporlar oval və ya geniş ovaldır. Onların daxilində polyar sap tez – tez görünərək, adətən 4-5 sap əmələ gətirir. Böyük (2.5 mkm qədər), ituclu, geniş əsaslı interkapsulyar çıxıntı. Sporların uzunluğu 10.8 – 12.0, eni 8.5 – 10.2, qalınlığı – 5.8 – 6.4, polyar kapsulaların uzunluğu – 5.6 – 6.8, onların diametri 2.6 – 2.3, polyar sapın uzunluğu isə 35 – 50 mkm təşkil edir.

***M.chondrostomi Donec, 1962.*** Orta Kürdə (6.3%), və Arazda (13.3%) tutulan Külmə balığının qəlsəmələrində qeydə alınmışdır.

Vegetativ formalar – dairəvi formalı kiçik sistalar olub, onların dia-

metri 40 mkm - ə çatır. Sporlar dairəvi formaya və bir qədər dairəvi dar ön zolağa malikdirlər. Polyar kapsulalar armudabənzərdir. Sporların uzunluğu 14.5 – 16.0mkm, eni 10.6 – 11.0mkm, polyar kap-sulaların uzunluğu – 7.8 – 8.2mkm, ən kiçi-yinin diametri 6,2 – 6,5 olub, onların diametri buna müvafiq olaraq 4.2 – 4.3mkm və 3.2 – 3.4mkm təşkil edir.

***M.dispar Thelohan, 1895.*** Aşağı Kürdə (16.7%), tutulan Külmə balığının qəlsəmələrində, böyrəklərində və əzələlərində, dalağında və üzgəclərinin toxumalarında qeydə alınmışdır.

Vegetativ formalar – dairəvi formalı ağımtıl sistalar olub, onların uzanmıç formasının diametri 3.1mm çatır. Sporlar dairəvi formaya və daralan, dairəvi ön uclara malikdirlər. Polyar kapsulalar armudabənzərdir. Sporların uzunluğu 11.8 – 13.4mkm, eni 8.2 – 9.6mkm, qalınlığı – 6.2 – 6.8mkm, böyük polyar kapsulaların uzun-luğu – 5.3 – 7.4mkm, ən kiçiyinin diametri 3.2 – 4.2mkm olub, onların diametri buna müvafiq olaraq 3.4 – 4.0mkm və 2.2 – 2.6mkm, böyük polyar kapsulanın ox sapının uzunluğu – 43 – 50mkm, daha kiçik polyar kapsulanın ox sapının uzunluğu isə 12-15mkm təşkil edir.

***M.exiguus Thelohan, 1895***. Orta Xəzərdə (23.5%), tutulan Külmə balığının qəlsəmələrində, böyrəklərində, öd kisəsində, dalağında və sidik kisəsində qeydə alınmışdır.

Vegetativ formalar – diametri 1mm təşkil edən sferik sistalardır. Sporlar formalarına görə oval formalara yaxın olub, ön, bir qədər dairəvi ucda daralmışdırlar. Polyar kapsulalar armudabənzərdir. Sporların uzunluğu 8.4 – 10.8mkm, eni 6.8 – 9.0mkm, qalınlığı – 4.8 – 5.2mkm, böyük polyar kapsulaların uzunluğu – 5.3 – 7.4mkm, ən ki-çiyinin diametri 3.2 – 4.2mkm olub, polyar kapsulanın uzunluğu – 4.8 – 6.2mkm, onun diametri isə 2.6-2.8mkm təşkil edir.

***M.gigas Auerbach, 1906.*** Cənubi Xəzərdə (27.8%) tutulan Külmə balığının qəlsəmələrində qeydə alınmışdır.

Vegetativ formalar – ölçüsü 0.8mm təşkil edən oval sistalardır. Dar vərdənəli sporlar və müqayisəli şəkildə qısa armudabənzər polyar kapsulalar. Sporların uzunluğu 18.5 – 19.4mkm, eni 14.8 – 15.9mkm, qalınlığı – 9.4 – 10.2mkm, polyar kap-sulanın uzunluğu – 7.8 – 7.9mkm, onun dia-metri isə 3.8-4.0mkm təşkil edir.

***M.infundibulatus Donec et Kilakowskaja, 1962.*** Orta Xəzərdə (17.7%) tutulan Külmə balığının böyrəklərində qeydə alınmışdır.

Vegetativ formalar – diametri 0.2mm təşkil edən dairəvi sistalardır. Sporlar oval olub, yüngülvari daralan arxa uca malikdir. Ön qütbdə çalaya bənzər dərinlik mövcuddur. Armudabənzər polyar kapsulalar. Sporların uzunluğu 13.8 – 14.4mkm, eni 12.2 – 12.9mkm, qalınlığı – 7.2 – 8.0mkm, böyük polyar kapsulanın uzunluğu – 7.0 – 7.4mkm, daha kiçik polyar kapsulanın uzunluğu – 5.8 – 6.0mkm, onun diametri isə buna müvafiq qaydada 4.7-4.8mkm və 3.8 – 4.1mkm təşkil edir.

***M.macrocapsularis Rauss, 1906***. Araz çayında (18.2%) tutulan Külmə balığının qəlsəmələrində, böyrəklərində və dalağında qeydə alınmışdır.

Vegetativ formalar – diametri 1.2mm təşkil edən dairəvi sistalardır. Sporlar armuda bənzər olub, daralmış və iti uclu ön zolağa malikdir. Armudabən-zər polyar kapsulalar adətən sporun yarıdan çox uzunluğuna malikdir. Spor-ların uzunluğu 12.0 – 14.2mkm, eni 7.8-9.4mkm, qalınlığı – 4.6 – 5.5mkm, polyar kapsulanın uzunluğu – 6.0 - 7,5

onların diametri 2.7 – 3.3mkm, oxvarı sapın uzunluğu isə 50 - 52mkm təşkil edir.

***M.muelleri Butschli, 1882.*** Aşağı Kürdə (22.2%), Agstafaçayda (20.0%) və Turyançayda (10.0%), Cənubi Xəzərdə (11.1%) tutulan Külmə balığının qəlsəmələrində, əzələlərində, öd kisəsində, sidik kisəsində, ürəyində, gözlərində və baş beynində qeydə alınmışdır.

Vegetativ formalar – uzunluğu 1.2 mm təşkil edən dairəvi və uzun formalı sistalardır. Sporlar adətən, dairəvi və ya geniş oval formaya malik olub, bəzən bir qədər daralmış ön zolağa malikdir. Bəzi hallarda ellipsoidli və sferik sporlara da rast gəlinir. Armudabənzər polyar kapsulalar öz uzunluqlarına görə sporun yarısına bərabərdir və ya ondan daha balacadır. İnterkapsulyar çıxıntı üçbucaqlı olub, bir o qədər də böyük ölçütə malik olmayan dairəvi zirvəyə malik olsa da, adətən, yaxşı nəzərə çarpır. Sporların uzunluğu 8.4 – 12.0mkm, eni 7.8 – 9.0mkm, qalınlığı – 5.7 – 6.2mkm, polyar kapsula-ların uzunluğu – 4.0 – 5.8mkm, onların dia-metri isə buna müvafiq olaraq 2.7 – 3.2mkm təşkil edir.

***M. musculi Keysselitz, 1908***. Aşağı Kürdə (33.3%), Agstafaçayda (30.0%) və Araz çayında (26.7%), Cənubi Xəzərdə (22.2%) tutulan Külmə balığının qəlsəmələrində, böyrəklərində, əzələlərində, öd kisəsində, dalağında, sidik kisəsində, qaraciyərində, ürəyində, bağırsağının divarında qeydə alınmışdır.

Vegetativ formalar – uzunluğu 1.8 mm təşkil edən müxtəlif formalı süd ağımtıl sistalardır. Sporlar düzgün – oval formalı olub, ön hissədə müəyyən qədər daralıblar. İnterkapsulyar çıxıntı kiçik və qalındır. Sporların uzunluğu 8.8 – 12.4mkm, eni 7.8 – 9.8mkm, qalınlığı 5.5 – 6.4mkm, ən böyük polyar kapsulaların uzunluğu – 5.0 – 6.4, daha kiçik polyar kapsulaların uzunluğu – 4.0 – 5.4mkm, onların diametri isə buna müvafiq olaraq 3.4 – 4.0 və 2.1 – 2.8mkm, polyar sapın uzunluğu isə 40 – 42mkm təşkil edir.

***M. oviformis Thelohan, 1882***. Araz çayında (6.7%) tutulan Külmə balığının qəlsəmələrində qeydə alınmışdır.

Vegetativ formalar – uzunluğu 1.1 mm təşkil edən dairəvi formalı sistalardır. Sporlar arvudvarı formalı olub, ön hissədə müəyyən qədər daralıblar və itiucludur. Armudabənzər polyar kapsulaların uzunluğu təxminən sporun uzunluğuna çatır. Sporların uzunluğu 10.6 – 12.2mkm, eni 8.4 – 10.4mkm, qalınlığı – 6.7 – 7.4mkm, polyar kapsulaların uzunluğu – 5.2 – 6.5mkm, onların diametri 2.8 – 4.0mkm, polyar sapın uzunluğu isə 43 – 58mkm təşkil edir.

***M. pseudodispar Gorbunova, 1936***. Orta Kürdə (25.0%) tutulan Külmə balığının qəlsəmələrində, böyrəklərində, əzələlərində və sidik kisəsində qeydə alınmışdır.

Vegetativ formalar – uzunluğu 0.8 mm təşkil edən dairəvi formalı sistalardır. Sporlar uzunvarı - oval formalı olub, armudabənzər polyar kapsulalar qeyri – bərabər uzunluğa malikdir. Kapsulaların zirvəsi bir tərəfə yerini dəyişərək ön zolaqdan müəyyən qədər kənar tərəfdə açılır. Sporların uzunluğu 9.6 – 11.6mkm, eni 7.2 – 8.2mkm, qalınlığı – 5.6 – 6.3mkm, polyar kapsu-ların uzunluğu: ən böyüyü – 4.4 – 5.8mkm, ən kiçiyi – 3.8 – 4.2mkm, onla-rın diametri isə buna müvafiq olaraq 2.8 – 3.4mkm, və 2.6 – 2.8 mkm təşkil edir.

***M. rutili Donec et Tozyjakova, in: Donec et Schulman, 1984***. Orta Kürdə (18.8%) və ***Donec et Schulman, 1984***. Orta Kürdə (18.8%) və Orta Xəzərdə (17.7%) tutulan Külmə balığının qəlsə-

mələrində, və əzələlərində qeydə alınmış -dır.

Vegetativ formalar – uzunluğu 0.6 mm təşkil edən dairəvi formalı sistalardır. Sporlar geniş tikiş vərdənəli oval formalıdır. Polyar kapsulalar geniş yerləşdirilərək, onların uzunluğu sporun uzunluğunun yarısından artıq olmur. İnterkapsulyar çıxıntı iri olub, geniş əsasa malikdir. Sporların uzunluğu 15.0 – 16.0mkm, eni 12.8 – 13.2mkm, polyar kapsu-laların uzunluğu – 7.8 – 8.2mkm, onların diametri isə 4.2 – 4.4mkm təşkil edir.

***M. schulmani Donec, 1962.*** Orta Xəzərdə (5.9%) tutulan Külmə balığının qəlsəmələrində, və əzələlərində qeydə alınmışdır.

Vegetativ formalar – uzunluğu 1.1 mm təşkil edən uzununa formalı sistalardır. Sporlar geniş oval formalıdır. Armudabənzər polyar kapsulalar geniş yerləşdirilmişdir. İnterkapsulyar çıxıntı üçbucaq formaya malikdir. Sporların uzunluğu 15.4 – 16.2mkm, eni 12.0 – 12.6mkm, polyar kapsulaların uzunluğu – 6.8 – 7.0mkm, onların diametri isə 4.2 – 4.3mkm təşkil edir.

***Henneguya chaibulaevi Gasimagomedov, 1970***. Orta Xəzərdə (5.9%) tutulan Külmə balığının əzələlərində qeydə alınmışdır.

Vegetativ formalar – uzunluğu 0.2 mm təşkil edən dairəvi formalı sistalardır. Sporlar oval formalı olub, öndən dairəvi olmaqla yanaşı, arxa uclar, qısa, qalın, yüngülvarı qeyri – bərabər quyruq çıxıntıları ilə tədricən daralır. Armudabənzər polyar kapsulalar qeyri – bərabər həcmə malikdir. Onların daralmış ucları bir – birinə yaxınlaş-mışdır. Ameboid rüşeymdə iri yodofil vakuola rast gəlinir. Sporların uzunluğu 12.6 – 13.0, eni 9.6 – 10.2, quyruq çıxıntılarının uzunluğu – 8.8 – 10.3, böyük polyar kapsulaların uzunluğu – 6.8 – 7.2, kiçik polyar kapsulaların uzunluğu – 5.2 – 5.6mkm, onların diametri isə buna müvafiq olaraq 3.8 – 4.2mkm və 3.0 – 3.3 mkm təşkil edir.

Azərbaycanın müxtəlif su hövzələrində məskunlaşan külmə balığının bir dəstəyə, iki yarımdəstələrə, iki fəsiləyə və dörd növlərə aid olan 19 növ qeyd olunmuşdur. Parazitlər tədqiq olunan balıqların müxtəlif orqanlarında aşkar edilmişdir: Myxobolus bramae, M. Muelleri və M. musculi dörd növdə hər biri qeydə alınmışdır. Myxidium macricapsulare, M. pfeifferi, Myoxobo-las natili və M.chondrostomi – ikisində hər biri olub, Myxidium rhodei, Zscho-kella nova, Myxosoma circulus, Myxo-holas dispar, M. exiguus, M. gigas, M. Infondibulatus, M. macrocapsulare, M. oviformis, M. pseudodispar, M.schulmani və Hennefuya chaibulaevi – hər biri külmə balığının bir orqanında qeydə alınmışdır.

Bu parazitlər daha çox külmə balığının qəlsəmələrində rast gəlinərək, burada miksosporidlərin 13 növü qeydə alınmışdır. Böyrəklərdə - 10, əzələlərdə - 9, öz kisəsində və dalaqda – hər birində 5, sidik kisəsində - 4, qaaraciyərdə və ürəkdə hər birində - 2, bağırsağın divarlarında, üzgəclərin toxumalarında, gözlərdə və baş beyində - hər birində 1 növ aşkar olunmuşdur. Onların sporlarının aşkar olunduğu miksosporidlərin vegetativ mərhələlərinin bu cür qeyri – bərabər şəkildə paylanması onunla əlaqədardır ki, bu zaman qəlsəmələr, böyrəklər, əzələlər və dalaq külli miqdarda qida maddələrinin ehtiyatına malikk olur və oksigenlə zəngin olan qanla daha yaxşı təchiz olunur.

Azərbaycanın müxtəlif su hövzələrində külmə balığı miksosporidlərin növlərinin müxtəlif növünə yoluxmuşdur.

Belə ki, Aşağı Kürdə külmədə - 7, Orta Kürdə - 6, Cənubi Xəzərdə - 5, Orta Kürdə, Arazda və Aqstafaçayda - 4, Turyançayda - 2 növ miksosporidi aşkar edilmişdir. Bununla əlaqədar olaraq miksosporidlərin sporları çayda üzü aşağı istiqamətdə tökülür, daha sonra isə dənizə çıxır və bu parazitlərin növlərinin cüzi sayı Aşağı Kürdə, Orta və Cənubi Xəzərdə məskunlaşan külmə balığında aşkar olunmuşdur. Orta Kürdə, eləcə də, Kürün qolları olan Arazda, Ağstafaçayda və Turyançayda, daha az sayda miksosporidlərin növləri aşkar olunmuşdur.

Bizim tərəfimizdən aşkar olunan bütün miksosporidlər öz mənşəyinə görə külmə balığı kimi eyni zoocoğrafi qruplaşmaya malik olmaqla yanaşı, V.N. Yakovlevin anlayışında boreal düzənlik fauna kompleksinə aiddir. Bu zaman bu balığın miksosporidlərinin tərkibində bu kompleksin bütün ekoloji qrupları mövcuddur. Belə ki, 13 növ - Myxidium macricapsulare, M. pfeifferi, M. rhodei, Zschokella nova, Myxobolus bramae, M.chondrostomi, Myxoholas dispar, M. infondibulatus, M. macrocapsulare, M. Muelleri, M. musculi, M. oviformis, və M. pseudodispar palearktik qrupun, 5 növ - M. exiguus, M. gigas, M. rutili, M. sculmani və Hennefuya chaibulaevi – pontoxəzər, 1 növ - Myxosoma circulus – amfiboreal qrupa daxildir.

Külmə balığının miksosporidlərindən yalnız Myxobolus exiguus balıqlar üçün patogendir. Lakin, indiki dövrə qədər bu parazitin törətdiyi xəstəlik yalnız kefal balığında qeydə alınmışdır.

**Maliyyə mənbəyi**: Yoxdur.

**Ədəbiyyat siyahısı.**

1. *Быховская - Павловская И.Е.* Паразиты рыб. Руководство по изучению. 1985;122
2. *Головина Н.А. Стрелков Ю.А.* Воронин В.Н. Ихтиопатология, 2003; 448.
3. *Донец З.С.* Формирование фауны миксоспоридий южных морей СССР. - Эволюция и филогения одноклточных животных 1981; 74 - 79.
4. *Ибрагимов Ш.Р.* Паразиты и болезни рыб Каспийского моря (эколого - географический анализ, эпизоотологи-ческая и эпидемиологическая оценка). 2012, 400.
5. *Ибрагимов Ш.Р.* Паразиты рыб Каспийского моря (видовой состав, экология, происхождения и формирование фауны) 1991; 757.
6. *Кандилов Н.К.* Паразитические простейшие рыб бассейна рек Куры. 1964; 15.
7. *Микаилов Т.К.* Паразиты рыб водоемов Азербайджана (систематика, динамика и происхождение). 1975; 299.
8. *Микаилов Т.К.* Паразитофауна промысловых рыб реки Куры. 1958; 17.
9. *Яковлев В.Н.* История формирования фаунистических комплексов пресноводных рыб. 1964; 1(30): 10 - 22.

# OSTEOSARKOMALAR ZAMANI AXICI SİTOMETRİK PARAMETRLƏRİN TƏYİNİ

[1]Muradov H.K., [2]Hüseynov E.R., [1]İbrahimova F.H., [3]Zeynalova N.H.
[1]*Azərbaycan Tibb Universiteti. Histologiya, embriologiya və sitologiya kafedrası. Bakı, Azərbaycan*
[2]*Azərbaycan Tibb Universiteti. Onkologiya kafedrası .Bakı, Azərbaycan*
[3]*Milli Onkologiya Mərkəzi. Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019
***Əlaqə üçün məlumatlar:** AZ 1022, Bakı; Bakixanov küç., 23; e-mail: habilmuradov mail@ru

Tədqiqatın məqsədi. Osteosarkomalar zamanı axıcı sitofluorimetrik müayinələrin aparılması.
Tədqiqatın material və metodları. Tədqiqat qrupunda osteosarkomalı xəstələrin axıcı-sitometrik müayinəsini 96 xəstə təşkil etmişdir. Osteosarkoma daha çox qamış sümüyünün metafizin, distal hissəsində, incik sümüyünün proksimal hissəsində, çiyin sümüyün proksimal hissəsidə lokallaşmışdır. DNT tədqiqi FACSCAN (Becton Dickinson, USA) axıcı sitofluometrində aparılmışdır.
Nəticələr. Axıcı-sitometrik cəhətdən bütün populyasiya çox klonlu olmuşdur, populasiyada aneuploid hüceyrələrin xeyli miqdarı (53%) və yüksək DNT indleksinin (2,5%) səviyyəsi ilə xarakterizə olunmuşdur. Osteosarkomada əsas terapiya radikal cərrahi müdaxilədən ibarətdir, əlavə kimyəvi terapiya kliniki qeyd olunmayan metastazların qarşısını almaq məqsədi güdür. Osteosarkoma zamanı proqnoz neqativdir və 5-illik yaşama müddəti 18,5% təşkil etmişdir.

Açar sözlər: Sitofluorimetriya, osteosarkoma, aneuploidism

# DESCRIPTION OF FLOW CYTOMETRIC PARAMETERS ON OSTEOSARCOMAS

[1]Muradov H.K., [2]Huseynov E.R., [1]İbrahimova F.H., [3]Zeynalova N.H.
[1]*Azerbaijan Medical University. Department of Histology, Embryology and Citology. Baku. Azerbaijan*
[2]*Azerbaijan Medical University. Department of Oncology. Baku. Azerbaijan*
[3]*National Center of Oncology. Baku. Azerbaijan*

Publication date: December 2019
*Contact information: AZ 1022, Baku, Bakihanov street 23; e-mail: habilmuradov mail@ru

The purpose of the study. Providing of flow cytometric investigations on osteosarcomas
Material and metods. The study group consisted of patients with fluid-cytometric examination of 96 osteosarcoma patients. The DNA study was carried out on the flow cytometry of FACSCAN (Becton Dickinson, USA).
Results of research. From the fluid-cytometric point of view, the entire population was very cloned and characterized by a significant amount of aneuploidal cells (53%) and a high DNA index (2.5%) in the population. The prognosis for osteosarcoma is negative and the 5-year survival rate is 18.5%.

*Key words: Flow cytometry, osteosarcoma, aneuploidism*

**Giriş.** Son illərdə şişlərin sitomorfologiyasının inkişafı yeni metodik yanaşmalarla bağlıdır. Bu yanaşmalar xüsusilə, kəmiyyət müayinə metodların imkanları ilə (morfometriya, axıcı sitometriya, skanlaşma mikrofotometriya üsulları ilə) əlaqəlidir [1,4].

Sümük patologiyasında axıcı sitometriyaya aid işlər yalnız xarici və tək-tək vətən alimləri tərəfindən aparılmışdır [3,4, 5,7.9]. Bu metod proliferasiya dərəcəsinin dəqiqləşdirilməsi; atipik və normal mitozların təyini, sümük patologiyasının bəzi morfoloji variantlarında sitoloji diaqnostikanın yaxşılaşdırılması üçün həlledici qabilliyətli metodlardan hesab olunur [6].

Həmçinin sümük şişləri zamanı hüceyrə atipizminin erkən diaqnostikası və differensiasiya dərəcəsinin təyini bu metodun orqanizmin molekulyar genetik səviyyədə imkanlarından xəbər verir (2,8). Tədqiqat üçün zəruri olan avadanlığın tam olmaması və yalnız böyük tibb mərkəzlərdə olan cihazların xeyli dəyəri bizim respublikada bu barədə az saylı nəşirlərə səbəb olmuşdur.

Ona görə də ploidlıyi, proliferativ fəalığı, hüceyrələrin heteroqenliyini və aneuploidlıyanı dəqiq təyin etməyə imkan verən bu metodun əhəmiyyətini nəzərə alaraq, biz ənənəvi travial morfoloji metodlarla yanaşı olaraq sümük yenitörəmələrinin axıcı sitofluorimetrik xarakteristikasının ətraflı öyrənilməsini lazımi hesab etdik.

**Tədqiqatın məqsədi:** Osteosarkomalar zamanı axıcı sitofluorimetrik müayinələrin aparılması.

**Material və metodları** Tədqiqat qrupunda osteosarkomalı xəstələ-rin axıcı-sitometrik müayinəsini 96 xəstə təşkil etmişdir. Osteosarkoma daha çox qamış sümüyünün metafizin, distal hissə-sində, incik sümüyünün proksimal his-səsində, çiyin sümüyün proksimal hissəsidə lokallaşmışdır. DNT tədqiqi FACSCAN (Becton Dickinson, USA) axıcı sitofluometrində aparılmışdır.

Optik detektorların siqnalları displeyin ekranında dəyişir və DNT miqdarı fluoressensiya dərəcəsindən asılı olaraq histoqram şəklində aşağıda təqdim edilən prinsiplə yazılır: hüceyrələrdə DNT səviyyəsi nə qədər çox olarsa, impuls da o qədər güclü olur və absis oxunun yazısı bir o qədər uzağa çəkilir. Ordinat oxunda kanala impulsların sayı qeyd edilir: yəni hər hansı bir nöqtədə əyri yuxarıda olsa, bu həmin sahədə DNT-nin müvafiq miqdarı olan hüceyrələrin bir yerə toplandığına dəlalət edir.

**Tədqiqatın nəticələri və onların müzakirəsi**. Tədqiqat materialının ümumi miqdarından (96 müşahidə – 100%) 21 müşahidə (21,9%) yenicə götürlmüş toxumalardan, 75 müşahidə isə (78,1%) parafin bloklardan hazırlanmışdır

Hüceyrələrin nüvələrində DNT səviyyəsinə görə osteosarkomalar variantların böyük müxtəlifliyi ilə xarakterizə olunurlar. Osteosarkoma variantları ayrı-ayrı müşahidədərdə istər hüceyrələrin üstünlüyünü təşkil edən sinfin ploidlık səviyyəsinə görə, istərsə də hüceyrə populyasiyanın müxtəlif heteroqenlik səviyyəsinə görə bir birindən fərqlənirlər.

Tədqiqatımızda modal sinif aşkarlanmayıb və bütün populyasiya çoxklonludur. Tetraploid DNT səviyəsi olan hüceyrələr nisbətən çoxdur (19,0%). Həmçinin diploid (5,8%) və triploid (17,9%) DNT səviyyəli hüceyrələr də aşkar edilmişdir. Yerdə qalan hüceyrələr aşağıdakı şəikldə bölünmüşdür: DNT hipoploid səviyyəli hüceyrələr 7, 8% təşkil etmişdir. Aneuploid səviyyəsi ilə – beş ploidli hüceyrələr – 10,1%, altı ploidli hüceyrələr – 11,2%, yeddi ploidli hüceyrələr – 6,8%, səkkiz ploidli hüceyrələr 8,8%, doqquz ploidli hüceyrələr – 3,8%, on ploidli hüceyrələr – 5,4% təşkil etmişdir. Osteosarkomada DNT səviyyəsinə görə hüceyrələrin heterogenliyi çox yüksəkdir: 12, 14, 16, 19 c ploildıkli hüceyrələrə də rast gəlinir. Qeyd edilən hüceyrələr ümumi hüceyrə tərkibinin hansı müıvfiq olaraq 1,5%, 0,6%, 0,7%, 0,6% təşkil edir.

Hüceyrə populyasiya sinifinin üstünlüyünə həmçinin DNT səviyyəsinin hüceyrə heteroqenliyinə görə biz xəstələri 4 qruda qrulaşdırmışıq. Birinci qrupu 29 xəstə (1-29 müşahidə) təşkil etmişdir. Bu qrupu DNT səviyyəsinin histoqramasında DNT diploid səviyyəsi olan xəstələr təşkil etmişdir – 50,0%. DNT hipoploid səviyyəsi aşkar edilən hüceyrələr 12,4%, triploid dnt səviyyəsi aşkar edilən hüceyrələr – 1, 9%, tetraploid dnt səviyyəsi aşkar edilən hücey-

rələr – 18,6% təşkil etmişdir. Birinci qrupda nisbətən az faizə malik hüjeyrələr aşağıdakı kimi bölünmüşdür: beş plodli dnt səviyyəsi aşkar edilən hüceyrələr – 8,1%, altı plodli dnt səviyyəsi aşkar edilən hücey-rələr – 1,9%, yeddi plodli dnt səviyyəsi aşkar edilən hüceyrələr – 2,8%, səkkiz plodli dnt səviyyəsi aşkar edilən hüceyrələr – 3,5% və aneuploidlı doqquz ploidlı dnt səviyyəsi aşkar edilən hüceyrələr – 0, 8% təşkil etmişlər.

Osteosarkomaların ikinci qrupunu 27 xəstə (30-56 müşahidə) təşkil etmişdir. Bu qrup xəstələr üçün histoqramasında DNT triploid səviyyəsi üstünlük təşkil edən hüjeyrələr (50,0%) xarakter idi. Birinci qrup ilə müqayisədə burada DNT dipdloid (12,0%) və hipoploid (1,6%) səviyyəli hüceyrələrin sayı azalır. DNT tetpraloid səviyyəli hüceyrələr 2,5% təşkil etmişlər. Eyni zamanda poliploid hüceyrələrin nisbi sayı artmışdır: beş ploidlı dnt səviyyəsi aşkar edilən hüceyrələr – 15,8%, altı ploidlı dnt səviyyəsi aşkar edilən hüceyrələr – 5,8%, yeddi ploidlı dnt səviyyəsi aşkar edilən hüceyrələr – 7,5%. Həmçinin DNT aneuploid səviyyəsi olan hüceyrələr aşkar-lanmışdır: səkkiz ploidlı dnt səviyyəsi aşkar edilən hüceyrələr – 3,8%, doqquz ploidlı dnt səviyyəsi aşkar edilən hüceyrələr – 1,0% civarında qeydə alınmışlar.

Üçüncü qrupu osteosarkomalı 45 xəstə (57-101 müşahidələr) təşkil etmişdir. Bu qrupun hüceyrələrin histoqramasında DNT tetraploid səviyyəsi üstünlük təşkil etmiş və hüceyrə populyasiyanın 48,9% civarında aşkar edilmişlər. Diploidlı hüceyrələrin sayı 11,6% olmuşdur. Aneuploid hüceyrələrin miqdarı nisbətən yüksəkdir: altı-, səkkiz-, doqquz-, on ploidlı DNT səviyyəsi aşkar edilən hüceyrələr müvafiq olaraq hüceyrə poplyasiyanın 25,5%, 10,5%, 1,8%, 1,7% təşkiş etmişdir.

Dördüncü qrup ən böyük qrupdur. Ona 67 xəstə (102-168 müşahidələr) daxil olmuşdur. Bu qrup xəstələrin DNT səviyyəsinin histoqramalarda hüceyrələrin modal sinifini aid etmək mümkün deyil. Tetra (16, 0%) və səkkiz ploidlı (16, 0%) hüceyrələr üstünlük təəşkil etmişlər. Hüceyrə populyasiyasında əhəmiyyətli faiz DNT aneploid səviyyəli hüceyrələr təşkil etmişlər: beş-, altı-, yeddi-, doqquz-, on-, on iki-, on dörd-, on doqquz- ploidlı dnt səviyyəsi aşkar edilən hüceyrələrin sayı müvafiq olaraq 7,7%, 11,8%, 7,8%, 2,2%, 4,9%, 3,8%, 1,6%, 2,0%, 1,5% olmuşdur. IV qrup xəsətələrin histoqramasında hipo-ploid (10,2%) və triploid (12,5%) ploidlı dnt səviyyəsi aşkar edilən hüceyrələr də müəyyən edilmişdir. Həmçinin ploidlı DNT səviyyəsi 16c aşkar edilən hüceyrələr də aşkar edilmişdir ki, ümumi hüceyrə qrupları arasında onlar təqribən 2,0% təşkil etmişdir. Tədqiqatlarımızla müəyyən etmi-şik ki, IV qrup osteosarkomalı xəstələrin histoqrammaları digər qruplarla müqayisidə aydın ifadə edilmiş hüceyrə pikinin olmaması, DNT səviyyəsinə görə hüceyrə-lərin çox yüksək ploidlıyi və onların heteroqenliyi ilə xarakterizə olunurlar.

Osteosarkomalarda G0/1 fazada olan hüceyrələrin miqları azalmışdır-70,0%, eyni zamanda proliferasiya edən hüceyrə-lərin sayı S fazada təxminən 4 dəfə – 15,5%, G2+M fazada – təxminən 14,5 dəfə artmışdır. Proliferasiya indeksi 26% təşkil etmişdir. Bu patologiyada DNT indeksi 2,5% təşkil etmişdir. Osteosarkoma zamanı aneuploid hüceyrələr şişin bütün hüceyrə-lərin kütləsinin orta hesabla 53% təşkil edir.


Tədqiq etdiyimiz osteosarkomalı xəstələrin sitoloji və axıcı sitometrik göstəricilərinin qarşılıqlı korrelyasion əlaqələrinin müqayisəsi nəticəsində aşkar olmuşdur ki, sitoloji görüntülərdə monomorf qurulşlu osteosarkomalar axıcı sitometrik olaraq ploidlik səviyyəsi çox da yüksək olmayan histoqrammalarla xarak-terizə olunurlar. Hüceyrələrində kəskin po-

limorfizim müşahidə olunan osteosarkoma variantına, DNT səviyyəsinə görə hüceyrələrin heteroqenliyi və aneuploidiyanın spektri olduqca geniş olan (II-III qruplar), histoqrammalarda zirvənin kəskin ifadə edilməsi fərqlənən müşahidələr aiddir. Osteosarkomaların qarışıq sitoloji variantına isə əsasən IV qrup xəsətələrin histoqramaları uyğun gəlir.

Tədqiqatımızda biz habelə «DNT indeksinin» göstəricilərini də tədqiq etmişik. Müəyyən edilmişdir ki, I qrup xəstələrdə (1-29 müşahidələr) hüceyrə populyasiyasında DNT diploid səviyyəsi üstünlük təşkil edən hüceyrələr aşkar edilir. «DNT indeksin» miqdarı 1,1-dən 1,8 qədər şərti vahid civarında dəiyşiir. Hüceyrə populyasiyada yüksək faizi (25% və artıq) DNT aneuploid səviyyəsi dnt səviyyəsi aşkar edilən hüceyrələr təşkil edir.

II qrupun xəstələrində (30-56 müşahidələr) hüceyrə populyasiyasında DNT triploid səviyyəsi aşkar edilən hüceyrələr üstünlük təşkil etmişdir. «DNT indeksin» miqdarı 2,0-dən 2,5- qədər şərti vahid civarında dəiyşilir. Bu müşahidələrdə 75% hüceyrələrdə DNT aneuploid səviyyəsi qeydə alınmışdır.

III qrupda (57-101 müşahidələr) dnt tetraploid səviyyəsi aşkar edilən hüceyrələrin üstünlük təşkil edir. «DNT indeksin» miqdarı 2,1-dən 2,8-qədər şərti vahid civarında dəyişir. Bu xəstələrin hüceyrə populyasiyasında bir çox hüceyrələr (45%) DNT aneuploidiya səviyyəsi ilə xarakterizə olunmuşlar.



Şəkil .Osteosarkomalar zamanı summar histoqram

IV qrupun osteosarkomalı xəstələri (102-168 müşahidələr) ən yüksək ploidik, heteroqenlik və hüceyrələrin aneuploidiyası, dnt yüksək səviyyəsi, habelə «DNT indeksinin» ən yüksək göstəriciləri ilə (2,0-dən 4,4 qədər şərti vahid civarında) xarakterizə olunurlar. Bu müşahidələrdə hüceyrələrin 70% miqdarı DNT aneuploid səviyyəsinə malik olmuşlar.

**Yekun.** Axıcı-sitometrik cəhətdən bütün populyasiya çox klonlu olmuşdur, populasiyada aneuploid hüceyrələrin xeyli miqdarı (53%) və yüksək DNT indleksinin (2,5%) səviyyəsi ilə xarakterizə olunmuşdur.

Osteosarkomada əsas terapiya radikal cərrahi müdaxilədən ibarətdir, əlavə kimyəvi terapiya kliniki qeyd olunmayan metastazların qarşısını almaq məqsədi güdür. Osteosarkoma zamanı proqnoz neqativdir və 5-illik yaşama müddəti 18,5% təşkil etmişdir. Alınmış faktiki material sübut edir ki, osteosarkomaların histogenetik mənbəyinin təyini, yalnız bütün şiş hüceyrələrin spesifikasını maksimal əks etdirən kompleks əlamətlərin analizi əsasında mümkündür, bu patologiyanın diaqnostika və proqnozlaşdırması məhz göstərilən paramatrlər civarında məqsədəuyğun sayıla bilər.

**Maliyyə mənbəyi**: Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. QRANT № EİF-KETPL-2-2015-1(25) -56/34/3-M-04

**Maraqların toqquşması**: Yoxdur.

**Ədəbiyyat siyahısı.**

1. *Əmiraslanov Ə.T., Qazıyev A.Y.* Onkologiya. Bakı, 2008; 478.

2. *Богатырев В.Н., Мачак Г.Н., Соколова В.К., Синюков П.А.* Значение ДНК-проточной цитофлуориметрии для прогнозирования безметастатической выживаемости у больных остеосаркомой / Материалы 5 Всероссийского съезда онкологов «Высокие технологии в онкологии». Казань, 2007; 1: 343-345.

3. *Кочергина Н.В., Зимина О.Г., Мачак Г.Н., Лукьянченко А.Б.* Диагностика остеосарком костей // Медицинская визуализация, 2009; 1: 98-105.

4. *Мурадов Х.К.* Клиническая значимость проточно-цитометри-ческих исследований при остеосаркомах / Professor B.M. Mahmudbəyovun 100 illik yubileyinə həsr olunmuş elmi-təcrübi konfransın elmi işlərtoplusu. Bakı, 2002; 46-47.
5. *Мурадов Х.К.* Проточно-цитометрическая идентификация доброка-чественных и злокачественных костеобразующих опухолей / Материалы III съезда онкологов радиологов СНГ. Минск, 2014; 313.
6. *Donati D., Giacomini S., Gozzi E. et al.* Osteosarcoma of the pelvis // Eur. J. Surg. Oncol., 2014; 30: 332-340.
7. *Ham S., Kroon H., Koops H., Hoekstra H.* Osteosarcoma of the pelvis: oncological results of 40 patients registered by The Netherlands Committee on Bone Tumours // Eur. J. Surg. Oncol., 2010; 26 (l): 53-60.
8. *Lucas D., Dhillion J., Ryan J.* Intraoperative cytology of bone and soft tissue tumors // Akta Cytol., 2016; 40(5): 1090-1091
9. *Wines A., Bonar F., Lam P. et al.* Telangiectatic dedifferentiation of a parosteal osteosarcoma // Skeletal Radiol., 2010; 29: 597-600.

# GÖZ YUVASININ ÖLÇÜ GÖSTƏRİCİLƏRİNİN BEYİN KƏLLƏSİNİN FORMA VƏ ÖLÇÜLƏRİ İLƏ MÜQAYİSƏLİ TƏHLİLİ

Mustafayeva N.A.
*Azərbaycan Tibb Universiteti. İnsan anatomiyası və tibbi terminologiya kafedrası Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019

***Əlaqə üçün məlumatlar:** Az 1004. Bakı, M.Mənsur küçəsi 61, mən.7, e - mail: n.a.jafarova@gmail.com

Tədqiqatın məqsədi göz yuvasının ölçü göstəricilərinin beyin kəlləsinin forma və ölçüləri ilə müqayisəsi olmuşdur.
Tədqiqatın material və metodları. Tədqiqat obyekti Azərbaycan Tibb Universitetinin insan anatomiyası və tibbi terminoloqiya kafedrasının əsas muzeyinin kranioloji kolleksiyasından seçilib götürülmüş 80 müxtəlif insan kəlləsi olmuşdur. Işi yerinə yetirmək üçün kranioskopik və kranioloji tədqiqat üsullarından istifadə olunmuşdur. Tədqiq etdiyimiz kəllələr üzərində bizim tərəfimizdən göz yuvasının quruluşunun və ölcülərinin müqayisəsi aparılmışdır.
Tədqiqatın nəticələri. Beyin kəlləsi üzərində aparılan ölçülər göstərdi ki, beyin kəlləsinin uzunluğu orta hesabla 160,0±0,9 mm, eni 127,0±0,6mm, hündürlüyü 116,0±0,5 mm təşkil edir. Kəllə indeksini isə 72,5-dən 84,8-ə qədər olan rəqəm göstəricisi (orta hesabla 76,0±0,1) təşkil edir. Tədqiq olunan materialın kəllə indeksi üzrə təyinatı göstərdi ki, tədqiq olunan materialın böyük bir hissəsini orta qiymətli kəllə indeksinə malik kəllələr təşkil etmişdir.Göz yuvasının ölçü parametrlərinin beyin kəlləsinin forma və ölçüləri ilə müqayisələri göstərdilər ki, göz yuvasının ən az 37-47 mm-ə bərabər olan uzunluq ölçüsü əksər müşahidələrdə braxisefal formaya malik kəllələrdə qeyd edilmişdir. Göz yuvasının ən çox 43-50 mm-ə bərabər olan uzunluq ölçüsü isə əksərən dolixosefal formalı kəllələrdə rast gəlinmişdir.
Yekun olaraq qeyd etmək lazımdır ki, göz yuvasının ölçü göstəricilərinin beyin kəlləsinin forması ilə müqayisəsi nəticəsində bu qənaətə gəlmək olar ki, ən az uzunluğa malik göz yuvaları braxisefal formalı kəllələrdə, ən çox uzunluğa malik göz yuvaları isə dolixosefal formalı kəllələrdə rast gəlinmişdir. Uzun və enli formalı kəllələrdə 78,6 və 64,4% hallarda orta-dərin göz yuvaları, orta formalı kəllələrdə isə həm dərin, həm də orta-dərin göz yuvaları müşahidə olunur.

***Açar sözlər:*** *Göz yuvası, beyin kəlləsi, kəllə indeksi, kraniometriya*

# COMPARATIVE ANALYSIS OF THE DIMENSIONAL INDICATORS OF THE ORBIT ACCORDING TO THE SHAPE AND SIZE OF THE CEREBRAL SKULL

Mustafayeva N.A.

*Azerbaijan Medical University. Department of Human Anatomy and Medical Terminology. Baku, Azerbaijan*

Publication date: December 2019

*Contact information: Az 1004. Baku, M.Mansur street 61, apartment 7, e-mail: n.a.jafarova@gmail.com

The purpose of the study. The aim of the present work was to compare the dimensional indicators of the orbit according to the shape and size of the cerebral skull.

Materials and methods of the study.The object of the research was to study 80 different human skulls of adults taken from the craniological collection of the fundamental museum of Department of Human Anatomy and Medical Terminology of the Azerbaijan Medical University. Research is carried out by cranioscopic and craniometric methods. We compared the structure and size of the orbit on researched skulls.

Results of the study. The measurements made on the skull showed that the average length of the skull is 160.0 ± 0.9 mm, width is 127.0 ± 0.6mm, and height is 116.0 ± 0.5 mm. The cranial index ranges from 72.5 to 84.8 (on average 76.0 ± 0.1). The values of the cranial index showed that the most of the investigated material was the skulls with a median cranial index. By the comparison of the parameters of the orbit with the shape and size of skull we determined that the minimum length of the orbit which is 37–47 mm mostly found on brachiocephalic skull forms, in control the maximum length of the orbit which is 43-50 mm mostly founded on dolichosephalic skull forms.

Finally, it should be noted that compared the dimensional indicators of the orbit with the shape and size of the brain skull we determined that the orbits with the less length are found in brachiocephalic skulls, and the longest orbits are founded in dolichocephalic skulls. Long- and wide-shaped skulls are seen in 78.6 and 64.4% of cases, with deep and medium-sized orbits, and deep and medium-size orbits.

**Giriş.** Müasir dövrdə orqanizmin konstitusiyası və funksiyasının qarşılıqlı vəhdətdə olması haqqında dəlillərin əldə edilməsi vacib şərtlərdən hesab edilir.

İnsanın konstitusiya probleminin öyrənilməsi antropologiyanın kliniki təcrübədə istifadə edilməsinə şərait yaradır. Belə ki, təbabətdə bəzi xəstəliklərin təyin edilməsində antropologiyada istifadə olunan "konstitusional habitus" anlayışı və orqanizmin fiziki xüsusiyyətləri də əhəmiyyətli rol oynayır. Tədqiqatlar göstərir ki, konstitusional quruluşda olan bəzi xüsusiyyətlər risk faktoru hesab edilir. Həmin konstitusional xüsusiyyətlər nəslin davamlı əlamətlərini özündə qoruyub saxlayır [1,2,3,4]. Bu səbəbdən də antropometrik göstəriciləri müqayisə aspektləri kimi normada və müxtəlif yaş dövrlərində öyrənmək vacibdir [5,6,7]. Bəzi müəlliflərin fikrinə görə fərdlərin bədən quruluşlarının anatomik xüsusiyyətlərinin və onların fiziki inkişafının antropometrik göstəricilərinin dəyi-şikliklərini nəzərə alaraq, əhalinin fiziki inki-şafı haqqındakı dəlillərə yenidən baxılması və onların tamamlanması məqsədəuyğun hesab edilməlidir. Bədən quruluşu tiplərinin anatomoantropoloji göstəricilərinin etnik-regional spesifikliyinin mövcüdluğu elmi ədəbiyyatda geniş şərh edilir [8].

**Tədqiqat işinin məqsədi** göz yuvasının ölçü göstəricilərinin beyin kəlləsinin forma və ölçüləri ilə müqayisəsi olmuşdur.

**Tətqiqatın material və metodları.** Yerinə yetirdiyimiz işdə tətqiqat obyekti olaraq Azərbaycan Tibb Universitetinin insan anatomiyası və tibbi terminologiya kafedrasının muzeyinin kranioloji kolleksiyasından seçilib götürülmüş 80 müxtəlif insan kəlləsindən isti-


fadə edilmişdir.

İşi yerinə yetirmək üçün kranioskopik və kranioloji tədqiqat üsullarından istifadə olunmuşdur.

Belə ki, kəllə ölçülməzdən əvvəl qulaq-gözyuvası üfüqisi (Frankfurt üfüqisi ) səthi üzrə kraniostata bərkidilir. Ümumi ölçüləri əldə etmək üçün beyin kəllələrinin və göz yuvasının kraniometrik ölçü üsulundan istifadə edərək kəllənin uzunluğu, eni, hündürlüyü təyin edilmişdir.

Beyin kəlləsinin ümumi ölçülərini aşağıdakı parametrlər üzrə təyin edildi:

1. Kəllənin uzunluğu (boylama diametr) – qlabelladan opistokraniona qədər olan məsafə. 2. Kəllənin eni (köndələn diametr) – təpə sümüklərinin ən uzaq nöqtələri (hər iki eurion nöqtələri) arasındakı məsafə. 3. Kəllənin hündürlüyü (şaquli ölçü) – bazion nöqtəsi ilə breqma nöqtəsi arasındakı məsafə (şəkil).




Şəkil. Beyin kəlləsinin kraniometrik nöqtələri.
1.Beyin kəlləsinin uzunluğu;
2.Beyin kəlləsinin hündürlüyü;
3.Beyin kəlləsinin eni.

Beyin kəlləsinin formasını dəqiqləşdirmək üçün kəllə indeksini təyin etdik. Belə ki, kəllənin uzunluq indeksini təyin etmək üçün beyin kəlləsinin uzunluğunun eninə nisbəti, həmçinin hündürlük indeksini müəyyən etmək üçün onun uzunluğunun hündürlüyünə nisbəti 100-ə vurulur, beyin kəlləsinin uzunluq və hündürlük indeksləri müəyyənləşdirilir. R.Martinin (1928) təsnifatına əsasən kəllənin 3 tipi ayırd edilir: 1) Dolixokran–uzun kəllə; 2) Mezokran–orta kəllə; 3) Braxikran–enli kəllə. Dolixokraniyada kəllə indeksi 75-dən az, mezokraniyada 75-80 arasında, braxikraniyada isə 80-dən çox olur [9].

**Tədqiqatın nəticələri və onların müzakirəsi.** Beyin kəlləsində aparılan ölçmələr göstərdi ki, beyin kəlləsinin uzunluğunu 149 mm-dən 172 mm-ə qədər olan ölçü həddi təşkil etmişdir. Bu ölçü orta hesabla 160,0±0,9 mm-ə bərabər olmuşdur (cədvəl 1).

Cədvəl 1
Beyin kəlləsində aparılan ölçmələr

| Kraniometrik göstəricilər | Variasiya-statistik göstəricilər | | | | |
|---|---|---|---|---|---|
| | n | Min | Max | M± | Cv,% |
| Beyin kəlləsinin uzunluğu (mm-lə) | 80 | 149 | 172 | 160,0± 4,6 | 4,29 |
| Beyin kəlləsinin eni (mm-lə) | 80 | 108 | 146 | 127,0± 6,1 | 4,52 |
| Beyin kəlləsinin hündürlüyü (mm-lə) | 80 | 98 | 134 | 116,0± 7,7 | 5,26 |
| Kəllə indeksi | 80 | 72,5 | 84,8 | 76,0± 0,08 | 10,66 |

Qeyd: n-müşahidələrin sayı; Min-minimal qiymət; Max - maksimal qiymət; M±-orta riyazi qiymət; Cv-variasiya əmsalı.

Beyin kəlləsinin enini 108 mm-dən 146 mm-ə qədər olan ölçü həddi təşkil etmişdir və orta hesabla 127,0±6,1mm-ə bərabər olmuşdur.

Beyin kəlləsinin hündürlüyü 98mm-dən 134,0mm-ə qədər olan ölçü həddində variasiya edir. Bu ölçü orta hesabla 116,0±7,7 mm -ə bərabər olmuşdur.

Ölçdüyümüz kəllələrin indeksi 72,5-dən 84,8-ə qədər həddə olub və orta hesabla 76,0±0,08-ə bərabər olmuşdur.

Tədqiq olunan materialın kəllə indeksi üzrə yerləşdirilməsi göstərdi ki, uzun kəllələr (dolixokran, kəllə indeksi 75-dən kiçik) 39 hallarda (24,4 %) müşahidə olunmuşdur.

Kəllə indeksi orta rəqəm göstəricilərinə malik olan kəllələr (mezokran, kəllə indeksi 75-dən 80 -ə qədər) 78 hallarda (48,7 %) müəyyənləşdirilir,

enli kəllələr (braxikran, kəllə indeksi 80-dən çox) 43 hallarda (26,9 %) müşahidə olunmuşdur (cədvəl 2).

Cədvəl 2.
Tədqiq olunan materialın kəllə indeksi üzrə yerləşdirilməsi.

| Kəllənin forması | Göz yuvasının uzunluğu (mm-lə), faiz | | | Cəmi |
|---|---|---|---|---|
| Braxikran | 37<br>9,5% | 38<br>9,8% | 47<br>12,1% | 122<br>31,4% |
| Mezokran | 38<br>9,8% | 39<br>10,0% | 49<br>12,6% | 126<br>32,4% |
| Dolixokran | 43<br>11,1% | 48<br>12,3% | 50<br>12,8% | 141<br>36,2% |
| Yekun | 123<br>30,3% | 120<br>32,1% | 146<br>37,5% | 389<br>100% |

Beləliklə göz yuvasının ölçü göstəricilərinin beyin kəlləsinin forması ilə müqayisəsi nəticəsində bu qənaətə gəldik ki, göz yuvasının ən az 37-47 mm-ə bərabər olan uzunluq ölçüsü əksər müşahidələrdə braxisefal formaya malik kəllələrdə qeyd edilmişdir. Göz yuvasının ən çox 43-50 mm-ə bərabər olan uzunluq ölçüsü isə əksərən dolixosefal formalı kəllələrdə rast gəlinmişdir.

Ципящук А.Ф. (2008) göstərir ki, göz yuvası hündürlüyü leptoprozop kəllədə (33,4±0,4mm) evriprozop kəlləyə (32,1±0,5 mm; P<0,05) nisbətən 1,3 mm çoxdur, lakin mezoprozop kəllənin (33,5±0,5 mm; P>0,05) qiyməti ilə demək olar ki, eynidir [10].

Göz yuvasının kraniometrik göstəricilərinin kəllənin forma və ölçüləri ilə müqayisəsi aparılmışdır. Beyin kəlləsi üzərin-də aparılan ölçülər göstərdi ki, beyin kəlləsinin uzunluğu orta hesabla 160,0±0,9mm, eni 127,0±0,6mm, hündürlüyü 116,0±0,5mm təşkil edir. Kəllə indeksini isə 72,5-dən 84,8-ə qədər olan rəqəm göstəricisi (orta hesabla 76,0±0,1) təşkil edir. Tədqiq olunan materialın kəllə indeksi üzrə təyinatı göstərdi ki, tədqiq olunan materialın böyük bir hissəsini orta qiymətli kəllə indeksinə malik kəllələr təşkil etmişdir.

**Yekun.** Əldə olunmuş məlumatları əsasən qeyd etmək lazımdır ki, ən az uzunluğa malik göz yuvaları braxisefal formalı kəllələrdə, ən çox uzunluğa malik göz yuvaları isə dolixosefal formalı kəllələrdə rast gəlinmişdir. Uzun üzlü kəllələrdə hündür göz yuvaları, orta və enli üzə malik kəllələrdə isə orta hündür göz yuvaları qeyd edilir.

**Maliyyə mənbəyi**: Yoxdur
**Maraqların toqquşması**: Yoxdur.

**Ədəbiyyat siyahısı.**

1. *Гайворонский И.В., Ничипорук Ш.Н.* Клиническая анатомия черепа. СПб: Элби, 2007; 92.
2. *ЗуеваЕ.Г., Кудряшов Е.В., Дергоусова Е.Н.* Клинико-конституциональные подходы в оценке развития деформации позвоночника // Морфология. 2008; 3: 7-49.
3. *Николаев В.Г., Николаева Н.Н.* Место клинической антропологии в системе медицинских наук / Сборник научных трудов. Красноярск: Красс. ГМА, 2004; 195-198
4. *Aggarwal N.* The psychiatric cultural formulation: translating medical anthropology into clinical practice // J Psychiatr Pract. 2012; 18: 73-85
5. *Калманова М.В.* Возрастные особенности в строении костных структур лица и их значение в стоматологической практике. Автореф. дисс. ...канд мед. наук, Москва, 2005; 21.
6. *Байрамова И.Г.* К вопросу о возможности установления возраста по подъязычной кости человека / Сборник научных статей международной конференции посвященной 90 летнему юбилею кафедры анатомии человека АМУ., Баку, 2009; 90-91
7. *Прищепа И.М.* Возрастная анатомия и физиология: учебное пособие. Минск: Новое издание, 2006; 5.
8. *Смирнов В.Г., Персин Л.С.* Клиническая анатомия скелета лица. М.: Медицина. 2007; 223.
9. *Martin R.* Kraniologie a kraniometrische technik. Auft.,Jena.,1928; 214.
10. *Ципящук А.Ф.* Морфология глазничных щелей у взрослых людей при различных краниотипах: Автореф.дисс. ...канд.мед.наук, Саратов, 2008; 28.

# QOCALIQ DÖVRÜ OLAN QADINLARIN UŞAQLIQ BORULARINDAKI LİMFOID APARATIN BƏZI MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

Şadlinskaya S.V., Mövsümov N.T.
*Azərbaycan Tibb Universiteti. İnsan anatomiyası və tibbi terminologiya kafedrası. Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019

***Əlaqə üçün məlumatlar:** AZ 1021, Bakı şəhəri, Kərpic küçəsi14, mən.9; e-mail: nariman_med@mail.ru

Tədqiqatın məqsədi. Təqdim olunan hazırkı tədqiqat işinin məqsədi qoca yaşlı qadınların uşaqlıq borusunda yerləşən limfoid törəmələrin, regional, morfoloji (makromikroskopik), fərdi quruluş xüsusiyyətlərini öyrənmək olmuşdur.
Material və metodlar. Tədqiqatın obyekti 56 yaş və ondan yuxarı vəfat etmiş 27 qadından autopsiya zamanı götürülmüş sağ və sol uşaqlıq borularının köndələn kəsiklərindən hazırlanmış və müxtəlif üsullarla rənglənmiş histoloji preparatlar olmuşdur. Limfa düyünlərinin morfometrik parametrləri MBS-9 stereomikroskopu ilə təsvir olunmuş və statistik hesablamalar aparılmışdır.
Tədqiqatın nəticələri. Apardığımız tədqiqatın nəticəsində müəyyən etmişik ki, 56 yaşdan başlayaraq uşaqlıq borularının selikli qişası limfa düyünləri saxlanılmaqla bərabər, onlar istər miqdarca, istər formaca və istərsə də morfoloji quruluşca (eni, uzunluğu) involyutiv dəyişikliklərə məruz qalır. Sağ və sol uşaqlıq borularının selikli qişasında yerləşən limfa düyünlərinin makromikroskopik quruluşunda heç bir nəzərə çarpacaq fərq aşkar edilməmişdir. Uşaqlıq borusunun uşaqlıq hissəsində limfa düyünlərinin miqdarı ən az göstəriciyə malikdir.

*Açar sözlər: Uşaqlıq boruları, limfa düyünləri, ontogenez.*

# SOME MORPHOLOGICAL FEATURES OF LYMPHOID APPARATUS IN THE UTERINE TUBES WOMEN IN OLD AGE

Shadlinskaya S.V., Movsumov N.T
*Azerbaijan Medical University. Department of Human Anatomy and Medical Terminology, Baku, Azerbaijan*

Publication date: December 2019

*Contact information: AZ 1021, Baku, Kerpic str.,14, flat 9; e- mail: nariman_med@mail.ru

Purpose of the research. The aim of the present research was to study the regional, morphological (macromicroscopic), individual structural features of lymphoid derivatives in the uterine tubes in old women.
Material and methods: During autopsy the object of the research were histologic preparations from the cross sections of the right and left uterine tubes colored in different ways of 27 women who died 56 and upper years. The morphometric parameters of the lymph nodes were described by stereo-microscope MBS-9 and statistical calculations were performed.
Results of research: We have found that since the age of 56, as well as saving the lymphoid nodes in the mucous membrane of the uterine tubes and are subject to quantity, involutive changes in size, shape and morphological structure (width, length).
There was not found the significant difference in the macromicroscopic structure of the lymph nodes in the mucous membrane of the right and left uterine tubes. There is the least indices having in the quantity of lymph nodes in the uterine part of the uterus.

*Key words: Uterine tubes, lymph nodes, ontogenesis*

**Giriş**. Son dövrlərdə nəzəri və kliniki immunomorfologiyanın və immunologiyanın elmi problemləri çərçivəsində müxtəlif məsələlərin öyrənilməsi sahəsində aparılan tədqiqatlar böyük nailiyətlər qazanmışdır. Bu sahədə son zamanlar aparılan müasir, orijinal elmi araşdırmalar öz əksini müxtəlif elmi məqalələrdə, toplularda və monoqrafiyalarda tapmışdır [1,2,3,4]. Bununla yanaşı immun sistemin mərkəzi və periferik orqanlarının morfologiyasının öyrənilməsi sahəsində bir çox məsələlər hələ də öz həllini tapmamışdır. Qeyd etmək lazımdır ki, elmi ədəbiyyatda insanın müxtəlif immun sistemi orqanları barədə elmi məlumatlar müxtəlif dərəcədə əks olunmuşdur. Timusun, qırmızı sümük iliyinin, badamcıqların, udlağın limfoid düyün -lərinin, qida borusunun, dalağın nəfəs borusu və bronxların, müxtəlif somatik və visseral limfa düyünlərinin və limfoid toxumasının morfologiyasına dair ciddi tədqiqatların olmasına baxmayaraq, uşaqlıq borusunun limfa düyünlərinin normada morfologiyasına dair elmi işlər ədəbiyyatda öz əksini tapmamışdır [5,6,7,8,9,10]. Bu məsələyə dair tək-tük tədqiqatlar seksion [11] və operativ [12] materiallar üzərində aparılmışdır.

Digər tərəfdən uşaqlıq borusunun limfoid apparatının morfologiyasının normada yaş xüsusiyyətlərinin öyrənilməsinə dair demək olar ki, heç bir məlumat yoxdur. Halbuki, apardığımız tədqiqatlar [13] uşaqlıq borusunun diffuz toxumasının mikroanatomiyasının və mikroxüsusiyyətlərinin müxtəlif yaş qruplarında xüsusiyyətlərinin normada öyrənilməsi olduqca əhəmiyyətlidir. Yaş dinamikası limfoid toxumanın inkişaf dövrlərini müəyyən etməyə, müxtəlif yaş qrupları üçün normativləri təyin etməyə imkan verir. Ahıl yaşdan başlayaraq qocalıq dövründə ümumi involyutiv proseslər, limfoid toxumanın mikromorfologiyasında da müşahidə olunur. Eyni zamanda, bu dövrdə bir sıra xəstəliklərin daha çox rast gəlinməsi bu yaş qrupu üçün diffuz limfoid toxumanın mikroanatomiyasına dair normativ məlumatların olmasını əhəmiyyətli edir.

Beləliklə, təqdim olunan hazırki tədqiqat işinin məqsədi qoca yaşlı qadınların uşaqlıq borusunda yerləşən limfoid törəmələrin, regional, morfoloji (makromikroskopik), fərdi quruluş xüsusiyyətlərini öyrənməkdir.

**Tədqiqatın material və metodları**. Tədqiqatın obyekti 56 yaş və ondan yuxarı vəfat etmiş qadınlardan autopsiya zamanı sağ və sol uşaqlıq borularının limfoid aparatı olmuşdur. Tədqiqat materialları götürülmüş meyitlər 2 yaş qrupuna bölünmüşdür: ahıl yaş qrupu (56-74 yaş) – 15 meyit və qocalıq yaş qrupu (75-90 yaş) – 12 meyit. Müqayisə üçün əvvəlki tədqiqatlarda yeniyetmə (12-15), gənclik (16-21) və yetginlik (21-55) yaşlı qadınlardan aldığımız tədqiqat nəticələrindən istifadə edilmişdir.

Total preparatlarda MBS-9 stereomikroskopu vasitəsilə uşaqlıq boruları boyunca (uşaqlıq borularının uşaqlıq, boğaz, ampul və qıf hissələrində) yerləşən limfa düyünlərinin ümumi sayı, uzunluğu, eni hesablanmışdır. Uzunluq dedikdə limfa düyünün ən uzun ölçüsü, eni – köndələn kəsiyin maksimal ölçüsü götürülmüşdür.

Limfa düyünlərini aşkar etmək üçün uşaqlıq borularının müxtəlif nahiyyələrindən götürülmüş köndələn kəsiklər 10% neytral formalində (bəzən Karnua məhlulunda) fiksasiya edildlkdən sonra standart spirt məhlulundan keçirilmişdir və parafinə salınmışdır. Sonra 4-6 mkm olmaqla kəsiklər hematoksilin -eozin, Harris, van-Qizon, Braşe, azur-2-eozin, Grimeliusa görə rənglənmişdir. Mikropreratlarda limfoid düyünlərinin mütləq sayı, uzunluğu və eni (böyüdücü 900) okulyar tordan istifadə etməklə (torun yanında sahəsi 980 kv.mkm olmaqla 1 $mm^2$ sahə üçün) hesablanmışdır. Bununla yanaşı, limfoid sıranın müxtəlif tip hüceyrələrinin, selikli, əzələ, serozaltı və seroz qişalarda faizlə miqdarı müəyyən edilmişdir. Orta riyazi göstərici, variasion sıranın amplitudası (maksimal və minimal fərdi göstəricilər), fərqlərin dürüstlüyü hesablanmışdır.

**Tədqiqatın nəticələri və onların müzakirəsi.** Uşaqlıq borularının Harris hematoksilinlə rənglənmiş total preparatlarında biz, limfa düyünlərinin yerləşməsini və makro-mikroskopik quruluşunu öyrənmişik. Aldığımız nəticələrə əsasən limfa düyünləri selikli qişa qatında yerləşərək aydın periferik konturlara malikdirlər. Çox da böyük olmayan böyüdücü ilə (binokulyar alın lupası, MBS-9 stereomikroskop – ok.8) baxdıqda limfa düyünləri, açıq fonda, tutqun (qara və ya tünd göy) rəngdə görünür. Limfa düyünləri əsasən oval və girdə olub, az hallarda qeyri-düz konturlara malikdirlər. Limfa düyününün uzun ölçüsü adətən orqanın boylama oxuna uyğun gəlir. Bir sıra hallarda uşaqlıq borusunun boylama oxuna çəp istiqamətdə yerləşən limfa düyünlərinə də rast gəlinir. Orqanın boylama oxuna köndələn yerləşmiş limfa düyünlərinə makro-mikroskopik metodla demək olar ki, rast gəlməmişik.

Uşaqlıq borusunun limfa düyünləri həm boylama büküşlərin arasında, həm də bu büküşlərin daxilində yerləşirlər. 56 yaşdan yuxarı olan qadınların uşaqlıq borularında bu büküşlər istər onun boğaz, istərsə də ampula hissələrində az nəzərə çarpırlar.

Eyni zamanda qeyd etmək lazımdır ki, makro-mikroskopik səviyyədə sağ və sol uşaqlıq borularında büküşlərin anatomik və topoqrafik xüsusiyyətləri arasında fərqi aşkar etmək mümkün olmamışdır.

Biz müxtəlif yaşlarda uşaqlıq borularının divarında yerləşən limfa düyünlərinin sayını müəyyən etmişik. Sağ və sol uşaqlıq borularındakı rəqəmlərdə hər-hansı bir fərqin olmadığını nəzərə almaqla ümumiləşdirilmiş nəticələr 1 N-li cədvəldə verilmişdir.

Cədvəldən göründüyü kimi limfa düyünlərinin sayı qocalıq dövründə müqayisə qrupları ilə nisbətdə demək olar ki, 2 dəfə azdır. Qeyd etmək lazımdır ki, bu və digər cədvəllərdə yeniyetmə və yetkin yaş dövrlərində məlumatlar istər reproduktiv (I), istərsə də onun olmaması (II) şərtilə verilmişdir. Qızlarda və I dövr yetkin yaşlı qadınlarda ovarial-menstrual tsikl hər zaman mövcud olmuşdur.

Həmçinin qoca yaşlı qadınların uşaqlıq borularında limfa düyünlərinin fərdi göstəricilərinin maksimal və minimal həddləri digər yaş qrupları ilə müqayisədə azalır.

Biz uşaqlıq borularının total preparatlarında müxtəlif nahiyələrdə yerləşən limfa düyünlərinin enini müxtəlif yaş dövrlərində öyrənmişik.

Uşaqlıq borularının limfa düyünlərinin eni yaşla əlaqədar kəskin dəyişir və bu zaman bu orqanın uşaqlıq hissəsində bu rəqəm minimal həddə çatır.

Qızlarda bu göstərici maksimal həddə çatır və sonradan azalmağa başlayır. Belə ki, limfa düyünün eni I yetkin dövrdə 1,12 dəfə ($p>0,05$), II yetkin dövrdə reproduktiv funksiya saxlanılmaqla 1.40 dəfə ($p>0,05$), həmin funksiyanı itirdikdə 1,62 dəfə ($p>0,05$), qocalıq yaşında – в 1,65 dəfə ($p>0,05$) azalır (Cədvəl 1).

Uşaqlıq borusunun boyunca limfa düyününün eninin maksimal və minimal fərdi göstəriciləri yeniyetmə dövründə artır, qizlarda və İ yetkin dövrdə eyni qalır, sonrakı yaşlarda tədricən azalmağa başlayır. Həmçinin, yaşlı qadınlarda, xüsusən qoca yaşlarda variasion sıranın amplitudasının xeyli dərəcədə yüksəlməsi diqqəti cəlb edir.

Yeniyetmələrdə, yetkinlik və qoca yaşlarda biz limfa düyünlərinin eninin reproduktiv funksiyadanasılı olub olmamasına da baxmışıq. Belə ki, reproduktiv funksiyanın saxlanması şəraitində limfa düyününün eni bu yaşlarda uşaqlıq borusunun bütün şöbələrində reproduktiv funksiyanın olmadığı haldan daha çoxdur.

Qoca yaşlı qadınlarda limfa düyününün eni orqanın uşaqlıq və boğaz hissəsində eyni (39,5 мкм), ampula hissədən 1,71 dəfə ($p<0,05$) və qıf hissədən 1,11 dəfə ($p>0,05$) azdır.

Biz uşaqlıq borularının total preparatla-

Cədvəl 1

Müxtəlif yaşlarda uşaqlıq borularının total preparatlarında limfa düyünlərinin sayı. (X ±S x; min-max).

| Yaş | | Müşahidə sayı | Limfa düyünlərinin sayı |
|---|---|---|---|
| Yeniyetmə | I | 16 | 48,9±1,02<br>40-54 |
| | II | 18 | 42,0±0,87<br>34-47 |
| Gənclik (Qızlar) | | 32 | 48,7±0,63<br>40-54 |
| I Yetkinlik dövrü | | 32 | 48,0±0,72<br>36-52 |
| II Yetkinlik dövrü | I | 13 | 38,3±1,83<br>22-43 |
| | II | 11 | 30,0±1,60<br>18-34 |
| Ahıl | | 15 | 24,6±0,92<br>16-28 |
| Qocalıq | | 12 | 18,4±1,29<br>10-24 |

rında müxtəlif nahiyyələrdə yerləşən limfa düyünlərinin uzunluğunu müxtəlif yaş dövrlərində öyrənmişik. Alınmış nəticələr 2 N-li cədvəldə göstərilir.

Biz uşaqlıq borularının total preparatlarında müxtəlif nahiyələrdə yerləşən limfa düyünlərinin uzunluğunu da müxtəlif yaş dövrlərində öyrənmişik. Belə ki, cədvəldən göründüyü kimi, uşaqlıq borularının limfa düyünlərinin uzunluğu yaşla əlaqədar kəskin dəyişir və bu zaman bu orqanın uşaqlıq hissəsində bu rəqəm minimal həddə çatır. Gənclik dövründən fərqli olaraq, limfa düyünlərinin uzunluğu I yetkin dövrdə 3,26 dəfə ($p<0,05$), II yetkin dövrdə reproduktiv funksiya saxlanılmaqla 3,09 dəfə ($p<0,05$), həmin funksiyanı itirdikdə 2,24 dəfə ($p>0,05$), qocalıq yaşında – 1,17 dəfə ($p>0,05$) azalır

Tam uşaqlıq borusunun divarında limfa düyününün uzunluğu yeniyetmələrdən fərqli olaraq cənclik dövründə reproduktiv funksiya saxlanılmaqla 4,45 dəfə ($p<0,05$), həmin funksiyanı itirdikdə 3,83 dəfə ($p<0,05$) çox olur. Sonradan bu rəqəm azalaraq qocalıq yaşında – 1,62 dəfə ($p>0,05$) azalır.

Uşaqlıq borusunun boyunca limfa düyününün uzunluğunun maksimal və minimal fərdi göstəriciləri yeniyetmə dövründə artır, qizlarda və İ yetkinlik dövründə eyni qalır, sonrakı yaşlarda tədricən azalmağa başlayır.

Yeniyetmələrdə, yetkin qadınlarda və qoca yaşlarda biz limfa düyünlərinin uzunluğu -nun reproduktiv funksiyadan asılı olub olmamasına da baxmışıq. Belə ki, reproduktiv funksiyanın saxlanması şəraitində limfa düyünün uzunluğu bütün bu yaşlarda uşaqlıq borusunun bütün şöbələrində reproduktiv funksiyanın olmadığı haldan daha çoxdur.

Aparılan tədqiqat nəticəsində qocalıq yaşlarında uşaqlıq borusunun limfoid aparatının struktur xüsusiyyətləri müəyyən olunmuş, onun morfoloji xüsusiyyətləri təsvir edilmişdir. Müəyyən edilmişdir ki, bu orqanın limfoid aparatı diffuz limfoid toxuma və limfa düyünlərindən təşkil olunmuşdur. Halbuki, ədəbiyyatda rast gəldiyimiz bir çox tədqiqat işlərində uşaqlıq borularında limfa düyünləri-

Cədvəl 2.

Uşaqlıq borusunun divarının müxtəlif nahiyələrində, müxtəlif yaşlarda limfa düyünlərinin uzunluğu ($X \pm Sx$; min-max; mkm).

| Yaş | | | Limfa düyününün uzunluğu, uşaqlıq borusunun nahiyələri | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | Uşaqlıq hissəsi | Boğaz | Ampula | Qıf | Orqan bütövlükdə |
| Yeniyetmə | I | 16 | 100,3±1,94<br>84,2-110,8 | 99,4±3,95<br>100,0-130 | 149,8±3,91<br>110,0-163 | 136,4±4,02<br>105,4-160 | 126,8±3,94<br>100,0-154,2 |
| | II | 18 | 95,41±06,3<br>67,8-106,3 | 105,4±2,52<br>84,3-120 | 122,3±2,78<br>98,5-140 | 113,6±2,01<br>100,3-130 | 109,2±2,27<br>86,4-120,6 |
| Gənclik (Qızlar) | | | 120,4±4,5<br>100,0-200,6 | 130,8±3,87<br>114,7-200 | 136,3±3,55<br>118,7-228 | 132,0±4,73<br>115,3-220,6 | 130,9±4,41<br>114,7-212,6 |
| I Yetkinlik dövrü | | | 116,3±3,80<br>100,0-184,5 | 130,8±3,56<br>105,3-184,8 | 135,4±3,56<br>105,3-185 | 132,0±5,1<br>105,3-218,6 | 128,6±3,69<br>104,5-186,5 |
| II Yetkinlik dövrü | I | 13 | 110,3±8,2<br>84,2-178,5 | 112,3±7,82<br>88,6-178,5 | 120,0±5,39<br>98,5-160,7 | 130,0±7,02<br>80,0-160,7 | 118,3±7,13<br>88,6-170,5 |
| | II | 11 | 80,0±6,8<br>60,4-128,6 | 82,4±6,84<br>60,4-128,4 | 86,0±6,18<br>67,8-129,6 | 94,5±6,18<br>67,8-129,6 | 85,7±6,46<br>64,2-128,8 |
| Ahıl | | | 78,3±5,36<br>50,4-120,2 | 80,2±5,39<br>50,4-120,2 | 84,5±5,65<br>56,2-129,6 | 89,6±5,83<br>54,4-130,6 | 83,2±5,78<br>54,2-129,6 |
| Qocalıq | | | 70,4±6,75<br>46,8-120,2 | 80,0±6,59<br>46,8-118,5 | 84,0±7,29<br>50,4-129,6 | 88,5±8,31<br>50,2-140,3 | 80,7±6,60<br>46,8-118,5 |

nin tək-tük olduğu qeyd olunur.

İlk dəfə olaraq müəyyən olunmuşdur ki, limfa düyünləri bu orqanın boyunca eyni bərabərlikdə yerləşmir. Adətən limfa düyünlərinin tək-tük olduğu qeyd olunur.

İlk dəfə olaraq müəyyən olunmuşdur ki, limfa düyünləri bu orqanın boyunca eyni bərabərlikdə yerləşmir. Adətən limfa düyünə uşaqlıq hissədə az, boğaz və qıf hissədə bir qədər çox, ampul hissədə isə daha çox rast gəlinir. Bu qanunauyğunluq bütün yaş dövrlərində saxlanılır. 56 yaşdan sonra limfa düyünlərinin miqdarının azalması müşahidə olunur.

Əvvəlki tədqiqat işlərində müəyyən etmişdik ki, limfoid toxuma 16-20 yaşdan başlayaraq 35 yaşa qədər inkişaf edir [13]. Bu zaman limfa düyünlərinin ümumi sayı yenidoğulmuşlarla nisbətdə 3,38 dəfə, eni 2,85 dəfə, uzunluğu isə 4,59 dəfə artır. Qeyd etmək lazımdır ki, əksər periferik orqanlarda limfa toxumanın maksimal inkişaf dövrü uşaq və yeniyetmə dövrünə təsadüf edir [14]. Güman etmək olar ki, uşaqlıq borularında limfoid toxumanın inkişaf dövrünün 35 yaşda yüksək olması, orqanizmin məhz bu yaşda yüksək estrogen fonunun olması ilə əlaqədardir.

Bunu sübut edən daha bir fakt ondan irəli gəlir ki, II yetkinlik dövründə reproduktiv funk-siyalara malik qadınlarda, bu funksiyalara malik olmayan qadınlara nisbətən limfa düyünlərinin miqdarını, onların struktur xüsusiyyətlərini səciyyələndirən parametrlər (eni, uzunluğu) daha yüksək olur.

Hətta müşahidə etmişik ki, reproduktiv funksiyanı saxlayan qadınlarda limfa düyünlərinin miqdarı, onların struktur-ölçü göstəriciləri sekresiya fazasında daha da artır. Məhz

bu fazada orqanizmdə estrogenin miqdarı maksimal səviyyədə olur.

56 yaş və ondan yuxarı olan qadınlarda uşaqlıq borusunun limfoid aparatında involyutiv dinamika müşahidə olunur. Müəyyən etmişik ki, 16-20 yaşlı qızlara nisbətdə qoca yaşlarda limfa düyünlərinin miqdarı 2,64 dəfə

Bu yaş dövründə limfa düyünlərinin formasında da dəyişikliklər müşahidə olunur. Belə ki, qeyri-düz formalı limfa düyünlərinin sayı 34,8% artır. Harmonik formalı limfa düyünlərinin miqdarı isə müvafiq olaraq (girdə - 12,6%, oval - 22,4%-ə qədər) azalır.

Qoca yaşlarda uşaqlıq borusunun divarında limfa düyünlərinin olmaması hallarını müşahidə etməmişik. Bu orqanın selikli qişasının immun müdafiəsi bütün yaşlarda fəaliyyət göstərir. Məlumdur ki, limfoid toxu-ma dalaqda, badamcıqlarda və digər periferik orqanlarda qocalıq yaş qrupu daxil olmaqla ontogenezin bütün mərhələlərində saxlanılır [14].

**Yekun**. Apardığımız tədqiqatın nəticəsində müəyyən etmişik ki, 56 yaşdan başlayaraq uşaqlıq borusunun selikli qişası limfa düyünləri saxlanılmaqla bərabər, onlar istər miqdarca, istər formaca və istərsə də morfoloji quruluşca (eni, uzunluğu) involyutiv dəyişikliklərə məruz qalır. Sağ və sol uşaqlıq borularının selikli qişasında yerləşən limfa düyünlərinin makromikroskopik quruluşunda heç bir nəzərə çarpacaq fərq aşkar edilməmişdir. Uşaqlıq borusunun uşaqlıq hissəsində limfa düyünlərinin miqdarı ən az göstəriciyə malikdir. Alınan nəticələr bu yaş dövrü üçün uşaqlıq borusunun selikli qişasında yerləşən limfa düyünləri üçün normativ məlumat kimi təcrübi təbabətdə istifadə oluna bilər.

**Maliyyə mənbəyi**: Yoxdur
**Maraqların toqquşması**: Yoxdur.

**Ədəbiyyat siyahısı.**

1.*Сапин М.Р., Никитюк Д.Б.* Иммунная система, стресс и иммунодефицит. М.: АПП Джангар. 2000; 184.

*2.Сапин М.Р., Никитюк Д.Б., Шадлинский В.Б., Мовсумов Н.Т.* Малые железы пищеварительной и дыхательной систем. М.: АПП Джангар, 2000; 135.

3.*Шадлинский В.Б., Мовсумов Н.Т.* Железисто-лимфоидный аппарат гортани крыс при бальнеологических воздействиях. Баку: Нурлан, 2002; 131.

4. *Gray D.* Histological and cytological changes in the spleen of mice treated with bacterial lipopolysaccharide. Med. Inter., 2004; v.18, (1): 15-24

5. *Чилингариди С.Н.* Макромикроскопическая анатомия язычной минда-лины у людей зрелого возраста. Сборник работ молодых ученых, изу-чающих морфологию иммунных органов. Запорожье, 1991; 27-28.

6. *Алиева Н.Г.* Морфологическая характеристика лимфоидных образований пи-ще-вода человека в постнатальном онтогенезе: автореф. дисс... канд. мед. наук, Баку, 2007; 21.

7. *Агоева С.Д.* Клеточный состав и цитоархитектоника элементов небных миндалин в норме у взрослых людей. Морфология, 1992; (9): 7-12

8. *Гусейнов Б.М.* Возрастные особенности лимфоидных структур трахеи и главных бронхов человека. Современные достижения азербайджанской медицины. 2008; (1): 96-101

9. *Мовсумов Н.Т.* Морфогенез желез гортани человека в норме и в эксперименте при некоторых бальнеологических воздействиях: автореф. дисс... док. мед. Наук. Баку, 2004; 42.

10. *Сеидова З.Р.* автореф.дисс...канд.мед.наук, Москва, 2002; 21.

11. *Артюх Е.В., Яхница А.Г., Решетилов В.И.* Лимфоидные образования эндометрия женщин в онтогенезе. Архив анатомии, гистологии и эмбриологии. 1990; (12): 48-53

12. *Kawano Y., Kaku T., Sonoda K., et al.* Expression of RCAS1 in female genital organs. Int J Gynecol Pathol. 2005; v.24, (4) 330-334.

13. *Şadlinskaya S.V.* Normada, kontralateral aplaziya və boru hamiləliyi zamanı uşaqlıq borusunun limfoid aparatının funksional morfologiyası: tibb üzrə elmlər namizədi diss.....avtoreferatı. Bakı, 2009; 21.

14. *Сапин М.Р., Этинген Л.Е.* Иммунная система человека. М.: Медицина, 1996; 301.

# QADIN ÇANAĞI FORMALARINDAN VƏ YAŞDAN ASILI OLARAQ UŞAQLIĞIN VƏ YUMURTALIQLARIN MORFOMETRİK XARAKTERİSTİKASI

Xıdırov E.Ə., Qanbayeva Ş.F.
*Azərbaycan Tibb Universiteti. İnsan anatomiyası və tibbi terminologiya kafedrası. Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019

***Əlaqə üçün məlumatlar:** AZ. 1033 Bakı şəhəri, S.Orucov küçəsi, ev18. mən 266; e-mail: dr_anatom @mail.ru

Tədqiqatın məqsədi kiçik çanaq boşluğu orqanlarından olan yumurtalıqların və uşaqlığın morfomerik göstəricilərinin öyrənilməsi olmuşdur.

Çanaq ölçülərinin öyrənilməsində olduğu kimi burada da yaş kateqoriyaları tərəfimizdən üç qrupa bölünübdür: gənclik yaşı dövrü, birinci və ikinci yetkinlik yaşı dövrləri. Əldə olunan nəticələrə əsasən demək olar ki, gənclik yaşı qrupunda çanağın normal formalarında uşaqlığın və yumurtalıqların morfometrik parametrlərinin variabelliyi dar çanaq formaları ilə müqayisədə daha yüksək olur.

Birinci yetkin yaş dövründə normal və dar çanaq formalarında daxili cinsiyyət orqanlarının ölçüləri arasında ən çox disbalans yumurtalıqların orta göstəricilərində aşkar şəkildə özünü büruzə verir. Əgər əvvəlki yaş qruplarında yüksək dispersiya keyfiyyəti normal çanaq formalarında müşahidə olunurdusa, ikinci yetkin yaş qrupunda maksimal dispersiya keyfiyyəti dar çanaq formalarının bütün parametrlərində müəyyən olunubdur.

Yekun. Aparılan tədqiqatlar zamanı əldə olunan nəticələr normal və dar çanaq formalarında kiçik çanaq boşluğu orqanlarının ölçüləri arasında meydana çıxan fərqləndirici əlamətlərin olduğunu təsdiq edir və bunun yaş aspekti baxımından artması müşahidə olunur.

*Açar sözlər: Uşaqlıq, yumurtalıqlar, çanaq, morfometriya*

# DEPENDENCE MORPHOMETRIC FEATURES OF THE UTERUS AND OVARIES FROM THE TYPE OF THE PELVIS AND AGE

Khidirov E.A., Ganbaeva Sh.Ph.
*Azerbaijan Medical University. Department of Human Anatomy and Medical Terminology, Baku, Azerbaijan*

Publication date: December 2019

*Contact information: AZ 1033. Baku, S.Orucov str. building 18. Email:dr_anatom @mail.ru

The purpose of the research was to study morpho-metric index of ovaries of ovaries and uterus from lesser pelvis cavity organs.

As in the study of the pelvis the age categories here are divided into 3 groups by us; early adulthood, middle adulthood, late adulthood. According to the result, the morphometric parameter uterus and ovaries in the normal pelvis are highter in the early adulthood than in the narrow pelvis in the middle adulthood.

Between internal genital organs ovaries sizes showed higher disbalans for the early adulthood in the normal and narrow pelvic form. If in previous age groups showed high dispersion quality in the normal type of the pelvis but in the middle adulthood group. Showed hight dispersion parameters in the narrow pelvis.

Conclusione**.** The result obtained during the research showed differences between size of lesser pelvic cavity depending on the age.

*Key words: Uterus, ovaris, pelvis, morphometrya*

**Giriş.** Çanaq formalarından asılı olaraq uşaqlığın və yumurtalıqların morfometrik xüsusiyyətlərini öyrənilməsi daima tədqiqatçıların diqqət mərkəzində olmuşdur [1,2,3,4, 5,6]. Əldə olunan ədəbiyyat məlumatlarının təhlili göstərir ki, bu sahədə çoxsaylı elmi tədqiqat işləri aparılmışdır [8,9,10]. Lakin yaş morfodinamikası baxımından qeyd olunan orqanların çanaq formalarından asılı olaraq morfometrik xüsusiyyətlərinin öyrənilməsi elmi ədəbiyyatda kifayət qədər öz əksini tapmamışdır.

Tədqiqatın məqsədi kiçik çanaq boşluğu orqanlarından olan yumurtalıqların və uşaqlığın morfomerik göstəricilərinin öyrənilməsi olmuşdur.

Material və metodlar. Tədqiqat obyekti kimi ATU-nun İnsan Anatomiyası və tibbi terminologiya kafedrasının tədris meyitxanasında saxlanılan meyitlərdən (30 meyit) istifadə olunubdur. Pelviometrik əlamətlərinə görə 21 meyitdə normal ölçülü çanaq qeydə alınıbdır. Lakin meyit üzərində qadınların kiçik çanaq boşluğunun digər ölçülərini əldə etmək imkanı olmadığına görə (dar formalı çanaqları fərqləndirmək üçün) və bu səbəbdən qalan 17 meyitdə çanağın dar olması sadə qaydada tədqiq olunubdur. Tədqiqat obyekti kimi istifadə olunan meyitlər 16-60 yaş arasında olub. Çanaq ölçülərinin öyrənilməsində olduğu kimi burada da yaş kateqoriyaları tərəfimizdən üç qrupa bölünübdür: gənclik yaşı dövrü, birinci və ikinci yetkinlik yaşı dövrləri. Anatomik təşrih prinsiplərinə əsaslanaraq tədqiq olunan meyitlərin kiçik çanaq boşluğundan yumurtalıqlar və uşaqlıq xaric edilib, daha sonra onların morfometrik ölçüləri müəyyən olunubdur. Morfometrik tədqiqatlar nəticəsində əldə olunan faktiki materialların statistik xarakteristikası aparılıbdır.

Tədqiqatın bu mərhələsində gənclik yaşı qrupuna aid qadınların uşaqlığın və yumurtalıqların morfometrik göstəriciləri tədqiq olunubdur. Bu yaş qrupuna dar çanaq konfiqurasiyalı 6 meyit və 7 normal çanaq forması daxil edilibdir. Tədqiqat zamanı məlum olubdur ki, ən çox fərqlənən uşaqlığın uzununa ölçüləridir. Normal çanaq formalarında uşaqlığın uzunluğunun orta göstəricisi Xog = 58,58mm olduğu halda; dar çanaq formalarında orta göstərici $X_{og}$=50,86mm, təşkil edir (Cədvəl 1).

Bu zaman ən çox fərqlənən uzununa parametrlər olur ki,bu da normal çanaq formalarındakı yumurtalıq ölçülərindən üstün olur. Normal və dar çanaq formalarında sağ yumurtalıqların uzununa ölçülərinin arasındakı göstərici təxminən bir santimetrdən çox olur (11,38mm). Lakin, sol yumurtalıqların uzununa parametrləri arasında analoji göstərici bir qədər az olur (müvafiq olaraq: Xog= 42,75 mm; Xog=32,29mm). Qeyd olunan parametrlər üçün dispersiya göstəriciləri öyrənilən digər morfometrik gostəricilərdən fərqlənərək, yüksək olması nəzərə çarpır (normal çanaq formalarında sağ yumurtalığın eninə ölçüsü üçün -S=3,25; sol yumurtalığın uzununa ölçüsü üçün - S=3,06). Tədqiqatın gedişi zamanı müəyyən olunubdur ki, normal və dar çanaq formalarında ən az fərqlənən sol yumurtalığın qalınlğının (müvafiq olaraq: Xog=17,25mm və Xog = 14,11mm) və uşaqlığın uzunluğunun morfometrik göstəriciləri olubdur (müvafiq olaraq: Xog = 20,20mm və Xog = 17,07mm). Dar çanaq formalarında öyrənilən parametrlər üçün dispersiya göstəricilərinin aşağı olması müşahidə edilir.Belə ki, sol yumurtalığın parametri üçün dispersiya göstəricisi S=0,76; uşaqlığın boynunun uzunluq parametri üçün isə S=0,84 təşkil edir. Əldə olunan nəticələrə əsasən demək olar ki, gənclik yaşı qrupunda çanağın normal formalarında uşaqlığın və yumurtalıqların morfometrik parametrlərinin variabelliyi dar çanaq formaları ilə müqayisədə daha yüksək olur.

Beləliklə, parametrlər arasında fərq, demək olar ki, 8mm, olur. Lakin, yumurtalıqların parametrlərində disbalans özünü daha kəskin şəkildə büruzə verir.

Birinci yetkinlik yaşı qrupunda da əv-

Cədvəl 1.

16-20 yaşarası meyitlərdə uşaqlığın və yumurtalıqların morfometrik xarakteristikası (mm).

| Morfometrik əlamətlər | Çanağın formaları | Statistik parametrlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | N | X | S | S(r) | X üçün ehtimal olunan 95%-lik dürüstlük intervalı | | min | max |
| | | | | | | min | max | | |
| Uşaqlıq cisminin uzunluğu | Dar | 6 | 50,86 | 2,15 | 0,81 | 48,86 | 52,85 | 48,5 | 54,0 |
| | Normal | 7 | 58,58 | 1,43 | 0,58 | 57,08 | 60,08 | 56,5 | 60,5 |
| | Ümumi | 13 | 54,42 | 4,39 | 1,22 | 51,77 | 57,07 | 48,5 | 60,5 |
| Uşaqlıq cisminin eni | Dar | 6 | 23,64 | 1,44 | 0,54 | 22,32 | 24,97 | 22,0 | 26,0 |
| | Normal | 7 | 30,33 | 2,02 | 0,82 | 28,22 | 32,45 | 27,5 | 32,5 |
| | Ümumi | 13 | 26,73 | 3,84 | 1,07 | 24,41 | 29,05 | 22,0 | 32,5 |
| Uşaqlıq divarının qalınlığı | Dar | 6 | 16,14 | 0,63 | 0,24 | 15,56 | 16,72 | 15,5 | 17,0 |
| | Normal | 7 | 19,67 | 1,63 | 0,67 | 17,95 | 21,38 | 17,5 | 21,5 |
| | Ümumi | 13 | 17,77 | 2,16 | 0,60 | 16,47 | 19,07 | 15,5 | 21,5 |
| Uşaqlıq boynu-nun uzanluğu | Dar | 6 | 17,07 | 0,84 | 0,32 | 16,30 | 17,85 | 16,0 | 18,5 |
| | Normal | 7 | 20,50 | 1,52 | 0,62 | 18,91 | 22,09 | 18,5 | 22,0 |
| | Ümumi | 13 | 18,65 | 2,12 | 0,59 | 17,38 | 19,93 | 16,0 | 22,0 |
| Sol yumurtalığın uzunluğu | Dar | 6 | 32,29 | 2,60 | 0,98 | 29,89 | 34,69 | 28,5 | 36,0 |
| | Normal | 7 | 42,75 | 3,06 | 1,25 | 39,54 | 45,96 | 38,5 | 46,5 |
| | Ümumi | 13 | 37,12 | 6,06 | 1,68 | 33,45 | 40,78 | 28,5 | 46,5 |
| Sağ yumurtalığın uzunluğu | Dar | 6 | 30,79 | 1,91 | 0,72 | 29,02 | 32,55 | 28,0 | 33,0 |
| | Normal | 7 | 42,17 | 2,75 | 1,12 | 39,28 | 45,05 | 38,5 | 45,5 |
| | Ümumi | 13 | 36,04 | 6,31 | 1,75 | 32,22 | 39,85 | 28,0 | 45,5 |
| Sol yumurtalığın eni | Dar | 6 | 18,14 | 0,85 | 0,32 | 17,35 | 18,93 | 17,0 | 19,5 |
| | Normal | 7 | 23,67 | 3,25 | 1,33 | 20,26 | 27,08 | 19,5 | 27,5 |
| | Ümumi | 13 | 20,69 | 3,60 | 1,00 | 18,52 | 22,87 | 17,0 | 27,5 |
| Sağ yumurtalığın eni | Dar | 6 | 18,79 | 2,04 | 0,77 | 16,90 | 20,67 | 16,5 | 21,5 |
| | Normal | 7 | 25,67 | 2,34 | 0,95 | 23,21 | 28,12 | 22,0 | 28,5 |
| | Ümumi | 13 | 21,96 | 4,14 | 1,15 | 19,46 | 24,46 | 16,5 | 28,5 |
| Sol yumurtalığın qalınlığı | Dar | 6 | 14,00 | 0,71 | 0,27 | 13,35 | 14,65 | 13,0 | 15,0 |
| | Normal | 7 | 17,50 | 1,64 | 0,67 | 15,78 | 19,22 | 15,0 | 19,5 |
| | Ümumi | 13 | 15,62 | 2,16 | 0,60 | 14,31 | 16,92 | 13,0 | 19,5 |
| Sağ yumurtalığın qalınlığı | Dar | 6 | 14,11 | 0,76 | 0,29 | 13,41 | 14,82 | 13,5 | 15,5 |
| | Normal | 7 | 17,25 | 0,94 | 0,38 | 16,27 | 18,23 | 16,0 | 18,5 |
| | Ümumi | 13 | 15,56 | 1,82 | 0,50 | 14,46 | 16,66 | 13,5 | 18,5 |

vəlki mərhələdə olduğu kimi 6 me-yitdə dar canaq və 7 normal çanaq formala-rında qadın kiçik çanaq boşluğu orqanla-rının morfometrik göstəriciləri tədqiq edilib-dir. Bu yaş dövründə normal və dar çanaq for-mala-rında daxili cinsiyyət orqanlarının ölçüləri arasında ən çox disbalans yumurtalıqların orta göstəricilərində aşkar şəkildə özünü bü-ruzə verir.

Ən çox fərqlənən sol yumurtalığın uzunluq parametridir (müvafiq olaraq: Xog=48,52 mm və Xog=31,86 mm). Bir qədər az fərq sağ yumurtalığın uzunluq parametri üçün müəy-

yən olunubdur. Belə ki, normal çanaq formalarında orta göstərici Xog= 49,67mm olduğu halda; dar çanaq formalarında orta gös-tərici Xog=34,00 təşkil edir (cədvəl 2). Uşaqlığın parametrləri arasında gənclik yaşı qrupunda olduğu kimi, bu yaş dövründə də ən çox fərq-

Cədvəl 2.

21-35 yaşarası meyitlərdə uşaqlığın və yumurtalıqların morfometrik xarakteristikası (mm).

| Morfometrik əlamətlər | Çanağın formaları | Statistik parametrlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | N | X | S | S(r) | X üçün ehtimal olunan 95%-lik dürüstlük intervalı | | min | max |
| | | | | | | min | max | | |
| Uşaqlıq cisminin uzunluğu | Dar | 6 | 58,71 | 2,75 | 1,04 | 56,17 | 61,26 | 55,5 | 62,0 |
| | Normal | 7 | 73,50 | 5,13 | 2,09 | 68,12 | 78,88 | 65,5 | 78,5 |
| | Ümumi | 13 | 65,54 | 8,58 | 2,38 | 60,35 | 70,72 | 55,5 | 78,5 |
| Uşaqlıq cisminin eni | Dar | 6 | 27,43 | 1,86 | 0,70 | 25,71 | 29,15 | 25,5 | 30,0 |
| | Normal | 7 | 34,67 | 2,02 | 0,82 | 32,55 | 36,78 | 31,5 | 37,0 |
| | Ümumi | 13 | 30,77 | 4,19 | 1,16 | 28,24 | 33,30 | 25,5 | 37,0 |
| Uşaqlıq divarının qalınlığı | Dar | 6 | 17,64 | 1,14 | 0,43 | 16,58 | 18,70 | 16,0 | 19,0 |
| | Normal | 7 | 21,25 | 0,94 | 0,38 | 20,27 | 22,23 | 20,0 | 22,5 |
| | Ümumi | 13 | 19,31 | 2,13 | 0,59 | 18,02 | 20,59 | 16,0 | 22,5 |
| Uşaqlıq boynunun uzanluğu | Dar | 6 | 18,50 | 1,35 | 0,51 | 17,25 | 19,75 | 16,5 | 20,0 |
| | Normal | 7 | 22,58 | 0,74 | 0,30 | 21,81 | 23,36 | 21,5 | 23,5 |
| | Ümumi | 13 | 20,38 | 2,37 | 0,66 | 18,95 | 21,82 | 16,5 | 23,5 |
| Sol yumurtalığın uzunluğu | Dar | 6 | 31,86 | 3,75 | 1,42 | 28,39 | 35,32 | 27,0 | 36,5 |
| | Normal | 7 | 48,52 | 3,75 | 1,53 | 44,58 | 52,45 | 42,0 | 52,0 |
| | Ümumi | 13 | 39,55 | 9,36 | 2,60 | 33,89 | 45,20 | 27,0 | 52,0 |
| Sağ yumurtalığın uzunluğu | Dar | 6 | 34,00 | 3,30 | 1,25 | 30,94 | 37,06 | 30,0 | 38,0 |
| | Normal | 7 | 49,67 | 5,16 | 2,11 | 44,25 | 55,09 | 41,5 | 55,5 |
| | Ümumi | 13 | 41,23 | 9,09 | 2,52 | 35,74 | 46,72 | 30,0 | 55,5 |
| Sol yumurtalığın eni | Dar | 6 | 20,43 | 1,69 | 0,64 | 18,86 | 22,00 | 18,5 | 22,5 |
| | Normal | 7 | 27,00 | 0,84 | 0,34 | 26,12 | 27,88 | 26,0 | 28,0 |
| | Ümumi | 13 | 23,46 | 3,65 | 1,01 | 21,25 | 25,67 | 18,5 | 28,0 |
| Sağ yumurtalığın eni | Dar | 6 | 21,14 | 2,63 | 0,99 | 18,71 | 23,57 | 18,0 | 24,0 |
| | Normal | 7 | 27,67 | 1,37 | 0,56 | 26,23 | 29,10 | 25,5 | 29,5 |
| | Ümumi | 13 | 24,15 | 3,96 | 1,10 | 21,76 | 26,55 | 18,0 | 29,5 |
| Sol yumurtalığın qalınlığı | Dar | 6 | 14,64 | 1,41 | 0,53 | 13,34 | 15,94 | 13,0 | 16,5 |
| | Normal | 7 | 18,97 | 1,11 | 0,45 | 17,80 | 20,13 | 17,0 | 20,0 |
| | Ümumi | 13 | 16,64 | 2,56 | 0,71 | 15,09 | 18,18 | 13,0 | 20,0 |
| Sağ yumurtalığın qalınlığı | Dar | 6 | 16,43 | 1,48 | 0,56 | 15,06 | 17,80 | 14,0 | 18,0 |
| | Normal | 7 | 19,33 | 0,68 | 0,28 | 18,62 | 20,05 | 18,5 | 20,5 |
| | Ümumi | 13 | 17,77 | 1,89 | 0,52 | 16,63 | 18,91 | 14,0 | 20,5 |

lənən onun uzununa parametrləri olubdur (fərq təxminən 1,5 sm).Birinci yetkinlik yaşı dövrünə aid normal çanaq formalarında uşaqlığın uzunluğunun orta göstəricisi Xog=73,50mm olduğu halda: dar çanaq formalarında orta göstərici Xog = 52,7mm təşkil edir. Yuxarıda qeyd olunan parametrlərin dispersiya göstəriciləri gənclik yaşı qrupunda əldə olunan müvafiq parametrlərin statistik nəticələri ilə müqayisə olunubdur. Belə ki, ən çox fərqlənən parametrlərdə dispersiya keyfiyyətinin yüksək olması qeydə alınıdır. Normal çanaq formalarında sağ yumurtalığın uzunluğunun dispersiya göstərici -si S=5,16; uşaqlığın uzunluğunun dispersiya göstəricisi isə S=5,13 təşkil edir.

Normal və dar çanaq konfiqurasiyalarında qadınların kiçik çanaq boşluğu orqanlarının ölçülərinin müqayisəsinə gəldikdə ən az dəyişən göstəricilər: sol yumurtalığın qalınlığının (müvafiq olaraq: Xog=19,33mm və Xog=16,43 mm) və uşaqlığın cisminin qalınlığının (müvafiq olaraq: Xog=21,25mm və Xog=17,64 mm) parametrləri olduğu müəyyən edilibdir. Minimal dispersiya keyfiy-yəti (yaş aspekti baxımından) sol yumurtalığın qalınlıq, uşaqlığın boynunun uzunluq, sağ yumurtalığın en və uşaqlığın cisminin en parametrlərində müşahidə olunubdur. Yuxarıda qeyd olunan bütün morfometrik parametrlər üçün dispersiya keyfiyyəti vahiddən aşağı olur.

Axırıncı yaş kateqoriyasında (ikinci yetkinlik yaşı dövrü: 36 - 60 yaş) normal və dar çanaq formaları əvvəlki yaş dövrləri ilə müqayisədə bir qədər az (5 meyit) olubdur. Dar çanaq formalarının az müşahidə olunması öyrənilən parametrlərin dispersiya keyfiyyətinə təsir edərək onun artmasına səbəb olubdur. Əgər əvvəlki yaş qruplarında yüksək dispersiya keyfiyyəti normal çanaq formalarında müşahidə olunurdusa, bu yaş qrupunda maksimal dispersiya keyfiyyəti dar çanaq formalarının bütün parametrlərində müəyyən olunubdur. Məsələn, dispersiya keyfiyyəti sağ yumurtalığın uzunluğu üçün - S=6,67; sol yumurtalığın uzunluğu üçün - S=6,41; uşaqlığın cisminin uzunluğu üçün - S=6,07 təşkil edir.

Tədqiqat apardığımız bu yaş qrupunda istər normal, istərsə də dar çanaq konfiqurasiyalarında öyrənilən parametrlərin ölçülərində tərəfimizdən gözlənilməz nəticələr müşahidə olunubdur. Ən çox fərqlənən yumurtalıqların uzunluğunun orta ölçüləridir. Belə ki, bu qrupda da sol yumurtalığın ölçülərinin (müvafiq olaraq: Xog=55,70 mm və Xog = 38,93mm); sağ yumurtalığın eyni adlı ölçüləri ilə müqayisədə (müvafiq olaraq: Xog = 55,70mm və Xog=41,43 mm) artdığı müəyyən olunubdur (cədvəl 3).

Normal və dar çanaq formalarında uşaqlığın cisminin uzunluq parametrləri kifayət qədər bir-birindən fərqlənir. Belə ki,dar çanaq formalarında bu əlamətin orta göstəricisi Xog=74,79 mm olduğu halda, normal çanaq konfiqurasiyasında orta göstərici Xog=85,40 mm, təşkil edir. Lakin, az fərqləndirici xüsusiyyət sağ və sol yumurtalıqların qalınlıq parametrlərində nəzərə çarpır. Müəyyən edilibdir ki, normal və dar çanaq formalarında sol yumurtalığın qalınlıq parametrlərində fərq təxminən 4mm - ə bərabər olur (müvafiq olaraq: Xog=20,20 mm və Xog=16,86 mm). Əldə olunan məlumatlar digər tədqiqatçıların fikirləri ilə üst-üstə düşür (11,12)

Tədqiqat aparılan paraemetrlərdə müşahidə olunan az müxtəliflilik yüksək olmayan dispersiya keyfiyyəti ilə xarakterizə olunur. Belə ki, sol yumurtalığın uzunluq parametrində dispersiya keyfiyyəti dar çanaq forması üçün:S=1,41, normal çanaq forması üçün isə: S=1,04 müəyyən edilibdir. Bununla belə, normal çanaq formalarında uşaqlığın uzunluq və en parametrlərində minimal dispersiya keyfiyyəti müşahidə olunur (müvafiq olaraq: S=0,42 və S=0,22).

**Yekun.** Aparılan tədqiqatlar zamanı əldə olunan nəticələr normal və dar çanaq formalarında kiçik çanaq boşluğu orqanlarının ölçüləri arasında meydana çıxan fərqləndirici

Cədvəl 3.

36-60 yaşarası meyitlərdə uşaqlığın və yumurtalıqların morfometrik xarakteristikası (mm).

| Morfometrik əlamətlər | Çanağın formaları | Statistik parametrlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | N | X | S | S(r) | X üçün 95%-lik ehtimallıq intervalı | | min | max |
| | | | | | | min | max | | |
| Uşaqlıq cisminin uzunluğu | Dar | 5 | 74,79 | 6,07 | 2,30 | 69,17 | 80,40 | 65,5 | 82,5 |
| | Normal | 7 | 85,40 | 0,42 | 0,19 | 84,88 | 85,92 | 85,0 | 86,0 |
| | Ümumi | 12 | 79,21 | 7,08 | 2,04 | 74,71 | 83,70 | 65,5 | 86,0 |
| Uşaqlıq cisminin eni | Dar | 5 | 34,00 | 2,77 | 1,05 | 31,44 | 36,56 | 30,0 | 38,0 |
| | Normal | 7 | 40,60 | 0,22 | 0,10 | 40,32 | 40,88 | 40,5 | 41,0 |
| | Ümumi | 12 | 36,75 | 3,97 | 1,15 | 34,23 | 39,27 | 30,0 | 41,0 |
| Uşaqlıq divarının qalınlığı | Dar | 5 | 19,57 | 1,90 | 0,72 | 17,81 | 21,33 | 16,5 | 22,0 |
| | Normal | 7 | 24,30 | 1,35 | 0,60 | 22,62 | 25,98 | 23,0 | 26,0 |
| | Ümumi | 12 | 21,54 | 2,93 | 0,84 | 19,68 | 23,40 | 16,5 | 26,0 |
| Uşaqlıq boynunun uzunluğu | Dar | 5 | 19,36 | 1,52 | 0,57 | 17,95 | 20,76 | 17,0 | 21,5 |
| | Normal | 7 | 24,00 | 1,27 | 0,57 | 22,42 | 25,58 | 22,5 | 25,5 |
| | Ümumi | 12 | 21,29 | 2,75 | 0,79 | 19,54 | 23,04 | 17,0 | 25,5 |
| Sol yumurtalığın uzunluğu | Dar | 5 | 38,93 | 6,41 | 2,42 | 33,00 | 44,86 | 30,0 | 48,5 |
| | Normal | 7 | 56,20 | 2,41 | 1,08 | 53,20 | 59,20 | 52,0 | 58,0 |
| | Ümumi | 12 | 46,13 | 10,18 | 2,94 | 39,66 | 52,59 | 30,0 | 58,0 |
| Sağ yumurtalığın uzunluğu | Dar | 5 | 41,43 | 6,67 | 2,52 | 35,26 | 47,60 | 32,0 | 51,5 |
| | Normal | 7 | 55,70 | 1,20 | 0,54 | 54,20 | 57,20 | 54,0 | 57,0 |
| | Ümumi | 12 | 47,38 | 8,88 | 2,56 | 41,73 | 53,02 | 32,0 | 57,0 |
| Sol yumurtalığın eni | Dar | 5 | 23,79 | 2,91 | 1,10 | 21,09 | 26,48 | 19,5 | 28,5 |
| | Normal | 7 | 29,80 | 2,71 | 1,21 | 26,44 | 33,16 | 25,0 | 31,5 |
| | Ümumi | 12 | 26,29 | 4,11 | 1,19 | 23,68 | 28,90 | 19,5 | 31,5 |
| Sağ yumurtalığın eni | Dar | 5 | 23,79 | 3,49 | 1,32 | 20,56 | 27,01 | 18,5 | 28,5 |
| | Normal | 7 | 32,00 | 1,37 | 0,61 | 30,30 | 33,70 | 30,0 | 33,5 |
| | Ümumi | 12 | 27,21 | 5,02 | 1,45 | 24,02 | 30,40 | 18,5 | 33,5 |
| Sol yumurtalığın qalınlığı | Dar | 5 | 16,21 | 1,75 | 0,66 | 14,59 | 17,84 | 13,5 | 19,0 |
| | Normal | 7 | 20,90 | 0,96 | 0,43 | 19,71 | 22,09 | 19,5 | 22,0 |
| | Ümumi | 12 | 18,17 | 2,80 | 0,81 | 16,39 | 19,94 | 13,5 | 22,0 |
| Sağ yumurtalığın qalınlığı | Dar | 5 | 16,86 | 1,41 | 0,53 | 15,56 | 18,16 | 14,5 | 18,5 |
| | Normal | 7 | 20,20 | 1,04 | 0,46 | 18,91 | 21,49 | 19,0 | 21,5 |
| | Ümumi | 12 | 18,25 | 2,11 | 0,61 | 16,91 | 19,59 | 14,5 | 21,5 |

əlamətlərin olduğunu təsdiq edir və bunun yaş aspekti baxımından artması müşahidə olunur.

**Maliyyə mənbəyi**: Yoxdur

**Maraqların toqquşması**: Yoxdur.

**Ədəbiyyat siyahısı.**

1.*Лазарев А.Ф., Костенко Ю.С.* Большие проблемы малого таза // Вестник травматологии и ортопедии имени Н.Н. Приорова. 2007; 4: 83-87

2. *Шмедык, Н.Ю.* Магнитно-резонансная пелвиометрия: диагностика риска клинически узкого таза и дистоции плечиков в конце третьего триместра беременности // Проблемы женского здоровья. 2014; 9(1): 44-51.

3. *Шмедык Н.Ю., Труфанов Г.Е., Фокин В.А. и др.* Магнитно-резонансная и наружная пельвиметрия в диагностике формы и степени суженного таза у беременных. Трансляционная медицина, 2016;3:113-124.

4. *Демарчук Е.Л.* Анатомо-антропологичес-кие особенности организма и размеры таза женщины на юношеском этапе онтогенеза: Автореф. Дис.…канд.мед.наук. Новосибир-ск, 2004; 19

5. *Хребтова О.М.* Размеры анатомически нормального и узкого таза у девушек и женщин разных конституциональных типов // Хирургия, морфология, лимфология. Бишкек, 2004; 1(1): 35-38.

6. *Сырова О.В.* Размерные характеристики и формы таза у девушек 17 -19 лет / Аспирантские чтение .Сб. науч. трудов. Саратов Изд-во СГМУ. 2008; 81-82.

7. *Чернуха Е. А., Волобуев А. И., Пучко Т. К.* Анатомически и клинически узкий таз. М., 2005; 256.

8. Iloki L.H., Koubaka R., Itoua C. et al. Teenage pregnancy and delivery. J. Gynecol. Obstet. Biol. Rep rod., 2004; 33(1): 37-42.

9. *Савельева Г.М., Сухих Г.Т., Серов В.Н.* Акушерство. Национальное руководство. Москва, Гэотар-Медиа, 2018; 1048.

10. *Гайворонский И.В., Бессонов Н.Ю., Ниаури Д.А.* Оригинальные подходы к изучению морфометрических характеристик плоскости выхода из малого таза у взрослых женщин // Журнал акушерства и женских болезней, 2012; 61(1): 20-25.

11. Gray's Anatomy: The Anatomical Basis of Clinical Practice (Ed. in chief: Susan Standring). 41st edition, 2015; 1562.

12. *Радзинский В.Е., Фукс А.М.* Акушерство. Москва: ГЭОТАР-Медиа, 2016; 1040.

# XRONİKİ HİPOKSİYA ZAMANI HİPOFİZ VƏ BÖYRƏKÜSTÜ VƏZİLƏRİN PATOHİSTOLOJİ XÜSUSİYYƏTLƏRİ

Yaqubova S.M.

*Azərbaycan Tibb Universiteti. Patoloji anatomiya kafedrası. Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019

***Əlaqə üçün məlumatlar:** Bakı, H.Zərdabi pr-ti 41, mənzil 52. E-mail: syagubova.71@gmail.com

Tədqiqatın məqsədi xroniki hipoksiya zamanı hipofiz və böyrəküstü vəzilərin toxuma strukturlarında (vəzi və stromal) baş verən morfofunksional dəyişikliklərin patogenetik və morfogenetik xüsusiyyətlərinin öyrənilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqat obyekti xroniki hipoksiya modeli yardılmış kütləsi 180-200 qram olan yetkin erkək ağ siçovulların hipofiz və böyrəküstü vəziləri olmuşdur. Tədqiqatın gedişində histoloji və morfometrik müayinə metodlarından istifadə edilmişdir.

Tədqiqatın nəticələri. Uzunmüddətli hipoksiyaya hipofizin və böyrəküstü vəzilərin hüceyrələri, damarları və birləşdirici toxuma strukturları müxtəlif morfo-struktur dəyişikliklərlə cavab verir. Toxumalarda baş verən morfoloji dəyişikliklər hər iki vəzidə müxtəlif olub, onların morfo-funksional xüsusiyyətlərindən, eləcə də hipoksiyaya (təsirinə) həssaslıq dərəcəsindən asılıdır.Vəzilərin morfoloji tədqiqi zamanı təcrübə qruplarında hipoksiyadan sonrakı bərpa dövrü – vəzilərin strukturunun yenidənqurulması – bütün toxumalarının bərpa olunması böyrəküstü vəzidə təcrübənin 15-ci, hipofizdə isə 30-cu günü müşahidə edilmişdir.

Yekun olaraq qeyd etmək lazımdır ki, hipoksiyanın təsiri ilə hipofiz və böyrəküstü vəzilərin hüceyələrində müxtəlif struktur dəyişikliklər əmələ gəlməsinə baxmayaraq, bu vəzilər orqanizmin hipoksiyaya qarşı kompensator-adaptasiya proseslərinin formalaşmasında mühüm rol oynayır. Hipofiz böyrəküstü vəzi ilə müqayisədə endogen və ekzogen faktorların təsirinə daha erkən və daha çox məruz qaldığı üçün, hipofizdə distrofik və destruktiv dəyişikliklər daha qabarıq özünü büruzə verir.

*Açar sözlər: Hipofiz, böyrəküstü vəzi, xroniki hipoksiya, struktur*

# PATHOHYSTOLOGICAL FEATURES OF THE PITUITARY AND ADRENAL GLANDS DURING THE CHRONIC HYPOXIA

Yagubova S.M.

*Azerbaijan Medical University. Department of Pathological Anatomy, Baku, Azerbaijan*

Publication date: December 2019

*Contact information: Baku, H.Zardabi prospekti 41, apartment 52; e-mail: syagubova.71@gmail.com

The purpose of the study was to investigate the pathogenetic and morphogenetic features of morphofunctional changes in tissue structures (glandular and stromal) of the pituitary and adrenal glands during the chronic hypoxia.

Materials and methods of the study. The object of the study was the pituitary and adrenal glands of adult male white rats with a mass of 180-200 grams with a chronic hypoxia model. In the course of the study, histological and morphometric methods were used.

Results of the study. To prolonged hypoxia, cells, vessels and connective tissue structures of the pituitary and adrenal glands respond with various structural changes. Morphological changes in tissues are different in both glands, depending on their morphofunctional properties, as well as the degree of hypersensitivity to hypoxia. During the morphological study of the glands, the recovery period after the hypoxia in the experimental groups – reconstruction of the structure of the glands-restoration of all tissues of the adrenal gland was observed on the 15th day of the experiment and on the 30th day in the pituitary.

Conclusions. it should be noted that despite the fact that under the influence of hypoxia, various structural changes occur in the cells of the pituitary and adrenal glands, these glands play an important role in the formation of compensatory-adaptive processes of the body against the hypoxia. Since the pituitary gland is early and more susceptible to endogenous and exogenous factors compared to the adrenal glands, the pituitary gland manifests more pronounced dystrophic and destructive changes.

*Keywords: Pituitary gland, adrenal gland, chronic hypoxia, structure*

**Giriş.** Canlı orqanizm öz həyat fəaliyyətində istər xarici, istərsə də daxili mühitin müxtəlif biotik və abiotik faktorlarının təsirinə daim məruz qalır. Bu faktorlar qıcıqlandırıcılar kimi təsir göstərərək, orqanizmdə bir sıra morfofunksional dəyişikliklər törədir. Orqanizmin müxtəlif orqan və sistemlərinə geniş spektrli hormonal təsir edən daxili sekresiya vəziləri, xüsusilə də hipofiz və böyrəküstü vəzilər orqanizmin müxtəlif qıcıqlandırıcılara, dəyişkən xarici mühit faktorlarına, o cümlədən hipoksiyaya qarşı kompensator-adaptasiya reaksiyalarının formalaşmasında nühüm rol oynayır [1,2]. Müxtəlif mənşəli hipoksiyalar əsas stress faktorlarından olub, orqanizmin bütün sistemlərinə (sinir sistemi, tənəffüs sistemi və s.), o cümlədən, endokrin və immun sis-temi orqanlarına sistemli təsir göstərir [3,4].

Ədəbiyyat məlumatlarının təhlili göstərir ki, kəskin hipoksiyanın təsiri ilə orqanizmin orqan və toxumalarında müxtəlif xarakterli morfoloji dəyişikliklər baş verir, xroniki hipoksiya isə baş verən morfoloji dəyişiklik-lərin ilkin kompensator-uyğunlaşma reaksiya-larını təmin edir, bu reaksiyaların effektivliyi isə toxuma hipoksiyasının dərəcəsini müəyyən edir. Müəlliflərin fikrincə xroniki adaptasiya

kəskin adaptasiyanın dəfələrlə təkrarlanması nəticəsində orqanizmdə baş verən struktur yenidənqurmadır [5,6]. Uzunmüddətli adaptasi -ya prosesində orqanın çəkisi artır, hüceyrə daxilində oksigenin, qidalı və bioloji aktiv maddələrin nəqli güclənir, dominant funksional sistemin formalaşması başa çatır, adaptasiyaya cavabdeh olan bütün orqanlarda spesifik morfoloji dəyişikliklər müşahidə olunur [7].

Bu baxımdan orqanizmdə endokrin sistemi orqanlarının, xüsusən də hipofiz və böyrəküstü vəzilərin müxtəlif mənşəli hipoksiyalara qarşı adaptasiyasının xüsusiyyətləri, bu zaman orqanların toxuma strukturunda baş verən dəyişikliklərin morfoloji cəhətdən öyrənilməsinə həsr olunmuş elmi tədqiqatların aparılması zəruridir.

**Tədqiqatın məqsədi** xroniki hipoksiya zamanı hipofiz və böyrəküstü vəzilərin toxuma strukturlarında (vəzi və stromal) baş verən morfofunksional dəyişikliklərin patogenetik və morfogenetik xüsusiyyətlərinin öyrənilməsi olmuşdur.

**Tədqiqatın material və metodları.** Tədqiqatın gedişində 180-200 qram çəkiyə malik sağlam yetkin erkək ağ siçovullardan istifadə edilmişdir. Heyvanlar üzərində tədqiqat 21.04.2008-ci il tarixdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən Etik Qaydalar komissiyası-nın və bioetika komitəsinin 31 №-li protokolundakı etik qaydalara uyğun olaraq ATU-nun Elmi-Tədqiqat Mərkəzinin Farmako-logiya və Eksperimental Cərrahiyyə şöbələ-rində aparılmışdır.

Hipobarik barokamera hipoksiyasının təsirinin öyrənilməsi məqsədilə heyvanlar kontrol və təcrübə qruplarına ayrılmışdır. Kontrol qrupu heyvanlarına müdaxilə edilməmiş, II qrup təcrübə heyvanları üzərində isə gündüz saatlarında (10-15 radələrində) eksperiment aparılmışdır. Heyvanlar hər gün, həftədə 5 dəfə, hər dəfə 2 saat olmaqla havalanması təmin edilmiş xüsusi barokamerada saxlanılmış və onlar üzərində xroniki hipoksiya modeli yaradılmışdır. Barokamerada temperatur 19-20ºC, atmosfer təzyiqi isə dəniz səviyyəsindən 2-3 km hündürlükdəki təzyiqə bərabər olmuş, tənəffüs üçün karbon qazından ($CO_2$) istifadə edilmişdir. $CO_2$ – ($Ca(OH)_2$ 81%+NaOH 3,4% +$H_2O$ 15,6%) qarışıqlarının kimyəvi birləşmələrinin çevrilmələrindən alınmışdır. Barokameradan çıxarılmış heyvanlar su və qida ilə təmin edilmiş və standart vivarium şəraitində nəzarət altında saxlanılmışdır.

Eksperimentin 15-ci və 30-cu günü xroniki hipoksiyanın təsirinə məruz qalan sağ qalmış heyvanların periton boşluğuna 2-2,5%-li teopental-natrium məhlulu (100mq/kq olmaq şərtilə) yeridilməklə, intraperitoneal anesteziya aparılmışdır. Dekapitasiya edilmiş heyvanların hipofiz və böyrəküstü vəzilərindən histoloji və morfometrik müayinə üçün preparatlar götürülmüşdür. Preparatlar makroskopik qiymətləndirildikdən sonra fraqmentlər şəklində fiksasiya və iki saat ərzində postfiksasiya edilmişdir. Kəsiklər hematoksilin-eozin və PAS boyağı ilə rənglənmiş, Kanada balzamı vasitəsilə örtük şüşələri ilə örtülmüşdür. Mikroskopik müayinə x8, x20 və x40 böyütmə altında aparılmışdır. Hipofiz və böyrəküstü vəzilərin struktur elementlərinin mikrofotoqrafiyası «Olympus BX-41» mikroskopunun rəqəmsal fotokamera sistemi ilə çəkilmiş, morfometrik göstəricilər isə Statistica 10 (StatSoft. Inc.) kompyüter proqramı ilə hesablanmışdır (kontrol qrupu ilə W – Wilcoxon test (paired samples) üzrə statistik işləmə aparılmışdır).

**Tədqiqatın nəticələri və onların müzakirəsi.** Makroskopik olaraq kontrol qrupu heyvanlarının hipofiz vəzisi kəllə əsasının orta çüxurunda, əsas sümüyü cisminin yuxarı səthindəki türk yəhərində hipofizə məxsus çüxurda, böyrəküstü vəziləri isə peritonarxası sahədə, böyrəklərin yuxarı qütbləri üzərində, diafraqmanın altında aydın görünür. Heyvanların hipofiz və böyrəküstü vəzilərindən hazırlanmış histoloji preparatlarda vəziləri xaric -

dən əhatə edən sıx birləşdirici toxumadan ibarət olan kapsul, kapsuldan vəzinin daxilinə doğru gedən nazik atmalar vizual olaraq aydın görünür.

Kontrol qrupu heyvanlarının hipofiz vəzisinin strukturu kompakt və salxım şəklində olub, hüceyrələri – adenositləri sinusoid kapillyarlar və nazik birləşdirici toxuma arakəsmələri vasitəsilə ayrılmışdır. Vəzinin parenxima hüceyrələri olan asidofil, bazofil və xromofob adenositlər qeyri-bərbər yerləşir və bu hüceyrələrin sərhəddini bir-birindən, xüsusilə də xromofobların sərhəddini digər hüceyrələrdən ayırmaq çox çətindir. Vəzinin əsas kütləsinin 60-70%-ni təşkil edən xromofob hüceyrələr (61,8%±0,5) qruplar halında trabekulun mərkəzində, boyaqlarla intensiv boyanan sekretor dənəcikləri (qranulaları) olan asidofil adenositlər isə trabekulların periferik hissəsinin sitoplazmasında yerləşir. Asidofil hüceyrələri bazofil adenositlər əhatə edir. Asidofil (29,0%±0,4) və bazofil hüceyrələrin (9,2%±0,3) sayı xromofob hüceyrələrlə müqayisədə çox azdır. Belə ki, asidofil adenositlər hipofizin ön hissəsinin bütün hüceyrələrinin 30-35%-ni, bazofil adenositlər isə 4-10%-ni təşkil edir (cədvəl 1).

boyanır. Asidofil və bazofil hüceyrələr nisbətən az sayda və kiçik ölçüdə, xromofob adenositlər isə böyük ölçüdə, sitoplazmasında çəhrayı rəngli iri dənələri və mərkəzdə yerləşmiş parlaq girdə nüvələri, habelə PAS – boyağı ilə pozitiv boyanmış sinusoid kapillyarları aydın nəzərə çarpır (şəkil1).

Xromofob adenositlər müxtəlif quruluşlu və müxtəlif differensasiya mərhələlərində olan kambial, spesifik dənəvərlik əldə etməmiş və sekret ifraz edən hüceyrələrdən təşkil olunmuşdur. Asidofil və bazofil adenositlər bu kambial hüceyrələrdən inkişaf edir, asidofil adenositlərin somatotroposit, laktotroposit və kortikotroposit, bazofil adenositlərin isə qonadotroposit və tirotroposit növləri ayırd edilir.

Xromofob adenositlər müxtəlif quruluşlu və müxtəlif differensasiya mərhələlərində olan kambial, spesifik dənəvərlik əldə etməmiş və sekret ifraz edən hüceyrələrdən təşkil olunmuşdur. Asidofil və bazofil adenositlər bu kambial hüceyrələrdən inkişaf edir, asidofil adenositlərin somatotroposit, laktotroposit və kortikotroposit, bazofil adenositlərin isə qonadotroposit və tirotroposit növləri ayırd edilir.

Cədvəl 1.


Normada və xroniki hipoksiya zamanı hipofiz vəzinin hüceyrələrinin morfometrik göstəriciləri

| | Hüceyrələrin sayı (standart sahədə %-lə) | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Asidofil hüceyrələr (Max±min) | | | Bazofil hüceyrələr (Max±min) | | | Xromofob hüceyrələr (Max±min) | | |
| | N | Eksperimentin müddəti (günlərlə) | | N | Eksperimentin müddəti (günlərlə) | | N | Eksperimentin müddəti (günlərlə) | |
| | | 15-ci gün | 30-cu gün | | 15-ci gün | 30-cu gün | | 15-ci gün | 30-cu gün |
| n | 10 | 10 | 10 | 10 | 10 | 10 | 10 | 10 | 10 |
| M±*m* | 29,0±0,4 | 28,5±0,5 | 28,7±0,4 | 9,2±0,3 | 13,3±0,2 | 12,7±0,2 | 61,8±0,5 | 58,2±0,6 | 58,6±0,5 |
| Min -max | 27-31 | 27-31 | 27-31 | 8-11 | 12-14 | 12-14 | 60-64 | 55-61 | 56-61 |

**Qeyd: N – kontrol qrup; n – heyvanların sayı; M±m: M – variasiyanın orta göstəricisi, m – standart xəta.*

Histoloji preparatlarda adenositlər, əsasən poliqonal formaya malik olub, sitoplazması və nüvəsi hematoksilin-eozinlə solğun

Kontrol qrupu heyvanlarının böyrəküstü vəzilərindən alınmış və hematoksilin-eozinlə boyanmış histoloji preparatlarda qabıq maddə-




Şəkil 1. Kontrol qrupu: Hipofiz (A) və böyrəküstü (B) vəzilərin normal histoloji mənzərəsi. Boyaq: PAS x20.

nin adenositlərinin ölçülərinə görə fərqlənən yumaqcıqlı, dəstəli və torlu zonaları aydın görünür. Belə ki, torlu zonanın hüceyrələri yumaqcıqlı və dəstəli zonanın hüceyrələrinə nisbətən kiçik ölçülərə malikdir (cədvəl 2).

zonanın sitoplazması hematoksilin-eozinlə bərabər boyanır və sitoplazmada az sayda piy damlaları nəzərə çarpır. Qabıq maddənin əsas hissəsini təşkil edən orta dəstəli zonanın hüceyrələri – spongiositlər vəzin səthinə

Cədvəl 2.

Normada və xroniki hipoksiya zamanı böyrəküstü vəzinin hüceyrələrinin morfometrik göstəriciləri (M±m)

| | Hüceyrələrin sayı (standart sahədə %-lə) | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Yumaqcıqlı zona hüceyrələri (Max±min) | | | Dəstəli zona hüceyrələri (Max±min) | | | Torlu zona hüceyrələri (Max±min) | | | Beyin maddə hüceyrələri (Max±min) | | |
| | N | Eksperimentin müddəti (günlərlə) | | N | Eksperimentin müddəti (günlərlə) | | N | Eksperimentin müddəti (günlərlə) | | N | Eksperimentin müddəti (günlərlə) | |
| | | 15-ci gün | 30-cu gün | | 15-ci gün | 30-cu gün | | 15-ci gün | 30-cu gün | | 15-ci gün | 30-cu gün |
| n | 10 | 10 | 10 | 10 | 10 | 10 | 10 | 10 | 10 | 10 | 10 | 10 |
| M±m | 31,2± 0,47 | 31,7± 0,42 | 31,4± 0,46 | 30,4± 0,46 | 31,0± 0,46 | 30,6± 0,43 | 38,4± 0,38 | 37,3± 0,34 | 38,1± 0,35 | 28,9± 1,01 | 29,6± 1,08 | 29,1± 1,07 |
| Min-max | 28,6-33,8 | 29,3-34,0 | 28,8-33,9 | 28,5-32,0 | 29,1-32,9 | 28,8-32,2 | 35,6-39,6 | 35,3-38,7 | 35,6-39,2 | 23,5-34,3 | 24,9-35,7 | 23,6-34,9 |

**Qeyd: N – kontrol qrup; n – heyvanların sayı; M±m: M – variasiyanın orta göstəricisi, m – standart xəta.*

Xarici yumaqcıqlı zonanın hüceyrələri tağlar formasında olub, bir-birindən kapillyarlar vasitəsilə ayrılır və mikroskopda qruplar – «yumaqcıqlar» şəklində görünür. Bu

perpendikulyar istiqamətdə yerləşir və PAS – boyağı ilə boyanmır (şəkil1). Dəstəli zonanın oksifil vakuollaşmış spongiositləri radial istiqamətdə atmalar – «dəstələr» əmələ gətirir,

atmaların arasında isə sinusoid kapillyarlar aydın görünür. Bu zonanın şəffaf sitoplazmasında vəzinin yumaqcıqlı və torlu zonalarına nisbətən çoxlu miqdarda lipid damlaları, az miqdarda isə qlikoqen dənələri qeyd edilir. Daxili torlu zonada kiçik ölçülü «tutqun» və «açıq» adrenositlər bir-birini əvəz edir, eyni zamanda onlar arasında apoptoza uğramış hüceyrələr də nəzərə çarpır. Hüceyrələr arasında müxtəlif istiqamətlərə doğru gedən və öz aralarında anastomozlar əmələ gətirən epitel atmalarından təşkil olunmuş kapillyarlar yerləşir.


Böyrəküstü vəzinin qabıq maddəsinin torlu zonası ilə beyin maddəsi arasında nazik birləşdirici toxuma təbəqəsi vardır. Bu təbəqə vəzi əhatə edən birləşdirici toxumadan vəzinin dərinliyinə doğru istiqamətlənir və vəzin səthinə perpendikulyar istiqamətdə yerləşir. Beyin maddənin adrenositləri xromaffin, qanqlioz və dayaq hüceyrələrindən ibarət olub, mikroskopla müayinə zamanı sitoplazması xırdadənəli, vakuollaşmış, nüvəsi isə böyük ölçüdə və poliqonal formada görünür və solğun boyanır. Qanqlioz və dayaq hüceyrələri az sayda, xromaffin hüceyrələr isə beyin maddənin əsas hissəsini təşkil edir. Dayaq hüceyrələri «çıxıntılar» formasında olub, xromaffin hüceyrələrin «yuvacıqlar»ını əhatə edir.

Mikroskopik müayinədə böyrəküstü vəzinin stromasını əmələ gətirən birləşdirici toxuma elementləri zəif, kapillyarlar isə aydın nəzərə çarpır. Beyin maddədə sinusoid kapillyarların mənfəzi qabıq maddənin kapillyarlarına nisbətən geniş olub, adrenositləri əhatə edir və sıx kələflər əmələ gətirirlər.

Eksperimentdən 15 gün sonra aparılan müayinələr zamanı xroniki hipobarik hipoksiya modeli yaradılmış heyvanların hipofiz və böyrəküstü vəzilərinin ümumi histoarxitektonikasının saxlanılması şərtilə müəyyən distrofik-dezorqanizasion xarakterli struktur dəyişikliklərin olması qeyd edilir. Vəzi toxuma-larından alınmış histoloji preparatlarda hüceyrə strukturlarının patohistoloji mənzərəsində vizual-makroskopik və mikroskopik baxımdan ciddi dəyişikliklərin olmaması kompensator-adaptasiya proseslərinin sürətlənməsi, reparativ-regenerasiyanın inkişaf etməsi ilə xarakterizə olunur.

Makroskopik olaraq hipofiz və böyrəküstü vəzilərin rəngi bərpa olunmuş, konsistensiyası sərt-yumşaq, kapsulu qalınlaşmışdır, deformasiyasızdır, bəzi hissələrində isə büküşlər nəzərə çarpır. Hipofiz vəzinin hissələri, eləcə də böyrəküstü vəzinin qabıq və beyin maddələri arasında sərhəd tam olmasa da, vizual olaraq görünür. Lakin qabıq maddə beyin maddəyə nisbətən tünddür.

Tədqiqatın 15-ci günü işıq mikroskopunda hipofizin adenositlərinin strukturunda qabarıq dəyişikliklər aşkar edilmir, normofil boyanma xüsusiyyətləri zəif nəzərə çarpır, lakin vakuol-hidropik distrofiya əlamətləri qeyd edilir. Xromofob adenositlərin sitoplazması dənəvərlidir, sekretor dənələrlə dolmuşdur, nüvələri mərkəzdən kənarda yerləşir. Asidofil adenositlərin sitoplazması solğun çəhrayı, nüvələri açıq rəngli və zəif şişkindir, bəzi yerlərdə piknotik nüvələrə də rast gəlinir. Bazofil adenositlərin sitoplazması isə göyümtül, nüvələri hiperxrom və dənəvərlidir, hipertrofiya əlamətləri nəzərə çarpır. Hematoksilin-eozinlə boyanmış histoloji preparatlarda vəzi parenximasının bəzi yerlərində kariopiknozla təzahür edən adenositlər və karioreksis müşahidə edilir, hiperemik ocaqlar, limfoplazmasitar və histosit-makrofaqlar nəzərə çarpır, lakin bunlar fokal xarakter daşıyır (şəkil 2). Mikroskopik olaraq vəzinin stromasının birləşdirici toxuma elementləri nisbətən ödemli və kövşəkdir, lifli strukturlar birləşərək, müxtəlif formalı ilgəklər əmələ gətirirlər. Kiçik sahələrdə perivaskulyar və interstisial ödem, diapedez qanaxmalar qeyd edilir. Bununla belə stromada az da olsa fibroblastların sayının artdığını və fibroz toxumanın inkişaf etdiyini izləmək mümkündür.




Şəkil 2. Hipoksiya modelinin 15-ci günü. Hipofiz (A) və böyrəküstü (B) vəzilərin histotoloji mənzərəsi.


Mikroskopik müayinə zamanı vəzi hüceyrələrini əhatə edən sinusoid kapillyarlarda zəif distrofik dəyişikliklər müşahidə edilir. Belə ki, kapillyarların divarları qalın və qıvrımdır, mənfəzi genişlənmiş və doluqanlıdır, PAS – boyağı ilə müsbət boyanır.

Təcrübə qoyulduqdan 15 gün sonra böyrəküstü vəzinin toxumalarının morfohistoloji quruluşu normaya uyğun olsa da, bəzi adrenositlərdə zəif struktur dəyişikliklərin müşahidə edilməsi vəzi hüceyrələrinin tam bərpa olunmadığını, kompensator-adaptasion proses-lərin bütünlüklə baş vermədiyini göstərir. Mikroskopik olaraq qabıq maddənin adreno-kortikositlərinin sitoplazması zəif eozinofilli, beyin maddənin sitoplazması isə köpüklü olub, zəif perivaskulyar və perisellyülyar ödem qeyd edilir. Yumaqcıqlı və torlu zonaların sitoplazması solğun boyanır ki, bu da sitoplazmada zəif vakuollaşmış dənələrin hələ də aşkar edilməsi ilə izah olunur (şəkil 2).

Xroniki hipoksiyanın 15-ci günü hematoksilin-eozinlə boyanmış preparatlarda vəzinin stromasının lifli strukturlarında birləşdirici toxumanın normal quruluşunu xarakterizə edən əlamətlər qeyd edilir. Bununla yanaşı, zəif də olsa destruksiya olunmuş kollagen və retikulin liflər aşkar edilir, lokanik olaraq meta -xromaziya əlamətləri qeyd edilir, lakin diapedez qanaxmalar və hiperemik ocaqlar nəzərə çarpmır. Mikroskopik olaraq sinusoid kapillyarlar, xüsusilə də qabıq maddənin yumaqcıqlı və dəstəli zonalarında kapillyarlar diametrinə və divarlarının quruluşuna görə normal kapillyarlardan fərqlənmir. Lakin bəzi histoloji preparatlarda kapillyarların mənfəzi geniş, konturları aydın nəzərə çarpmır.

Xroniki hipoksiya modeli yaradıldıqdan 30 gün sonra heyvanların hipofiz və böyrəküstü vəzilərinin biopsiya nümunələrinin təhlili göstərir ki, vəzi hüceyrələri yeni şəraitə uyğunlaşaraq, öz normal morfoloji quruluşunu və ölçülərini bərpa etmiş, morfometrik göstəricilər stabilləşmiş və bəzi göstəricilər kontrol qrupuna yaxın qeydə alınmışdır (cəd.1,2), vəzinin strukturunu – parenximasını və stromasını təşkil edən toxumaların yenidənqurulması baş vermişdir. Bu bərpa prosesi hipofizlə müqayisədə böyrəküstü vəzidə daha qabarıq nəzərə çarpır.

Tədqiqatın 30-cu günü makroskopik olaraq hipofiz və böyrəküstü vəzilərin rəngi və konsistensiyası, onları xaricdən əhatə edən birləşdirici toxuma kapsulu tam bərpa olunmuşdur. Böyrəküstü vəzinin qabıq və beyin maddələri, hipofizin hissələri normal quruluşu ilə diqqəti cəlb edir, vəzilərin toxuma strukturları adi görünüşdədir (şəkil 3).




Şəkil 3. Hipoksiya modelinin 30-cu günü. Hipofiz (A) və böyrəküstü (B) vəzilərin histotoloji

Təcrübə qoyulduqdan 30 gün sonra aparılan mikroskopik müayinə zamanı hipofizin hüceyrələrinin zədələnməsi izlənilmir, adenositləri bir-birinə sıx yerləşir, şəffaf sitoplazması, eləcə də sitoplazmanın mərkəzində yerləşən açıq rəngli nüvələri hematoksilin-eozinlə müsbət boyanır. Bəzi hüceyrələrin sitoplazmasında vakuol boşluqları, kiçik də olsa qansızma sahələri və hiperemiya aşkar edilir. Lifli karkasın formalaşması daha nizamlı bir vəziyyətdə gedir. Belə ki, lifli dəstələr kifayət qədər kompakt və qalın olmasına baxmayaraq, kobud xaotik istiqamətdə yerləşməmişdir. Lakin eksperimentin sonunda vəzi hüceyrələrində piy distrofiyasının olması, bəzi kapillyarlarda mikrotromboz və eritrostaz əlamətlərinin aşkar edilməsi hipofizin struktur quruluşunun tam bərpa olunmadığını göstərir.

Hipoksik təsirin 30-cu günü histoloji pre-paratlarda böyrəküstü vəzilərin qabıq və beyin maddələrinin hüceyrələri öz normal quruluşunu bərpa etmişdir. Belə ki, işıq mikroskopunda yumaqcıqlı zonanın «yumaqcıqlar»ı, dəstəli zonanın «dəstələri», xromaffin hüceyrələrin «yuvacıqlar»ı, dayaq hüceyrələrinin isə «çıxıntılar»ı aydın görünür. Vəzin həm qabıq, həm də beyin maddələrinin sitoplazması şəffaf, nüvələri girdə və açıq rəngli olub, sitoplazmanın mərkəzində yerləşir və hematoksilin-eozinlə boyanır (şək.3). Histoloji nümunələrdə vəzin adrenositləri arasında birləşdirici toxumanın artıb çoxalması, fibroblastların, retikulyar və kollagen liflərin bərpası, fibroz toxumanın inkişafı interstisial ödem əlamətlərinin olmaması ilə izah olunur. Əksər görmə sahələrində vəzin stromasında adrenositlərin ətrafında aydın konturlara malik damarlar üstünlük təşkil edir, kapillyarların divarları izlənilir, parenximasında kapillyarlar sıx kələflər əmələ gətirir, plazmorragiya, hiperemiya və diapedez qanaxmalar nəzərə çarpmır.

**Yekun.** Beləliklə, tədqiqatların nəticələri göstərdi ki, orqanizmin bütün hüceyrələrinin bazal metabolizminin səviyyəsini tənzimləyən neyroendokrin sistemin əsas orqanlarından olan hipofiz və böyrəküstü vəzilər hipoksiyaya qarşı kompensator-adaptasiya proseslərinin formalaşmasında mühüm rol oynayır. Uzunmüddətli hipoksiyaya vəzi hüceyrələri, damarları və birləşdirici toxuma strukturları müxtəlif morfo-struktur dəyişikliklərlə cavab verir. Toxumalarda baş verən bu spesifik morfoloji dəyişikliklər hər iki vəzidə müxtəlif olub, onların morfo-funksional xüsusiyyətlərindən,

eləcə də hipoksiyaya (təsirinə) həssaslıq dərəcəsindən asılıdır. Hipofiz böyrəküstü vəzi ilə müqayisədə endogen və ekzogen faktorların təsirinə daha erkən və daha çox məruz qaldığı üçün, hipofizdə distrofik və destruktiv dəyişikliklər daha qabarıq özünü büruzə verir.

Belə ki, təcrübə qruplarında hipoksiyadan sonrakı bərpa dövrü – vəzilərin strukturunun yenidənqurulması – bütün toxumalarının bərpa olunması böyrəküstü vəzidə təcrübənin 15-ci, hipofizdə isə 30-cu günü başa çatır. Bu isə böyrəküstü vəzinin hüceyrələrinin – adrenositlərin proliferasiyası və differensasiyası nəticəsində regenerasiya proseslərinin surətlənməsi, hipoksiyaya daha erkən adaptasiyası ilə izah olunur.

**Maliyyə mənbəyi**: Yoxdur
**Maraqların toqquşması**: Yoxdur.

**Ədəbiyyat siyahısı.**

1.*Калюжная Л.И.* Эндокринные механизмы адаптации организма к условиям гипоксии высокогорья. Гипоксия. Адаптация. Патогенез. Клиника / Л.И. Калюжная, СПб: 2000; 235-265.

2. *Колчинская А.З., Абазова З.Х., Кумыков В.К., Хацуков Б.Х.* Основные вехи развития науки о гипоксии // Патолог. физиол. и экспер. Терапия, 2002; 3: 52-54.

3. *Слынько Т.Н.* Морфофункциональные изменения в надпочечниках на поздние сроки после месячного пребывания в высокогорье Кыргызстана / Т. Н. Слынько // Евразийский союз ученых. 2016; 32: 15-19.

4. *Балыкин М.В., Тарарак Т.Я., Рогозина О.В.* и др. Морфофункциональная гетерогенность и гетерохронность адаптации внутренних органов при прерывистой гипобарической гипоксии / IV съезд физиологов Сибири: Тезисы докладов. Новосибирск, 2002; 26.

5. *Зеркалова Ю.Ф.* Морфофункциональные изменения некоторых эндокринных желез при гипоксии различного генеза. Автореф. дисс... к.м.н. Ульяновск, 2004; 24.

6. *Калдышева Е.В.* Структурная организация коры надпочечников крыс при гипоксических воздействиях. Автореферат дисс. ...к.м.н.- Новосибирск, 1997; 28.

7. *Gosney J. R.* Adrenal corticomedullary hyperplasia in hypobaric hypoxia // The Journal of pathology. 1985; 146(1): 59-64.

## ТОПОГРАФИЧЕСКИЕ ОСОБЕННОСТИ ВЕРХНЕЙ ГЛАЗНИЧНОЙ ЩЕЛИ НОВОРОЖДЕННЫХ И ПОДРОСТКОВ

Абдуллаева Г.М., Мамедова А.Дж.

*Азербайджанский медицинский университет Кафедра Анатомии человека и медицинской терминологии. Баку, Азербайджан*

**Дата публикации:** Декабрь 2019

***Контактная информация***:* г.Баку, ул. Самеда Вургуна 163; email: getibe8100@ mail.ru

Цель исследования*:* Целью настоящего исследования является изучение морфометрических показателей верхней глазничной щели новорожденных и подростков.

Материал и методы исследования. Материалом послужили 70 черепов (30 новорожденных, 40 подростков) людей обоего пола, хранящиеся в музейной коллекции кафедры анатомии человека и медицинской терминологии Азербайджанского Медицинского Университета. В работе использовались краниометрические, краниоскопические, рентгенологические методы и метод распилов по Пирогову.

Результаты: Как показывают полученные данные у новорожденных верхняя глазничная щель бывает шире, смещена медиально и назад, у подростков ширина уменьшается, и занимает более высокое положение над ушно-глазничной горизонталью.

Заключение: Таким образом можно прийти к выводу, что верхние глазничные щели на протяжении детского возраста не растут в ширину, но высота щелей существенно увеличивается и достигает окончательных значе-

ний только в 13-16 лет.

*Ключевые слова: Краниометрия, верхняя глазничная щель, различные возрасты.*

# THE TOPOGRAPHY FEATURES OF THE SUPERIOR ORBITAL FISSURE IN NEWBORNS AND ADOLESCENTS

Abdullayeva Q.M., Mamedova A.J.
*Azerbaijan Medical University. Department of Human Anatomy and Medical Terminology, Baku, Azerbaijan*

Publication date: December 2019

*Contact information: Baku, S. Vurgun street 163; e-mail: getibe8100@ mail.ru

Purpose of the study. The aim of this work was to study the craniometric characteristic of the skull and topography of the superior orbital fissure.
Materials and methods. Investigation material has been 70 skulls (30 newborns, 40 adolescents) from both sex, which is kept in museum collection of the department human anatomy and medical terminology of the Azerbaijan Medical University. In this work were used these methods: cranioscopic, roentgenology and cutting the skull by Pirogovs way.
Results**:** At newborns the superior orbital fissure is wider, at adolecents the width is decreased. Right superior orbital fissure settles in comparsoin to the left superior orbital fissure medially and back ward and is localtied higher above auriculoorbital horizontal.
Conclusions**:** lu conclusion, in childhood superoir orbital fissure doesnt grow in with, but it is the determinate height increases and reaches sizes at age of 13-16 years.

*Keywords: Craniometry, superior orbital fissure, some age features.*

**Введение:** Верхняя глазничная щель образована телом клиновидной кости и ее крыльями, соединяет глазницу со средней черепной ямкой затянута тонкой соединительнотканной пленкой, через которую в глазницу проходят три основные ветви глазничного нерва-слезный, носоресничный и лобный нервы, а также стволы блокового, отводящего и глазодвигательного нервов. Через эту щель ее покидает верхняя глазничная вена [3,4,5]. При повреждениях этой области развивается характерный симптомокомплекс; полная офтальмоплегия, т.е. обездвиженность глазного яблока, снижение тактильной чувствительности роговицы и кожи век, расширение вен сетчатки и небольшого экзофталма. Однако «синдром верхней глазничной щели» может быть выражен не полностью, когда повреждены не все, а лишь отдельные нервные стволы, проходящие через эту щель. Поэтому в настоящее время морфологические показатели черепа и различные варианты щелей и отверстий находятся в сфере интересов морфологов, пластических хирургов и физиологов [1,2,6,7]. Существенный интерес к пластическим операциям на лице обусловлен возрастной и топографоанатомической значимостью этих анатомических образований. В литературе [8,9,10], как показывает анализ научной литературы различные варианты ветвлений сосудов и нервов в связи с морфометрическими показателями и топографией верхней глазничной щели в возрастном отношении изучены недостаточно.

**Материал и методы исследования:** Материалом послужили 70 черепов (30 новорожденных, 40 подростков) людей обоего пола, хранящиеся в музейной коллекции кафедры Анатомии человека и медицинской терминологии Азербайджанского


медицинского университета. В работе использовались краниометрические, краниоскопические, рентгенологические методы и метод распилов по Пирогову.

Результаты исследования и их обсуждение. Особенности топографии верхней глазничной щели в которых залегают нервы, исследовались на мацерированных черепах. Длина верхней глазничной щели зависит от архитектоники клиновидной кости и формы черепа. При широкой и короткой форме верхняя глазничная щель занимает более низкое положение, при узкой и длинной форме более высокое. На изученных черепах были проведены измерения длины верхней глазничной щели. Для установления определенных соотношений между длиной щели и общими показателями размеров глазницы был проведен ряд измерений.

Как показывают полученные данные верхняя глазничная щель в 90% случаев имела неодинаковую форму и размеры справа и слева (рисунок).

шире, передне-латеральной стороны уже. В некоторых наблюдениях встречались цилиндрические и пирамидальные формы верхней глазничной щели. Длина щели различна с обоих сторон в различных группах черепов на 0,3-1,4мм, а ее на и большая высота на 0,6-1,1мм. Отношение щели к срединной плоскости характеризуется преобладанием абсцисс ее медиальной и латеральной точек также преобладают слева. Абсолютная диссимметрия абсцисс медиальных точек верхней глазничной щели равна у новорожденных 1,2-2,0мм;у подростков 1,9-2,8мм, абсолютная дисимметрия ординат латеральных точек равна у новорожденных 1,7 мм, у подростков 2,0мм. Аппликаторы обеих точек верхней глазничной щели имеют большие величины на правой стороне абсолютная величина их дисимметрии составляет у медиальной точки 0,4-1,5мм; у латеральной 0,7-1,3мм (таблица).

У новорожденных верхняя глазничная щель бывает шире, у подростков ширина уменьшается. Как показывают данные правая глазничная щель смещена по отно-



A B

Рис. Различные формы верхней глазничной щели.
А) новорожденный; В) подросток

При исследованных черепах верхняя глазничная щель заднемедиальной стороны

Таблица

Показатели координатов верхней глазничной щели (в мм).

| Абецисс | | | | | | | | Ординат | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Мед.точка | | | | Латер.точка | | | | Мед.точка | | | | Латер.точка | | | |
| новорож. | | подростк | | новорож | | Подростк | | новорож | | подростк | | новорож | | подростк | |
| Пр | Лев. | Пр. | Лев. | Пр. | Лев | Пр. | Лев | Пр. | Лев | Пр. | Лев | Пр. | Лев | Пр. | Лев |
| 00,9 | 11,0 | 11,8 | 22,0 | 11,5 | 11,1 | 22,3 | 22,0 | 00,7 | 00,9 | 22,5 | 33,0 | 00,3 | 11,0 | 22,4 | 22,6 |

шению к левой щели медиально и назад и занимает более высокое положение над ушно-глазничной горизонталью.

Заключение**:** Таким образом можно прийти к выводу, что верхние глазничные щели на протяжении детского возраста не растут в ширину, но высота щелей существенно увеличивается и достигает окончательных значений только в 13-16 лет.

**Источник финансирования:** Нет.

**Конфликт интересов:** Нет.

**Список литературы.**

1. *Шадлинский В.Б., Караева С.Д.* Варианты формы нижней глазничной щели при различных формах черепа. // Sağlamlıq, 2015; 2: 79-81.

1. *Шадлинский В.Б., Мустафаева Н.А.* Индивидуальные особенности топографии подглазничного канала. Морфология. 2016; 3:.232. Санкт-Петербург.

3. *Богданов А.Т.* Топография и связи черепных нервов в границах пещеристого синуса и верхней глазничной щели у человека и некоторых животных. Дисс. на соискание ученой степени к.м.н. Москва, 2004; 187

4. *Цинящук А.Ф.* Морфология глазничных щелей у взрослых людей при различных краниотипах. Дисс. На соискание ученой степени к.м.н. Саратов, 2008; 124.

5. *Şadlinski V.B., Əliyeva S.A.* Üz kəlləsinin aşağı 3/1 hissəsində kraniometrik göstəricilərinin assimetriyası. //Əməkdar elm xadimi, professor R.Əsgərovun anadan olmasının 85-illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materiallarının toplusu. 2018; 125.

6. *Hüseynov B.M., Qarayeva S.D., Mustafayeva N.A.* Göz yuvası girəcəyinin və divarlarının bəzi fərdi xüsusiyyətləri // Əməkdar elm xadimi, professor R. Əs-gərovun anadan olmasının 85-illik yubileyinə həsr olun-muş beynəlxalq elmi konfransın materiallarının toplu-su. 2018; 66.

7. *Шадлинский В.Б., Мустафаева Н.А.* Индивидуальные особенности глазницы в разных формах черепа. Тезисы докладов. Международного конгресса «Инновационные технологии и аллергологии» Москва, 2015; 393.

8. *Гусейнов Б.М. Караева С.Д.* Возрастные изменения краниометрических параметров нижней глазничной щели в постнатальном онтогенезе. // Материалы симпозиума посвященного 90-летию со дня рождения профессора П.Ф. Степанова, Смолянеск 2014; 3: 36.

9. *Qarayeva S.D.* Müxtəlif formalı üz kəllələrində sağ və sol göz yuvasında göz yuvasının assimetrik kraniometrik göstəricilərinin fərqliliyi. Azərbaycan təbabətinin müasir nailliyyətləri Bakı, 2017; 4, 178 -183.

10. *Алексеев В.П, Дебец Г.Ф.* Краниометрия методика антропологических исследований. Москва: Наука, 1964; 128

# ДИНАМИКА ВОЗРАСТНЫХ ИЗМЕНЕНИЙ СТРОЕНИЯ ОРГАНОВ ХРОМАФФИННОЙ СИСТЕМЫ

Баширова Д.Б., Рзаева А.М.

*Азербайджанский медицинский университет. Кафедра Анатомии человека и медицинской терминологии. Баку, Азербайджан*

**Дата публикации:** Декабрь 2019

***Контактная информация**:* AZ 1109, Баку, ул. Нахичеванского, дом 52, кв. 65; e-mail: devi.bashirova@gmail.com

Цель исследования. Изучать динамику возрастных изменений брюшного аортального параганглия (БАП) и межсонного параганглия (МП) у человека.

Материал и методы исследования. Мы изучали строение и кровоснабжение БАП у плодов, новорожденных и детей различных возрастов (116 препаратов) и МП у плодов, новорожденных, детей и взрослых до 80 лет (по 76 препаратов-правых левых). Анатомия и топография БАП и МП изучены методом тонкой припаровки по В.П. Воробьеву. Строение и сосуды органов изучались после инъекции сосудистого русла взвесью парижской синей в хлороформе и ртутной киновари в бензине, после чего проводилась окраска срезов гемотоксилином-эозином и по Ван-Гизон.

Результаты. БАП и МП достигают полного развития во внутриутробном периоде и одинаково интенсивно функционируют в раннем детском возрасте. БАП имеет различные формы. Наиболее интенсивное увеличение размеров органа отмечается во второй половине внутриутробного развития, у новорожденных и в раннем детском возрасте. С ранних этапов развития для МП характерно дольчатое строение. Внутриорганное кровеносное русло органа содержит все сосудистые компоненты, относящиеся к микроциркуляторной системе.

Инволюция БАП начинается с 3-х лет и к 12-14 годам завершается. Структура МП у плодов, новорожденных и детей до 12-ти лет почти не изменяется. Перестройка в МП, выражающаяся в разрастании соединительной ткани, нарушении дольчатости строения органа и прогрессивном уменьшении паренхимы, начинается с 12-ти лет. Однако паренхиматозные клетки в параганглии частично сохраняются до глубокой старости.

Заключение. БАП и МП достигают полного развития во внутриутробном периоде. Оба параганглия имеют хорошо развитую паренхиматозную ткань и, судя по морфологии, одинаково интенсивно функционируют в раннем детском возрасте.

*Ключевые слова: Динамика, брюшной аортальный параганглий, межсонный параганглий, строение.*

# DYNAMICS OF AGE-RELATED CHANGES IN THE STRUCTURE OF THE ORGANS OF THE CHROMAFFIN SYSTEM

Bashirova D.B., Rzayeva A.M.

*Azerbaijan Medical University. Department of Human Anatomy and Medical Terminology, Baku, Azerbaijan*

Publication date: December 2019

*Contact information: AZ 1043, Baku, Nakhichevanski street, 52 building 665; e-mail: devi.bashirova@gmail.com

Purpose of the study. To study the dynamics of age-related changes in BAP and MP in humans.

Material and research methods. We studied the structure and blood supply of BAP in fetus, newborns and children of various ages (116 preparats) and MP in fetus, newborns, children and adults up to 80 years old (76 left and right preparats). The anatomy and topography of BAP and MP were studied by the method of fine fitting according to V.P. Vorobev. The structure and vessels of organs were studied after injection of the vascular bed with a suspension of Parisian blue in chloroform and mercurial cinnabar in gasoline, after which sections were stained with hemotoxylin-eosin

Result. BAP and MP reach full development in the prenatal period and function equally intensively in early childhood. BAP has various forms. The most intensive increase in organ size is noted in the second half of intrauterine development, in newborns and children in the first months of life. From the early stages of development, MP is characterized by lobular structure. The intraorgan circulatory system of an organ contains all vascular components related to the microcirculatory system. The reverse development of BAP begins with 3 years and by 12-14 years it undergoes complete involution. The structure of MP in fetus, newborns, and child's under 12 years old is almost unchanged. Restructuring in the MP, expressed in the growth of connective tissue, a violation of the lobation of the structure of the organ and a progressive decrease in the parenchyma, begins with 12 years. However, parenchymal cells in the paraganglia partially persist until very old age.

Conclusion. BAP and MP development in the prenatal period and function intensively in early childhood.

*Key words: dynamics, abdominal aortic paraganglion, intercarotid paraganglion, structure.*

**Введение.** Изучение хромаффинной системы началось с описания надпочечников Бартоломеем Евстахием в 1563 году. Затем были обнаружены и другие органы, наподобие надпочечникам.

По мнению многих исследователей хромаффинная ткань развивается из общего зачатка с симпатической системой. Кроме генетической общности между симпатической нервной системой и хромаффинной существуют топографоанотомическая связь, а именно хромаффинная ткань располагается походу симпатических узлов и сплетений. Именно анатомическая и генетическая близость хромаффинной ткани и симпатической нервной системы дали основание A. Kohn [14] назвать эту ткань «хромаффинной», а органы, состоящие из нее - «параганглиями» («околоузлиями»).

Органы хромаффинной системы (ХС) функционируют неодновременно. В их развитии, функции и инволюции имеется определенная последовательность, поэтому Г.Ф. Иванов [5] все параганглии разделил на постоянные и временные. К временным хромаффинным органам относятся брюшной аортальный параганглий (БАП) или орган Цукеркандля, нижний надсердечный параганглий и все мелкие параганглии, разбросанные по ходу симпатических узлов и сплетений. Постоянными хромаффинными органами являются мозговое вещество надпочечников, межсонный и верхний надсердечный параганглии.

Поводом для такого деления послужило то, что БАП - главный адреналинпродуцирующий орган первых лет жизни, затем атрофируется, а мозговое вещество надпочечников является главным хромаффинным органом взрослого и недоразвито у плодов, новорожденных и в раннем детском возрасте. Таким образом, между временными и постоянными органами ХС человека существует взаимозаменяемость в различные возрастные периоды

Несмотря на давний и большой интерес различных специалистов к ХС, из всех к ней относящихся органов, наиболее полно и всесторонне изучены и описаны надпочечники, хотя вненадпочечниковая хромаффинная ткань, как считает М.С. Бокерия [4], объемом значительно больше. Среди органов вненадпочечникового отдела ХС особое внимание обращено межсонному параганглию (МП) и БАП, имеющие весомое функциональное значение.

Литературных сведений об этих двух хромаффинных органах, занимаемых известное место в деятельности эндокринной и нервной систем, очень много и древние, а работ, посвященных этим органам в последние десятилетия единичны [1-3, 7-9, 11 -12, 16].

**Цель исследования.** Изучать динамику возрастных изменений строения БАП и МП у человека.

**Материал и методы исследования.** Мы изучали строение и кровоснабжение

БАП у плодов I-II половины внутриутробного периода развития, новорожденных и детей различных возрастов (116 препаратов) и МП I-II половины внутриутробного периода развития, новорожденных, детей и взрослых до 80 лет (по 76 препаратов – правых и левых).

Анатомия и топография БАП и МП изучены методом тонкой препаровки по В.П. Воробьеву – под бинокулярным микроскопом при обязательном погружении препарата в воду - облегчается освобождение их от окружающих тканей. Для лучшей дифференцировки параганглиев от нервных и лимфатических узлов комплексы в целом до препаровки подвергались обработке 3,5% раствором двухромовокислого калия.

Строение и сосуды органов изучались на срезах, фиксированных в формалине, а также с предварительно инъецированными сосудами взвесью парижской синей в хлороформе, берлинской лазури в желатине, ртутной киновари и сурика в бензине, с последующей обработкой по Ван - Гизон и гематоксилином-эозином.

**Результаты и обсуждение**. Преобладающей формой БАП является перешеечная, однако, она меньше всего встречается у плодов I половины внутриутробного развития и у детей после 5-6 лет. В первом случае это есть результат недоразвития органа, а у детей- следствие процесса инволюции. Сопоставляя формы, размеры и соотношение частей органа в различные периоды роста нам удалось установить, что БАП продолжает расти и более интенсивно развивается во второй половине внутриутробного развития, чем в первой. Так, в указанном возрасте длина органа и размеры перешейка увеличиваются вдвое. Развитие органа сопровождается не только объединением разрозненных зачатков, но и увеличением хромаффинной ткани. Как показывают гистологические исследования, орган в этом возрасте состоит в основном из хромаффинных клеток. В нем нет разрастания волокнистой соединительной ткани и деления параганглия на доли. У новорожденных и детей до 5-ти лет увеличение размеров органа продолжается, но происходит не так интенсивно, как у плодов второй половины внутриутробного развития. Параганглий растет в длину, толщина и ширина его частей у детей после 3-х лет увеличиваются. Эти внешние изменения органа сочетаются с его внутренней структурой. Начиная с середины первого года жизни в органе отмечается разрастание волокнистой соединительной ткани, в результате чего паренхима разделяется на доли. Таким образом, в БАП увеличивается соединительнотканная строма с соответствующим уменьшением хромаффинной ткани. Приведенные наблюдения дают основание считать, что БАП анатомически полностью формируется в течение второй половины внутриутробного развития. К моменту рождения этот процесс в основном завершен и параганглий, повидимому, наиболее интенсивно функционирует у плодов, новорожденных и у детей до 3-х лет, после чего прекращается рост органа и соответственно значимость его функции.

Как было отмечено, развитие и инволюция БАП не всегда происходит в определенные сроки, поэтому и у детей от 3-х до 5-ти лет можно обнаружить, хорошо развитые параганглии со значительной длиной и перешейком или участками с хорошо сохранившейся паренхимой. После 5-ти лет размеры БАП резко уменьшаются. Его остатки имеют небольшую ширину и толщину. Чаще всего обнаруживаются в виде тонких соединительнотканных пластинок с тяжами хромаффинных клеток со слабой хромаффинной реакцией.

С ранних этапов развития для МП характерно дольчатое строение. Доли отделены друг от друга тонкими слоями волокни-

стой соединительной ткани.

**Tədqiqatın material və metodları**. İşdə qarşıya qoyulan məsələlərin həlli epidemioloji, statistik müayinə metodlarının tətbiqi ilə kompleks şəkildə həyata keçirilmişdir. Xəstələnmənin vəziyyətini öyrənmək üçün dövlətin və idarələrin statistik hesabatlarının əsasında dinamikada infeksion xəstələnmənin statistik hesabatları, yoluxucu xəstəliklərin alovlanmaları və zəhərlənmələr üzrə məlumatlarına dair hesabatlar təhlil edilmişdir.

**Nəticələr.** Kəskin bağırsaq infeksiyaları ilə ümumi xəstələnmənin yaş strukturunda 14 yaşa qədər uşaqlar üstünlük təşkil edir (orta hesabla 61,5%). Əsasən məktəb yaşlı (orta hesabla 42,0%) və 3-6 yaşda qeyri-mütəşəkil uşaqlar (33,0%-ə qədər) xəstələnirlər Çoxillik dinamikada xəstə şəxslər arasında kənd əhalisinin xüsusi çəkisinin yüksək olması müşahidə olu-nur, belə ki, bu yaşayış yerlərində olan su təc-hizatı mənbələri çox vaxt gigiyenik normativlərin tələblərinə cavab vermir. Kəskin bağırsaq infeksiyaları ilə xəstələnmənin yekun strukturunda «naməlum etiologiyalı» törədicilərlə törədilən xəstəliklər üsünlük təşkil edir. Son 5 il ərzində onların xüsusi çəkisi minimum 43,6%-dən maksimum 64,7%-ə qədər, məlum etiologiyalı KBİ isə müvafiq olaraq 16,3% - 21,8% arasında dəyişmişdir. KBİ-nin strukturunda dizenteriya minimum 14,4%-dən maksimum 38,2% təşkil etmişdir. Kəskin bağırsaq infeksiyalarının etiologiyasının dəqiqləşdirilməsi problemi də aktual olaraq qalır. «Naməlum» etiologiyalı enteritlərin yüksək xüsusi çəkisi, qış-yaz dövründə epidemik prosesin intensivliyi rotavirus infeksiyası üzərində epidemioloji nəzarətin təşkilinin gücləndirilməsinə dair vəzifələri müəyyən etmişdir.

# UŞAQLIQ BOYNU XƏRÇƏNGİNİN PROQNOSTİK QİYMƏTLƏNDİRİLMƏSİ

Əmiraslanov Ə.T., Pənahova A.M.
*Azərbaycan Tibb Universiteti. Onkologiya kafedrası. Bakı , Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019

***Əlaqə üçün məlumatlar:** Az 1014 Bakı. E. Hüseynzadə küçəsi 84, mən. 68; e-mail: vusal.meherremov0101@gmail.com

# PROGNOSTIC ASSESSMENT OF CERVICAL CANCER

Amiraslanov A.T., Panahova A.M.
*Azerbaijan Medical University. Department of Oncology. Baku, Azerbaijan*

Publication date: December 2019

*Contact information: 1014 Baku. E. Huseynzade street 84, apart. 68; e-mail:

Elektron mikroskopik tədqiqatın xüsusiyyəti prosesin ilkin mərhələlərində, normal, displastik, atipik və bədxassəli hüceyrələrin aşkar edilməsidir. Həmçinin bu metodla şiş prosesinin histoloji qradasiyasını ($G_1$-yüksək, $G_2$-orta, $G_3$-aşağı differensiasiyalı) daha dəqiqliklə və çox asanlıqla təyin etmək olar. Histoloji qradasiyaya əsasən isə gələcəkdə xəstəlik proqnozu haqqında fikir yürütmək mümkündür.

Tədqiqatın məqsədi uşaqlıq boynu xərçənginin kompleks klinik, instrumental, morfo -funksional və statistik təhlili, eləcə də elektron mikroskopik göstəricilərinin təyini əsasında xəstəliyin proqnostik meyarlarının optimallaşdırılmasından ibarətdir.

**Nəticələr:** Uşaqlıq boynu xərçənginin yaranmasına risk amilləri uşaqlıq boynunun fon xəstəlikləri (63%), sonsuzluq (25%), 5 və artıq hamiləliyin olması (18%), cinsi həyatın erkən başlaması (34%), bir neçə cinsi partnyorların olması (15%), aşağı sosial şərait (60%), papilloma virus göstəricisi (5.45%), CİN (23.63%) səbəb ola bilər.

Uşaqlıq boynu karsinomaları determinə olunmuş kambial hüceyrələrdən inkişaf edir. Şiş hüceyrələri morfoloji və elektron mikroskopik differensiasiyaya malik morfogenetik potensiala malikdirlər.

Uşaqlıq boynunun yastıhüceyrəli buynuzlaşan xərçəngində ultrastruktur orqantoxuma və sitospesifik əlamətlərə malik orqanidlərlə zəngin (60%) differensiasiya olmuş şiş hüceyrələri üstünlük təşkil edir (I variant).

Uşaqlıq boynu yastıhüceyrəli buynuzlaşmayan karsinomalarında orqonoidlərin miqdarı orta səviyyədə (50%), differensiasiya olunmayan 2 qrup şiş hüceyrələrinin aktivliyi, bir və ya bir neçə hüceyrə tipinin qeydə alınan ultrastruktur kataplaziyalar, daha pis proqnoza dəlalət edir (II variant).

Uşaqlıq boynu differensiasiya olunmayan xərçənglərində ultrastruktur olaraq orqanidləri az (30%) olan, yalnız differensiasiya olunmayan şiş hüceyrələri qeydə alınmışdır (III variant).

Uşaqlıq boynu adenokarsinomalarında differensiasiya olmuş və olmamış şiş hüceyrələri eyni miqdarda aşkar edilir (IV variant). Qeyd edilən elementlər heterogen hüceyrələrə aid olub, şişlərin tərəqqisinə, inkişafına, metastaz verməsinə səbəb olurlar.

Proqnostik balın hesablanması əsasında 45 yaşdan yuxarı, anamnezində daha çox abort etmiş və HPV-si müsbət olan, yuxarı mərhələli, aşağı differensiasiya dərəcəli, daha çox differensiasiya olunmayan xərçəng növünü təşkil edən, limfa düyünlərinə və uzaq metastazlar vermiş, elektron mikroskopik müayinəsi zamanı orqanelləri az olan hüceyrələrə malik

xəstələrdə daha çox residiv ehtimalı olduğu aşkar edilmişdir.

Uşaqlıq boynu xərçəngi xəstələrində 1-3 il ərzində residiv aşkar edilmənin proqnozlaşdırılmasının riyazi modelini yaratmışıq. 220 uşaqlıq boynu xərçəng xəstələrindən 80 nəfərində (36.4±3.2%) yastıhüceyrəli buynuzlaşan, 85 nəfərində (38.6±3.3%) yastıhüceyrəli buynuzlaşmayan, 25 nəfərində (11.4±2.1%) adenokarsinoma, 13 nəfərində (5.9±1.6%) isə mezonefroid tip olmuşdur. 220 xərçəng xəstələrinin 72 nəfərində (32.7±3.2%) 1-3 il ərzində nəzarətdə saxlamışıq, 59-da (26.8±3.0%) 3 il ərzində residiv aşkar edilməmiş, 13-də (5.9±1.6%) 1-3 il ərzində təkrar residiv aşkar edilmişdir. Residiv aşkar edilmənin proqnostik meyarlarını öyrənərkən yaş, antropometrik göstərici, xəstəliyin müddəti, cinsi həyata başlama, menopauzaya başlama müddəti, sonsuzluq, düşük, yanaşı və ekstrogenital xəstəliklər, xərçəngin histoloji variantı, mərhələsi, differensiasiya dərəcəsi, limfa düyünlərinə metastaz, HPV-yə yoluxması, elektron mikroskopik məlumatları yoxlanılmışdır və onların içərisindən aşağıdakı 9 proqnostik meyar seçilmişdir: 1. Yaş; 2. Abort; 3. HPV; 4. Histoloji variant; 5. Mərhələ; 6. LD metastaz; 7. Uzaq orqanlara metastaz; 8. Differensiasiya dərəcəsi; 9. Şiş hüceyrələrinin növü. Bu meyarları nəzərə alaraq residivə təsir göstərə biləcək meyarların müqayisəli analizini izah edən cədvəl tərtib edil-mişdir. Riyazi modeldə tezliklər üzərində Vald əmsalı hesablanmış və hər meyarın hər

Tədqiqat qruplarında xəstələrin yaşa görə

| Yaş qrupları | 1-3 il ərzində residiv aşkar edilməyən (n =59) | 1-3 il ərzində residiv aşkar edilən (n=13) | c2; p |
|---|---|---|---|
| ≥ 45 yaş | 23<br>39,0 ± 6,3% | 9<br>69,2±12,8% | c2=11,852<br>p = 0,0469 |
| < 45 yaş | 36<br>61,0 ± 6,3% | 4<br>30,8±12,8% | |

Proqnostik cədvəl

| № | Göstərici | Qradasiya | K(-/+) | İnformativlik | DƏ |
|---|---|---|---|---|---|
| 1 | Yaş | >=45 | 0,377 | | 57 |
| | | < 45 | 0,450 | 0,827 | -68 |
| 2 | Anam-nezdə abort | Var | 0,355 | | 47 |
| | | Yox | 1,285 | 1,640 | -171 |
| 3 | HPV | Var | 0,501 | | 64 |
| | | Yox | 0,743 | 1,245 | -94 |
| 4 | Histoloji varinat | Buynuzlaşan | 0,295 | | -65 |
| | | Buynuzlaşmayan | 0,060 | | -28 |
| | | Adenokarsinoma | 0,110 | | 53 |
| | | Dif. Olunmayan | 1,212 | 1,677 | 261 |
| 5 | Mərhələ | $T_{1a1}$ | 1,193 | | -167 |
| | | $T_{1a2}$ | 0,148 | | -48 |
| | | $T_{1b1}$ | 0,624 | | 129 |
| | | $T_{1b2}$ | 0,564 | 2,529 | 104 |
| 6 | LD | N0 | 0,856 | | -76 |
| | | N1 | 3,917 | 4,773 | 346 |
| 7 | Metastaz | M0 | 1,163 | | -92 |
| | | M1 | 3,660 | 4,823 | 290 |
| 8 | Differensiasiya dərəcəsi | G1 | 0,318 | | -79 |
| | | G2 | 0,090 | | -22 |
| | | G3 | 0,010 | | 13 |
| | | Gx | 1,004 | 1,422 | 180 |
| 9 | Şiş hücey-rələrinin növü | Orqanellər zəngin | 0,926 | | 116 |
| | | Orqanellər orta miqdar | 0,001 | | 3 |
| | | Orqanellər az | 1,474 | 2,401 | -178 |

bir qradasiyası üçün proqnostik bal hesablanmışdır.

Yaş faktoronu analiz edərkən məlum olur ki, residiv aşkar edilməyən 59 xəstədən 23-də (39,0±6,3%), residiv aşkar edilən 13 xəstənin 9-da (69,2±12%) xəstələrin yaşı 45-dən aşağı olmuşdur.

Proqnostik balın hesablanması əsasında 45 yaşdan yuxarı, anamnezində daha çox abort etmiş və HPV-si müsbət olan, yuxarı mərhələli, aşağı differensiasiya dərəcəli, daha çox differensiasiya olunmayan xərçəng növünü təşkil edən, limfa düyünlərinə və uzaq metastazlar vermiş, elektron mikroskopik müayinəsi zamanı orqanelləri az olan hüceyrələrə malik xəstələrdə daha çox residiv ehtimalı olduğu aşkar edilmişdir.

## XƏZƏR DƏNİZİNİN BİOEHTİYATLARININ MÜASİR EKOLOJİ VƏZİYYƏTİ

Ənsərova A.H.
*Azərbaycan Tibb Universiteti. Tibbi biologiya və genetika kafedrası. Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Deckabr 2019
***Əlaqə üçün məlumatlar:** Az 1022, Bakı, H.Əliyev pr. 33,mənzil 39 e-mail: ansarova.aynur@mail.ru

## SUMMARY CONTEMPORARY STATE OF BIOLOGICAL RESOURCES OF THE CASPIAN SEA

Ansarova A.H.
*Azerbaijan Medical University. Department of Medical Biology and Genetics. Baku, Azerbaijan*

Publication date: December 2019
*Contact information: Az 1022, Baku, H.Aliyev pr., 33,apartment 39; e-mail: ansarova.aynur@mail.ru

Xəzər dənizinin bioehtiyatları və ekoloji vəziyyəti barədə dövri ədəbiyyatda müəyyən qədər məlumatlar verilmişdir. Bununla belə, Xəzərin müasir vəziyyətini və fauna-florasının yönümünü dərk etmək üçün dənizin ekoloji sabitliyinin dəyişməsi səbəblərini ümumi şəkildə olsa da izah etmək lazımdır. Yadda saxlamaq lazımdır ki, Xəzər dənizinin antropo -gen təsirlərə məruz qalması 75-80 ildən artıq müddətdir davam edir və getdikcə daha da kəskinləşir.

Xəzərə mənfi təsir edən amillər çoxdur. Lakin, onları əsas 2 qismə bölmək olar. Bir daha təkrar etmək lazımdır ki, Xəzərin səviyyə rejiminin tərəddüd etməsi və ümumi çirklənməsi, antropogen təsirlərin əsasını təşkil edir.

Çox təəssüflər olsun ki, Xəzərin bütün sahələri ilə müqayisədə, ən çox zərər çəkən ərazilərdən biri də Azərbaycan sahilləridir. Sumqayıt, Bakı şəhərlərinin uzun illərdən bəri çirkabını qəbul edən sahil suları, hələ də tam bərpa olunmamışdır. Ona görə də, Azərbaycanın Xəzər hissəsində balıq sərvəti xeyli azalmışdır. Aydın olmaq üçün bir neçə dəlil göstərək:

Dərindən analizə varmadan sübut olunmuşdur ki, 1935-ci ilə nisbətən 1995-ci ildə Azərbaycanda ovlanan, tədarük edilən nərə balıqları – 40 dəfə, qara kürü istehsalı – 50-60 dəfə, qızıl balıq – 260 dəfə, pulcuqlu balıqlar – 60 dəfə azalmışdır. Təəssüflər olsun ki, son illər dənizdə sıf, şahmayı, qızıl balıq və başqa balıqlar vətəgə əhəmiyyətini itirmişlər.

Artıq çoxdan sübut edilmişdir ki, Xəzər dənizində çirklənməyən ərazi yoxdur. Hətta, sahillərdən 100 kilometrlərlə aralı, 600-700

metr dərin olan mərkəz hissənin qruntunda neft-mazut (özü də yol verilən qatılıqdan 30-50 dəfə çoxdur) aşkar edilmişdir.

Şimali Xəzərdə neft, civə və başqa çirkləndirici maddələr, zərərsiz sayılan qatılıqdan 20,7 dəfə çoxdur. Belə dəlillər həddən artıqdır. Son 50 ildə Xəzərə 4-5 min ton neft axıdılıb, neftlə çirklənmə indi də davam edir və getdikcə daha da kəskinləşir.

Xəzər dənizində çirklənmənin təsir dairəsi genişdir. Belə ki, əsas sərvət sayılan – balıq ehtiyatı və məhsuldarlığının azalması ilə yanaşı, bioehtiyatların da keyfiyyət baxımından dəyişməsi qeyd olunur. Pestisidlərin, detergenlərin, ağır metal duzlarının, karbohidrogenlərin və başqa zəhərli maddələrin təsirindən, mövcud olan balıqların xəstəlikləri də xeyli artmışdır. Hətta, çirklənmə o dərəcəyə çatmışdır ki, nərə balıqlarının əzələ quruluşu pozulmuşdur. Törədici balıqların cinsi məhsulu öz keyfiyyətini itirmişdir.

## LİPOSARKOMANIN DİAQNOSTİKASINDA MAQNİT-REZONANS TOMOQRAFİYANIN TƏTBİQİ

Hüseynova A.R.
*Naxçıvan Muxtar Respublikası Xəstəxanası, Naxçıvan şəhəri, Naxçıvan Muxtar Respublikası*

**Nəşr tarixi:** Dekabr 2019

***Əlaqə üçün məlumatlar:** Az 7000, Naxçıvan şəhəri, Elince mehellesi, mənzil 25; e-mail: doctor.hsnv@gmail.com

## MAGNETİC-REZONANS TOMOGRAPHY DİAGNOSİS OF LİPOSARCOMAS

Huseynova A.R.
*Clinic of Nakhchivan Autonomous Republic, Nakhchivan city, Nakhchivan Autonomous Republic*

Publication date: December 2019

*Contact information: Az 7000, Nakhchivan City, Elince str, apartment 25; e-mail: doctor.hsnv @gmail.com

Hazırkı tədqiqatın məqsədi liposarkomanın maqnit-rezonans tomoqrafik semiotikasının tədqiqindən ibarət olmuşdur.

**Material və metodlar.** Tədqiqata Azərbaycan Tibb Universitetinin Onkoloji Kli -nikasında liposarkoma diaqnozu aşkarlanan və diaqnostikasında maqnit-rezonans tomoqrafiya tətbiq edilən 3 xəstə daxil edilmişdir. Onlardan 2-i (66,7%±27,2%) kişi, 1-i (33,3% ±27,2%) qadın olmuşdur. 2 xəstədə (66,7% ±27,2%) törəmə sagital səthə münasibətdə sağda, 1 (33,3%±27,2%) xəstədə solda yerləşmişdir. Xəstələrin hamısında pro-ses dərində, aşağı ətrafda (bud nahiyəsində) yerləşmişdir.

MRT müayinələri "Philips Achieva 1,5 Tesla" və "Philips İngenia 1,5 Tesla" cihazları ilə aparılmışdır. Xəstələrin heç birində kontrastlı müayinə aparılmamışdır. Statistik analiz variasion statistikanın ənənəvi üsulları ilə aparılmışdır.

**Nəticələr.** Xəstələrin hamısında təksaylı, 2-də (66,7±27,2%) kələ-kötür konturlu və qeyri-düzgün formada, 1-də (33,3±27,2%) lobulyar konrurlu və multilobulyar ocaqlar aşkar olunmuşdur. Törəmə bütün xəstələrdə dəqiq konturlu olmuşdur. 2 xəstədə homogen, 1 xəstədə heterogen şiş izlənilmişdir. Xəstə-lərdə T1 rejimində törəmədən hipo-, T2 və proton sıxlıqlı rejimlərdə hiperintens siqnal əldə edilmişdir. Törəmənin hipervaskulyar sahələri aşağı intensivlikdə izlənilmişdir.

Heç bir xəstədə qonşu oynağa və damar-sinir

dəstəsinə invaziya aşkarlanmamış və xəstələrdən 1-də (33,3±27,2%) regionar limfa düyünlərinin prosesə cəlb edilməsi təyin edilmişdir.

Tədqiqatın nəticələri MRT müayinəsinin yüksək informativ müayinə olaraq liposarkomanın diaqnostikasında geniş istifadəsini zəruriləşdirir.

## PROTEZ KONSTRUKSİYALARIN TƏDBİQİ VƏ MİKROORQANİZMLƏRİN ADHEZİYASI

Hüseynova N.M.
*Azərbaycan Tibb Universiteti. Terapevtik Stomotologiya kafedrası. Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019
***Əlaqə üçün məlumatlar:** Az 1022, Bakı, Bakıxanov 23; e-mail: medun91@mail.ru

## USE OF PROSTHETIC CONSTRUCTION AND MICROORGANISMS ADHESION

Huseynova N.M.
*Azerbaijan Medical University. Department of Therapeutic Dentistry . Baku, Azerbaijan*

Publication date: December 2019
*Contact information: Az 1022, Baku, Bakikhanov 23; e-mail: medun91@mail.ru

Müasir dövrdə təcrübi ortopedik stomatologiyanın ən aktual tibbi-sosial problemlərindən biri dişlərin itirilməsi nəticəsində diş-çənə sistemində yaranan qüsurlar zamanı funksiyaların optimal bərpa olunması metodlarının təkmilləşdirilməsi hesab edilir. Bir sıra müəlliflərin fikrinə görə, protez yatağının dayaq toxumalarının çeynəmə təzyiqinə funksional adaptasiyası onların anatomik-fizioloji xüsusiyyətlərindən və tətbiq edilən protezlərin konstruktiv xüsusiyyətlərindən birbaşa asılıdırStomatoloji protezləmənin ən aktual problemlərindən biri də konstruksiyalar üzərində ərplər, o cümlədən mikroorqanizm kütlələrinin toplanmasıdır. Belə ərp kütlələri adətən protez konstruksiyalarına ciddi zərər vurmasa da, ağız boşluğunun digər toxumaları və ağızda qalmış dişlərin parodont toxumaları, hətta sərt toxumaların müxtəlif mikrobioloji zədələnmələrinə gətirib çıxara bilir.

**Tədqiqatın məqsədi** Ortopedik qurğuların tiplərində mikroorqanizmlərin adheziv xüsusiyyətlərinin öyrənilməsi.

**Tədqiqatın material və metodları.** Bu məqsədlə tərəfimizdən 15-i yüngül parodontitdən əziyyət çəkən, 14-i dərin karioz boşluğu olan, 15-i çeynəmə dişləri nahiyyəsində körpüyəbənzər metal-keramika protez taxılmış və 12 nəfər karioz boşluqları tam aradan qaldırılmış tam sağlam ağız boşluğuna malik yaşı yalnız 25 olan kişi cinsinə mənsub 56 nəfər xəstə tədqiqata cəlb edilmişdir. Laboratoriyada A.actinomycetam-comitans, A.israeli, B.forsythus, B.forsythus, C.albicans, E.coli, F.nucleatum, K.pneumoniae, L.lactis, P.micros, P.niger, S.aureus, S.haemolyticus, S.mutans, S.sanguis, T.denticola və Veilinella növlərinin götürülmüş materiallarda rast gəlinməsi öyrənilmişdir.

**Tədqiqatın nəticələri.** Ümumilikdə diş-çənə sisteminin müxtəlif biotoplarından mikroorqanizmlərin 16 növü ayırd edilmişdir. Ən çox mikroorqanizmlər karioz boşluqlar və ortopedik konstruksiyadan ayırd edilmişdir – müvafiq olaraq 11 və 14 növ. Parodontal cib-

lər və sağlam parodont sahələrində isə bu göstərici müvafiq olaraq, 10 və 8 növ təşkil etmişdir. Diş-çənə sisteminin bu biotopları görünür ki, boşluqlar təkcə aerobların deyil, həm də anaerobların adheziyası və intensiv həyat fəaliyyəti üçün əlverişli mühit sayılır, belə ki, parodontal ciblərin dərinliyində və ortopedik konstruksiyanın protez yatağına və dayaq dişlərinə kip yapışmayan yerlərində mikroorqanizmlərin bu növləri üçün labüd olan mikroanaerofil şərait yaranır. Yüksək prioritetli növlər mikroorqanizmlərin o növləri sayılır ki, onların aşkarlanma tezliyi 70%-dən yuxarıdır. Məhz bu növlər sıx adheziya qabiliyyətinə malikdir və dişlərdə və parodontun toxumalarında bu və ya digər patoloji proseslər törədirlər. Bir çox hallarda bu biotoplarda aşkar edilmiş mikroorqanizmlərin növləri eyni olmuşlar.

Mikroorqanizmlərin qeyd edilən oxşar olmayan yüksək prioritetli növlərinin parodontal ciblərin və dişlərin kariyesli boşluqlarının biotoplarına belə kəskin uyğunlaşması onu bilavasitə təsdiq edir ki, mikroorqanizmlər patogen xüsusiyyətlərini sayəsində bu orqanların spesifik nozoformalarını törədirlər. Diş-çənə sisteminin bu biotopları görünür ki, boşluqlar təkcə aerobların deyil, həm də anaerobların adheziyası və intensiv həyat fəaliyyəti üçün əlverişli mühit sayılır, belə ki, parodontal ciblərin dərinliyində və ortopedik konstruksiyanın protez yatağına və dayaq dişlərinə kip yapışmayan yerlərində mikroorqanizmlərin bu növləri üçün labüd olan mikroanaerofil şərait yaranır. S.aureus növünün rast gəlinməsinin müəyyənləş-dirilməsi üzrə tədqiqat zamanı müvafiq növün ortopedik konstruksiya tətbiq etdiyimiz 15 nəfər şəxslərdən əldə etdiyimiz bioloji nümunələrdən 10 - da yaxud onların 66,7±12,17%-də həmin növün nümayəndələrinə rast gəlinmişdir.

## MÜXTƏLİF KRANİOTİPLİ YETKİN İNSANLARDA GÖZ YUVASININ YUXARI YARIĞININ MORFOLOGİYASINA DAİR

Məmmədova A.C., Abdullayeva Q.M.
*Azərbaycan Tibb Universiteti. İnsan anatomiyası və tibbi terminologiya kafedrası. Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019
***Əlaqə üçün məlumatlar:** AZ. 1125 Bakı, Y.Səfərov küçəsi 8/29; e-mail**:** gulqiz65@mail.ru

## ABOUT THE MORPHOLOGY OF THE SUPERIOR ORBITAL FISSURE IN ADULTS WITH DIFFERENT CRANIOTYPES

Mamedova A.J., Abdullayeva Q.M.
*Azerbaijan Medical University. Department of Human Anatomy and Medical Terminology. Baku, Azerbaijan*

Publication date: December 2019
Contact information: AZ. 1125, Baku, Y. Safarov street, 8/29; e-mail**:** gulqiz65@mail.ru

Mürəkkəb embrional inkişaf dövrünü keçən göz yuvaları, yalnız görmə üzvü üçün tutacaq olmayıb, eyni zamanda üz və beyin kəlləsi arasında əlaqə yaradaraq, kəllə sinirləri və onların şaxələri, qan damarları, limfa damarlarının keçməsi üçün yarıqlar və dəliklər əmələ gətirir ona görə də ya birincili ya da ikincili patoloji proseslərin yayılması üçün böyük klinik əhəmiyyət kəsb edir. Yuxarı göz yarığı əsas sümüyünün cismi və qanadları ilə

əmələ gəlir, göz yuvasını kəllənin orta çuxuru ilə birləşdirir, onu əhatə edən nazik birləşdirici toxuma səhfələrindən göz yuvasına göz sinirinin şaxələri (burun-kirpik, alın, gözyaşı), blok, uzaqlaşdırıcı və gözün hərəki sinirləri, yuxarı göz venası keçir.

Bu nahiyənin zədələnməsi zamanı xarakterik olan simptomokomplex inkişaf edir: tam oftalmoplegiya (göz almasının hərəkətsiz olması), yuxarı göz qapağının ptozu, toxunma hissiyyatının zəifləməsi, tor qişanın venalarının genişlənməsi və ekzoftalım. Ona görə bu gün də kəllənin morfometrik göstəriciləri, yarıq və dəliklərin topoqrafiyası morfoloqlar, plastik cərrahlar və fizioloqlar üçün böyük maraq kəsb edir.

Tədqiqatın məqsədi. Müxtəlif kraniotip insanlarda göz yuvalarının forma və ölçülərini öyrənmək, yuxarı göz yarığının dəyişkənliyini müəyyənləşdirməkdir.

Tədqiqat işində ATU-nun insan anatomiyası və tibbi terminologiya kafedrasının muzeyində olan kranioloji kolleksiyadan 27 yetkin insan kəlləsindən istifadə olunmuşdur. Tədqiqatda kranioskopik, kraniometrik, rentgenoloji və Piroqovun kəsik üsulundan istifadə edilmişdir.

Müxtəlif tip (dolixokran7, mesokran 10, braxikran10) kəllələrdə yuxarı göz yarığı arxa-içəri tərəfdə enli, ön-bayır tərəfdə dardır. Bəzi kəllələrdə silindrik və piramidəbənzər formalar rast gəlir. Göz yuvasının ölçülərinin təyin edilməsi zamanı kəllənin assimetriyası əlamətləri aşkar edilmişdir. Kəllənin asimmetriyasını göstərən əlamətlərə bir sıra göstərici-lərin orta qiymətlərinin müxtəlifliyi aiddir.

Tədqiqatın nəticələri göstərir ki, göz yuvalarının ölçüləri və həcmi solda sağa nisbətən böyük olsa da əksinə yuxarı göz yarığının ölçüləri sağda sola nisbətən böyükdür.

## LYAMBLİOZ OLAN HAMİLƏ QADINLAR ARASINDA DAVRANIŞ XÜSUSİYYƏTLƏRİ

Qasımova G.M.
*Azərbaycan Tibb Universiteti. I mama-ginekologiya kafedrası. Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019
***Əlaqə üçün məlumatlar:** Az 1022, Bakı, Bakıxanov 23; e-mail: medun91@mail.ru

## BEHAVIORAL FEATURES IN PREGNANT WOMEN WITH GIARDIASIS

Gasymova G.M.
*Azerbaijan Medical University, Department of Obstetrics and Gynecology II. Baku, Azerbaijan*

Publication date: December 2019
Contact information: Az 1022, Baku, Bakikhanov 23; e-mail: medun91@mail.ru

Aparılan epidemioloji müayinələr nəzərə alınmaqla, biz hamilə qadınların xarakterik və epidemioloji əhəmiyyətli davranış xüsusiyyətlərini müəyyən etmiş və əldə olunan məlumatları təhlil etmişik.

**Tədqiqat işinin məqsədi**: Lyamblioz olan hamilə qadınlar arasında davranış xüsusiy-yətlərin öyrənilməsi olmuşdur.

**Tədqiqat işinin material və metodları.** Hazırkı tədqiqat işində hamiləliyin gedişinin xarakterindən asılı olaraq lyambliozun müxtəlif klinik formalarında 18 yaşdan 45 yaşa qədər (orta yaş 28,42±4,8) və hamiləliyin 16-40 həftəlik müddətində olan, lyambliyalarla invaziyalaşmış 137 hamilə qadın müayinə edilmişdir. Kontrol qrupu 18 yaşdan 45 yaşa

qədər (orta yaş 25,42±0,8) anamnezdə protozoy invaziyası və klinik əlamətlər olmayan 45 hamilə qadın təşkil etmişdir. Alınmış nəticələrin statistik işlənməsi variasion statistikanın məlum metodu üzrə orta riyazi ədədin (M), xəta göstəricisinin (m) təyin edilməsi ilə həyata keçirilmişdir.

**Tədqiqat işinin nəticələri.** Risk dərəcəsinə görə, davranış amillərini aşağıdakı qruplara bölmək olar. 1-ci qrupa təhlükəlilik dərəcəsinə görə uşaqlarla sıx təmas aid edilə bilər ki, bu da lyambliyaların asanlıqla ötürülməsi imkanı (24,1±3,6%) ilə şərtlənir. Bu amil insanın orqanizminə törədicinin daha asan və effektiv yoluxma yoludur və belə yüksək xəstələnməni təmin edir. 2-ci qrupa təhlükəlilik dərəcəsinə görə şəxsi gigiyena qaydalarına (bədənin, əllərin, paltarların, yatağın, qab-qacağın təmizliyi) riayət edilməməsi aiddir - 48,2±4,3%. Fekal-oral infeksiyalar və invaziyalar zamanı bu amillərin əhəmiyyəti hamıya məlumdur. 3-cü qrup təhlükəlilik dərəcəsinə mənzillərin gigiyenasının gözlənilməməsi, sosial-iqtisadi şəraitin təkmilləşdirilməməsi aiddir – 27,7±3,8%.

## QALXANABƏNZƏR VƏZININ MORFOLOJI PARAMETRLƏRININ TƏYIN EDILMƏSININ PATOLOJI PROSESIN QIYMƏTLƏNDIRILMƏSINDƏ ROLU

Rüstəmova S.M., Seyidova Z.R.
*Azərbaycan Tibb Universiteti. İnsan anatomiyası və tibbi terminologiya kafedrası. Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019
***Əlaqə üçün məlumatlar:** Bakı. Binəqədi rayonu, ev 4, mən.35; e-mail: sadaqat.rustamova@mail.ru

## ROLE OF DEFINING THE MORPHOLOGICAL PARAMETERS OF THE THYROID GLAND TO DIAGNOSE OF THE PATHOLOGICAL PROCESS

Rustamova S.M., Seyidova Z.R.
*Azerbaijan Medical University, Department of Human Anatomy and Medical Terminology. Azerbaijan*

Publication date: December 2019
Contact information: Baku, Binagadi district 4, apartment 35; e-mail: sadaqat.rustamova@mail.ru

Hər bir insan öz gündəlik həyatında həkimlə məsləhətləşmədən müxtəlif tibbi vasitələrdən istifadə edə bilir. Buna misal olaraq, müxtəlif iltihabi proseslər zamanı tərkibinə yod əlavə edilmiş su, lüqol məhlulundan istifadə etmə, həmçinin çəkini azaltmaq və mübadilə proseslərini sürətləndirmək məqsədilə bəzi dərmanların, o cümlədən hormonların nəzarətsiz qəbulunu qeyd etmək olar. Odur ki, hər bir qadında gündəlik həyat rejimi şəraitində, həmçinin hamiləlikdən əvvəl qalxanabənzər vəzinin hormon səviyyəsinin, eləcə də anticisimlərinin (anti-TPO) yoxlanılması tibbi cəhətdən mühüm hesab olunur.

Bu mənada tədqiqatımızın əsas məqsədi də Azərbaycanda endemik və qeyri endemik ərazilərdə yaşayan əhali içərisində qalxanabənzər vəzinin morfometrik göstəricilərinin təyin edilməsindən ibarət olmuşdur. Bunu nəzərə alaraq, Azərbaycan Respublikasında endemik ərazidə yaşayan gənclik və yetkinlik dövrünün I mərhələsində olan əhali içərisində, xüsusilə qadınlarda qalxanabənzər vəzinin ölçülərini müəyyən etmişik. Nəzərə almaq lazımdır ki, göstərilən yaşlarda qalxanabənzər vəzi parametrlərinin morfometrik qiymətləndirilməsi labüd hesab olunur.

Tədqiqat zamanı müəyyənləşdirdik ki,

endemik ərazi üzrə müşahidə edilən şəxslərdə vəzinin uzunluğu 44,8 ± 0,3 mm, eni 24,8 ± 0,4 mm, qalınlığı 16,8 ± 0,4 mm, kütləsi isə 26,3 ± 0,2 gr təşkil edir. Tədqiq edilən göstəriciləri qeyri - endemik ərazi üzrə nəzərdən keçirdikdə, həmin bölgələrdə yaşayan qadınlarda qalxanabənzər vəzinin uzunluğunun 43,9 ± 0,4 mm, eninin 23,9 ± 0,4 mm, qalınlığının 17,3 ± 0,4 mm, kütləsinin isə 24,8 ± 0,2 gr təşkil etdiyi müəyyən olundu.

Bu baxımdan qeyd edilən yaş dövrlərini əhatə edən və qeyri-endemik bölgələrdə yaşayan əhali içərisində də qalxanabənzər vəzinin morfometrik ölçüləri üzrə müxtəliflik qeyd edilir.

Ümumiyyətlə, özündə halsızlıq, yorğunluq, əsəbilik, menstrual tsikldə pozğunluq, eləcə də, çəki artmasına meyllilik hiss edən və yaşı 35-40 olan hər hansı qadın mütləq həkimə müraciət etməlidir. Xəstələrin müraciət etdiyi mütəxəssis həkim isə hətta qalxanabənzər vəzinin funksiyasının pozulmadığı və hormon səviyyəsinin dəyişmədiyi hallarda belə dinamik müşahidə üsulunu seçərsə, bu zaman müalicə təyin edilməsə belə, mütəmadi yoxlanmanın zəruriliyi müsbət təsir göstərmiş olar.

Apardığımız araşdırmalarımızda cərrahi müdaxiləyə məruz qalmış otuz yaşdan yuxarı şəxslərin, həmçinin endemik ərazidə yaşayan əhali içərisində 34 qadının qalxanabənzər vəzisinin nəticələrinə əsaslanaraq, aşağıdakı qənaətə gəlmək mümkündür.

I. Mütəmadi olaraq qanda tiroid stimullaşdırıcı hormonun (TSH) səviyyəsinin yoxlanılması.

II. Hər bir insanın müvafiq müayinələrdən keçməsi və həkim nəzarətində olması.

III. Profilkatik məqsədlə qalxanabənzər vəzinin morfometrik göstəricilərinin təyin edilməsi.

Bütün bunlar hər bir insanın sağlam həyat tərzi üçün çox vacib şərtlər hesab olunur.

## ENDOMETRİAL XƏRÇƏNG: XƏSTƏLƏRDƏ ERKƏN SKRİNİNQ VƏ AŞKARLANMA

Səfərova S.İ.
*Azərbaycan Tibb Universiteti. Onkoloji klinikası. Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019
***Əlaqə üçün məlumatlar:** Bakı, Shahbazov 36, mən. 16; e-mail: dr.safarova@hotmail.com

## SCREENING AND EARLY DETECTION OF ENDOMETRIAL CANCER

Safarova S.İ.
*Azerbaijan Medical University. Oncology clinic. Baku, Azerbaijan*

Publication date: December 2019
Contact information: Baku, Shahbazov 36, app. 16. e-mail: dr.safarova@hotmail.com

Endometrial xərçəng hormondan asılı şişlər qrupuna daxil olub, dünyada onkoloji xəstəliklər arasında süd vəzisi xərçəngindən sonra 7.1% təşkil etməklə II yeri tutur. 90-cı illərdən etibarən xəstələnmə halı 56% artmışdır. Bu göstəricini 2030-cu ildə 60% artması gözlənilir. Endometrial xərçəngin 5 illik yaşama göstəriciləri ildən ilə azalır. Bu baxımdan onkoginekoloji xəstələrdə xəstəliyin erkən skrininqi, diaqnostikası, müalicə və profilaktikası, xəstələrdə tibbi yardımın effektivliyinin yüksəlməsini nəzərə alaraq, endometrial xərçəngin erkən srininqi və aşkarlanması istiqamətində tədqiqatların aparılması ehtiyacını diqtə edir.

**Tədqiqatın məqsədi.** Uşaqlıq cismi xər-

çənginin (endometrial xərçəng) erkən skrininqi, aşkarlanması, müalicə və profilaktikası, morfofunksional və elektron-mikroskopik meyarların əsasında proqnostik göstəricilərin qruplaşdırılması, stastistik təhlilindən ibarət ol -muşdur.

**Alınmış nəticələr.** Tədqiqat ümumilikdə 167 xəstə üzərində, əsas və nisbi kontrol qrupları olmaqla (yüksək G1, orta G2 və aşağı G3 diferensiasiya dərəcələri) uşaqlıq cismi xərçəngi və xərçənönü prosesləri olan (35 – nisbi kontrol qrupu) xəstələrdə aparılmış və alınan nəticələr aşağıdakı kimi olmuşdur.

Şişin diferensiasiya dərəcəsi: yüksək (G1) IA mərhələdə 38 (55,1±4,3%) xəstədə, IB mərhələdə 11 (39,3±4,2%) xəstədə, II mərhələdə 2 (22,2±3,6%) xəstədə, IIIA mərhələdə 1 (16,7±3,2%) xəstədə, IIIC mərhələdə 1 (5,0±1,9%) xəstədə; orta (G2) IA mərhələdə 20 (29,0±3,9%) xəstədə, IB mərhələdə 11 (39,3±4,2%) xəstədə, II mərhələdə 2 (22,2±3,6%) xəstədə, IIIA mərhələdə 3 (50,0±4,3%) xəstədə, IIIC mərhələdə 4 (20,0±3,5%) xəstədə; aşağı (G3) IA mərhələdə 11 (15,9±3,3%) xəstədə, IB mərhələdə 6 (21,4±3,5%) xəstədə, II mərhələdə 5 (55,6±4,3%) xəstədə, IIIA mərhələdə 2 (33,3±4,1%) xəstədə, IIIC mərhələdə 15 (75,0±3,8%) xəstədə qeydə alınmışdır.

**Yekun.** Əldə olunmuş nəticələr elektronmikroskopik müayinələr zamanı özünü aşa -ğıdakı kimi göstərmişdir: yüksək diferensiasiyalı adenokarsinomalarda hüceyrə-arası kontaktların, 20%-dən az hüceyrələrdə pozulması, nüvə deformasiyasının zəif olması, mitoxondri şişkinliyi və kristlərin hissəvi fraqmentasiyası qeyd edilmişdir. Orta diferensiasiyada hüceyrənin ultrastruktur dəyişikliyi bərabər sayda olmuşdur. Aşağı diferensiasiyalı şişlərdə isə desmosomlar 50%-dən artıq hüceyrələrdə tam pozulmuş, kəskin nüvə polimorfizmi və mitoxondri kristlərinin tam fraqmen-tasiyası qeyd olumuşdur.

Sadaladıqlarımız nüvə polimorfizmi, mitoxondri quruluşunun pozulması və plazmatik zar dəyişikliyi endometrial xərçəngin skrininqi və erkən aşkarlanmasında istifadə oluna bilər.

## AZƏRBAYCAN RESPUBLIKASI ƏRAZISINDƏ MALYARIYA ILƏ MÜBARIZƏ TƏCRÜBƏSI

Xələfli X.N., Vəkilov V.N., Zeynalova N.M.
*Azərbaycan Tibb Universiteti. Epidemiologiya kafedrası. Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019
***Əlaqə üçün məlumatlar:** 1102, Bakı, 20 yanvar küç. 10, mən. 26 email:khalaphli@mail.ru

## FIGTING EXPERIENCE OF MALARIA IN THE REPUBLIC OF AZERBAIJAN

Khalafli Kh.N., Vakilov V.N.,. Zeynalova N.M
*Azerbaijan Medical University. Department of Epidemiology. Baku, Azerbaijan*

Publication date: December 2019
Contact information: 1102, Baku, 20 january str. 10, app. 26 email:khalaphli@mail.ru

Respublikaya malyariyanın gətirilməsi ehtimalı xeyli yüksəkdir, belə ki, dünyanın 100-dən artıq ölkəsində bu infeksiya ilə xəstələnmə qeydə alınır.

**Tədqiqat işinin məqsədi**: Azərbaycan Respublikası ərazisində malyariya ilə mübarizə təcrübəsinin öyrənilməsi olmuşdur.

**Tədqiqat işinin material və metodları.**

İşdə qarşıya qoyulan məsələlərin həlli epidemioloji, statistik müayinə metodlarının tətbiqi ilə kompleks şəkildə həyata keçirilmişdir. Xəstələnmənin vəziyyətini öyrənmək üçün dövlətin və idarələrin statistik hesabatlarının əsasında dinamikada parazitar xəstələnmənin statistik hesabatları təhlil edilmişdir.

**Tədqiqat işinin nəticələri.** Malyariya ilə xəstələnmənin ciddi təhlükəni nəzərə alaraq respublikanın Səhiyyə Nazirliyi tərəfindən malyariyanın iri epidemiyasının qarşısının alınması üzrə lazımi tədbirlər görülmüşdür. Birinci mərhələdə (1981-1982-ci illər) bütün səylər iri epidemiyaların söndürülməsinə, ikinci mərhələdə isə (1983-1985-ci illər) – qalıq ocaqlarının ləğv edilməsinə və malyariyanın tam və davamlı ləğvinə nail olmaq üçün ilkin şərtlərin yara-dılmasına yönəldilmişdir. Malyariya əleyhinə müalicə-profilaktika tədbirləri aparıcı yer tuturdu. Keçən illərdən fərqli olaraq, əsas səy genişmiqyaslı mövsümi kimyəvi profilaktikanın aparılmasına yönəldilmişdir. Sonrakı illərdə respublikada malyariya üzrə vəziyyət olduqca qeyri-sabit qalmaqda davam edirdi və hər il malyariyanın çoxlu sayda hadisələri qeyd olunurdu. 90-cı illərdə siyasi və sosial-iqtisadi dəyişikliklərin nəticəsində malyariya əleyhinə fəaliyyətin kəskin zəifləməsi, hidrotexniki və meliorasiya tədbirlərinin aparılmasının tam dayandırılması və əhalinin miqrasiyası Azərbaycanda malyariya üzrə vəziyyəti xeyli ağırlaşdırdı və xəstələnmənin kəskin artmasına sıbəb oldu. Hazırki dövrdə ölkədə malyariogen vəziyyəti sabit hesab etmək olar. Aparılan genişmiqyaslı tədbirlərin və daimi diqqətin sayəsində qısa müddət ər-zində epide-mioloji gərginliyin aradan qaldı-rılmasına nail olunmuşdur. Bununla əlaqədar olaraq, hazırda bütün tədbirlər malyariyanın qalıq ocaqlarının sağlamlaşdırılmasına yönəl-dilmişdir. Qeyd etmək lazımdır ki, əvvəlki illərdə malyariya ilə mübarizə sahəsində əldə olunmuş təcrübəyə əsasən hazırda, respub-likada yaranmış müvəffəqiyyət və xəstələn-mənin ləğv olunması heç də malyariya əley-hinə kompleks tədbirlərin həcminin azaldıl-masına əsas vermir.

## ДИФФЕРЕНЦИРОВКА СКЕЛЕТА АВТОБОДИИ СОБАКИ В ПОСТНАТАЛЬНЫЙ ПЕРИОД

Алиев Р.А

*Азербайджанский медицинский университет. Кафедра Медицинской биологии и генетики Баку, Азербайджан*

**Дата публикации:** Декабрь 2019

***Контактная информация**:* Баку. Улица М.Физули, 56, кв.126. e-mail: medun91@mail.ru

## DIFFERENTIATION OF AUTOPODIA SKELETON IN DOG IN POSTNATAL PERIOD

Aliyev R.A.

*Azerbaijan Medical University. Department of Medical Biology and Genetics. Baku, Azerbaijan*

На рентгенограммах и мацерированных препаратах изучались возрастные изменения скелета кисти и стопы собак 1, 10, 20, 30, 60, 90, 120, 150 и 180 – ти дневного возраста. У новорожденных щеняк акроподии кисти и стопы отличий не имеют; представлены они окостеневшими диафизами .

У новорожденных щеняк акроподии кисти и стопы отличий не имеют; представлены они окостеневшими диафизами

метаподий и фаланг.

К десятому дню жизни в запястье появляется первая точка окостенения (локтевая кость запястья), а в предплюсне уже три кости имеют центры оссификации (помимо таранной и пяточной первичная точка возникает в кубовидной кости). В костях акроподий, по сравнению с новорожденными, изменений нет. К двадцатому дню появляется точка окостенения в лучевой кости запястья. В стопе происходит увеличение имеющихся центров окостенения, но новые не возникают. К тридцатому дню в запястье имеются четыре точки окостенения (добавляются центры второго и третьего дистальных костей запястья). В предплюсне также представлены четыре точки окостенения (таранная, пяточная, кубовидная, центральная). Появляются центры окостенения в дистальных эпифизах метакарпальных и метатарзальных костей II-V пальцев. К двум месяцам формируются первичные точки окостенения во всех оставшихся костях мезоподий кистей и стопы. В акроподиях кисти окостеневают проксимальные эпифизы первых фаланг, а в стопе - первых и вторых фаланг. Кроме этого, точки окостенения имеют апофизы добавочной кости запястья и пяточной кости. У трехмесячных особей окостеневают проксимальные эпифизы вторых фаланг кисти. В четыре месяца происходит первый синостоз в кисти, срастается апофиз добавочной кости. В пять месяцев синостозирует проксимальный эпифиз первой фаланги первого пальца и в начальной фазе синостозирования находятся эпифизы вторых фаланг II - V пальцев. В шесть месяцев синостозируют апофиз пяточной кости и все эпифизы акроподий передних и задних конечностей,.

Таким образом, у новорожденных скелет стопы, по сравнению с кистью, более зрелый. В первые три месяца постнатальной жизни дифференцировка стопы опережает кисть. К 90 дням жизни зрелость кисти и стопы достигает одинаковой степени. В последующие месяцы жизни наблюдается обратное соотношение - дифференцировка кисти идет впереди стопы.

## К ВОПРОСУ ОБ ИЗМЕНЧИВОСТИ ЗАТЫЛОЧНОГО ЭМИССАРНОГО ОТВЕРСТИЯ

Гафарова Р.А.

*Азербайджанский медицинский университет. Кафедра Анатомии человека и медицинской терминологии. Баку, Азербайджан*

**Дата публикации:** Декабрь 2019

***Контактная информация**: Баку, пр. З. Буньятова, 64/68, кв. 66; e-mail: dr.qafarova -72@mail.ru

## ON VARIABILITY OF OCCIPITAL EMISSARY FORAMEN

Gafarova R.A.

*Azerbaijan Medical University. Department of Human Anatomy and Medical Terminology. Baku, Azerbaijan*

Publication date: December 2019

Contact information: 1102, Baku, 20 january str. 10, app. 26 email:khalaphli@mail.ru

В настоящее время как в клиническом, так и в функциональном плане остается актуальной проблема изучения эмиссарных отверстий черепа, через которые

проходят эмиссарные вены, связывающие синусы твердой оболочки мозга с внечерепными венозными коллекторами. При повреждении костей черепа они могут служить источником кровотечения. В этом отношении изучение изменчивости эмиссарных отверстий черепа представляет не только теоретический интерес, но и имеет большое значение в клиническом аспекте.

Целью настоящего исследования явилось изучение изменчивости затылочного эмиссарного отверстия.

Объектом для исследования послужили 74 черепа, взятые из краниологической коллекции фундаментального музея кафедры анатомии человека и медицинской терминологии Азербайджанского Медицинского Университета. Определялось наличие, количество, локализация (двусторонняя, право- или левосторонняя) затылочного эмиссарного отверстия.

Результаты исследования показали, что общая частота встречаемости затылочного эмиссарного отверстия составила 12,2%. Во всех случаях было обнаружено одиночное отверстие. Правосторонняя локализация затылочного эмиссарного отверстия наблюдалась в 5,4% случаев. Левосторонняя локализации данного отверстия была обнаружена в 4,1% случаев. В 2,7% случаев затылочное эмиссарное отверстие располагалось по средней линии на наружном затылочном гребне. На нашем материале встречались случаи нахождения затылочного эмиссарного отверстия вблизи большого затылочного отверстия. При проведении сравнительного анализа черепов с затылочным эмиссарным отверстием на 3 черепах было обнаружено двустороннее отсутствие теменного отверстия.

Таким образом, результаты исследования показали изменчивость затылочного эмиссарного отверстия. Можно сделать вывод, что затылочное эмиссарное отверстие встречается редко по сравнению с другими эмиссарными отверстиями черепа.

## ТОЛЩИНА СЛОЯ НЕРВНЫХ ВОЛОКОН СЕТЧАТКИ У ПАЦИЕНТОВ С БОЛЕЗНЬЮ АЛЬЦГЕЙМЕРА

Гулиева Р.Н.
*Институт физиологии имени А.И. Караева Национальной Академии Наук Азербайджана. Баку, Азербайджан*

**Дата публикации:** Декабрь 2019
***Контактная информация**:* Баку, М. Нахичевани, 9, кв. 85; email : rubakuliyeva@mail.ru

## THICKNESS OF THE NERVE FIBERS LAYERS OF THE RETINA IN PATIENTS WITH ALZHEIMER'S DISEASE

Gulieva R.N.
*Institute of Physiology named after A.I. Karaev National Academy of Sciences of Azerbaijan. Baku, Azerbaijan*

Publication date: December 2019
Contact information: 1102, Baku, 20 january str. 10, app. 26 email:khalaphli@mail.ru

Офтальмологические изменения при болезни Альцгеймера (БА) включают различные структуры в переднем и заднем полюсе. Установлено, что в заднем полюсе

толщина сетчатки коррелируется с атрофией коры больших полушарий и сосудистой оболочкой глаза.

У 45 пациентов с болезнью Альцгеймера умеренной и легкой степени выраженности (88 глаз) оценена толщина слоя нервных волокон сетчатки. Пациенты были в возрасте от 58 до 74 лет, средний возраст составил 66,2±3,44 лет, мужчин было 10, женщин 35. В контрольную группу включены 60 пациентов без БА (115 глаза), средний возраст - 59,6±2,03 лет. Острота зрения у пациентов БА составила 0,87±0,13 (контроль - 0,97±0,18); внутриглазное давление 14,82±1,88 мм рт.ст. (контроль - 16,0±1,74 мм рт.ст.). Пациенты с БА имели статистически значимо низкие оценки по шкале MMSE (на 53,2%, $p<0,01$).

Всем обследованным была проведена оптическая когерентная томография (ОКТ) на аппарате «Cirrus HD-OCT» (фирма Carl Zeiss Meditec). В процессе исследования проводилась регистрация и анализ оптических томограмм в режиме картирования, использован протокол RNFL (retinal nerve fiber layer – слой нервных волокон сетчатки). Статистическая обработка полученных результатов выполнена в программе Microsoft Excel 2016. Статистический анализ и оценка получаемых результатов проводились с помощью программы Statistica 8.0. Средняя толщина сетчатки в группе с БА составила 81,67±13,82 мкм (контроль - 111,9±9,24 мкм), в височном сегменте - 63,88±6,11 мкм (контроль - 83,95±6,91 мкм), в верхнем, носовом и нижнем сегментах 112,48±13,14 мкм (контроль - 137,04±9,28 мкм), 67,89±8,91 мкм (контроль - 80,26±6,76 мкм) и 94,27±9,72 мкм (контроль - 125,43±9,91 мкм) соответственно. Величина средней толщины нервных волокон сетчатки RNFL в сравнении с группой контроля была статистически значимой ($p<0,05$). В височном, верхнем и нижнем квадранте истончение нервных волокон сетчатки у пациентов с БА в сравнении с группой контроля также носило статистически значимый характер. Средняя толщина слоя нервных волокон сетчатки у пациентов с БА по отношению к группе контроля была ниже на 37,0%, в височном, верхнем и нижнем квадранте разница составила 31,4, 21,8 и 33,1% соответственно. Толщина в носовом квадранте при БА была снижена на 14,2%. Величина толщины нервных волокон в височном сегменте в группе пациентов с БА варьировалась в интервале 53 – 74 мкм (контроль – 71 – 95 мкм), в верхнем квадранте – в интервале 98 – 136 мкм (контроль – 118 – 156 мкм), в нижнем сегменте – в интервале 77 – 112 мкм (контроль – 110-140 мкм) и в назальном сегменте –в интервале 51 – 84 мкм (контроль - 67 – 94 мкм). При этом в группе БА у 8 (17,8%) пациентов толщина нервных волокон в височном квадранте была в рамках нормальных величин. Толщина слоя нервных волокон в верхнем, нижнем и назальном сегментах в пределах контрольных величин отмечалась у 17 (37,8%), 7 (15,5%) и 20 (44,4%) обследованных соответственно. Нормальные величины толщины нервных волокон в височном и назальном квадранте встречались сочетано у 3 (6,7%) пациентов, нормальная толщина в височном, верхнем, назальном квадранте – у 1 (2,2%) пациента. Также у 1 (2,2%) пациента выявлялась нормальная толщина слоя нервных волокон сетчатки глаза в височном нижнем и височном верхнем сегментах соответственно. У 8 (17,8%) пациентов отмечалась нормальная толщина слоя нервных волокон в верхнем назальном квадрантах.

Таким образом, пациенты с БА имели ретинальные структурные изменения, причем чаще снижение толщины слоя нервных волокон сетчатки глаза выявлялось в нижнем и височном сегментах.

# ВЗАИМООТНОШЕНИЯ СОБСТВЕННЫХ ЖЕЛЕЗ ПИЩЕВОДА ЧЕЛОВЕКА С ЛИМФОИДНЫМИ СКОПЛЕНИЯМИ В СТЕНКЕ ЭТОГО ОРГАНА У ПОДРОСТКОВ

Джафарова У.Т.
*Азербайджанский медицинский университет. Кафедра Анатомии человека и медицинской терминологии. Баку, Азербайджан*

**Дата публикации:** Декабрь 2019
***Контактная информация***: AZ1147, Bakı, H.Seyidzadə küç. 38, mən. 328A; e-mail: ulya1669@gmail.com

# MUTUAL RELATIONS OF THE PROPER GLANDS OF THE HUMAN ESOPHAGUS WITH LYMPHOID CLUMPS IN THE WALL OF THIS ORGAN OF TEENAGERS

Jafarova U.T.
*Azerbaijan Medical University. Department of Human Anatomy and Medical Teminology. Baku, Azerbaijan*

Publication date: December 2019
Contact information: AZ1147, Baku, H.Seyidzade str. 38, app. 328A; e-mail: ulya1669@gmail.com

